**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜSTƏQİLLİK DÖVRÜ LƏNKƏRAN ƏDƏBİ MÜHİTİ

İxtisas: 5716.01 - Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru

elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**

İddiaçı: _________ **Nərmin Hamlet qızı Məmmədova**

Elmi rəhbər: __________ **f.e.d. prof. Vüqar Mikayıl oğlu Əhməd**

**BAKI – 2022**

## MÜNDƏRİCAT


**GİRİŞ ...………………........................................................................................3**

**I FƏSİL**

**Müstəqillik dövrü Lənkəran ədəbi mühitinin mövzu və janr əlvanlığı...............................................................................................................13**

1.1. İctimai-siyasi hadisələrin poeziyada inikası və lirik növün mövzu və janr özünəməxsusluğu ...............................................................................................13

1.2. Bədii nəsrin spesifik xüsusiyyətləri ...............................................................40

1.3. Publisistika .......................................................................................................51

1.4. Uşaq ədəbiyyatı ..............................................................................................55

**II FƏSİL**

**Müstəqillik dövrü Lənkəran ədəbi mühitinin əsas simaları ................................62**

2.1. Mirhaşım Talışlı yaradıcılığı və klassik şeir ənənələrinin təzahürü.. .................62

2.2. Elşad Səfərlinin poeziyası və sonet janrının inkişafı .......................................75

2.3. Məsudi Dövranın yaradıcılığında qürbət motivləri və xalq ruhuna yaxınlıq......99

2.4. İltifat Salehin sərbəst şeir yaradıcılığı...............................................................111

**III FƏSİL**

**Müstəqillik dövrü Lənkəran ədəbi mühitində klassik məclis ənənələri ........117**

3.1. "Fövcül–füsəha" ədəbi məclisinin Lənkəran ədəbi mühitinə təsiri .................117

3.2. "Ziya" ədəbi məclisi və gənc yazarlar...............................................................124

**NƏTİCƏ................................................................................................................136**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI............................................140**

# GİRİŞ

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı əvvəlki mərhələlərə nisbətən bir çox xüsusiyyətləri və yenilikləri ilə seçilir. Belə ki, ictimai–siyasi hadisələrin gedişatı təkcə tarixdə deyil, həmçinin ədəbiyyatda da öz dərin izlərini qoymaqla onu həm məzmunca, həm də fərqli formaları ilə zənginləşdirmişdir. Təbii bir haldır ki, müstəqillik dövrü Azərbaycan ədəbiyyatının ayrılmaz bir hissəsini təşkil edən Lənkəran ədəbi mühiti də digər ədəbi mühitlər kimi bu təsirlərin heç birindən kənarda qalmamışdır. Qədim tarixi poetik ənənələrə malik Lənkəran ədəbi mühiti müstəqillik dönəmində də öz ənənələrini itirməmiş, əksinə yeni-yeni ideyaları poeziyaya gətirərək məxsus olduğu klassik tərzinə yeni don geyindirməyi bacarmışdır.

Aparılan araşdırmalardan məlumdur ki, *"milli ədəbiyyatın simasını zəngin ənənələrlə yanaşı, müasir ədəbiyyatın parametrləri, rəngarəng mənzərəsi müəyyənləşdirir. Müasir Azərbaycan ədəbiyyatı milli müstəqillik illərinin ədəbiyyatıdır. 1990-cı illərdən başlayaraq, əvvəlki dövr ədəbiyyatından fərqli səciyyə və xüsusiyyətlər göstərir. Həm mövzu əhatəsinə görə: 20 Yanvar faciəsi, Qarabağ savaşı, milli cəmiyyətin dünyaya inteqrasiyası, milli insanın müasirləşmə tendensiyası, qlobalizə proseslərinə reaksiya və s. həm də struktur etibarilə sovet dövrünün bir- mərkəziyyətçi ədəbiyyatından fərqli, çoxsəsli, plüralist rəngarəngliyə malikdir"* [158, s.58].

Lənkəran hər zaman şeir, sənət beşiyi olmuşdur. Aparılan araşdırmalar zamanı görürük ki, *"Lənkərana çoxlu şairlər müxtəlif şeirlər həsr etmişsə də, rus şairi N.Tixonov ilk dəfə doğma şəhərimizi "cənub mirvarisi" adlandırmışdır. Bu ifadə dillər əzbəri olmuş və bir çox sonrakı nəsil qələm ustaları Lənkərana həsr etdikləri əsərlərdə bu ifadəni həvəslə vurğulamışlar"* [99, s.69 ].

Bölgə ədəbi mühitlərinin tədqiqatı olduqca mühim əhəmiyyət kəsb edir. Bu günə kimi bir çox ədəbi mühitlər tədqiq olunmuş, müxtəlif yönümlü araşdırmalar aparılmışdır. Buna misal olaraq Mətanət Saraçlının "Naxçıvan ədəbi mühitindən" [174], Səbinə Əhmədovanın "Qarabağ ədəbi-mədəni mühiti (XIX əsrin ikinci yarısı

XX əsrin əvvəlləri) [46], Şurəddin Məmmədlinin "Azərbaycan ədəbiyyatının Borçalı qolu (1920-ci ilə qədər)" [116], Sona Xəyalın "Maştağa ədəbi mühiti və yerli şair Mir Cəlal" [189], İlham Məmmədlinin "XX əsr Kəlbəcər ədəbi mühiti" [115], Abbas Hacıyevin "Tiflis ədəbi mühiti" [69] və başqa elmi tədqiqat əsərlərini göstərə bilərik.

Lənkəran ədəbi mühitinin ilk növbədə həm klassik ənənələrə sadiqliyi, həm də müasir ənənələr fonunda inkişaf etməsi onun tədqiqatını vacib edən amillərdən birinə çevirir. Eyni zamanda ədəbi mühitdə müstəqillik dönəmində bir çox sahələrin-publisistika, bədii nəsrin bir çox formalarının inkişafı daha çox diqqət çəkdiyindən araşdırılması zəruri olan məqamlardan biridir. Çünki ədəbi mühitdə daha öncəki dönəmlərdə bu sahələr bir o qədər də inkişaf etməmiş, daha çox lirik növdə və əruz vəznində yazılan klassik şeir biçimləri Lənkəran ədəbi mühitinin poeziyasının əsas göstəricilərindən biri olmuşdur. Müstəqillik dövründə isə ədəbi mühitdə bədii nəsr nümunələri, lirik növün yeni–yeni janrları, publisistik yazıların ədiblərin yaradıcı sferasında geniş şəkildə vüsət aldığının şahidi oluruq.

Bədii nəsrin müstəqillik illərində Lənkəran ədəbi mühitində ən çox qarşılaşdığımız hekayə, roman, povest kimi formaları və onların mövzu dairəsi də araşdırılması vacib olan məqamlardandır. Mövzu baxımından rəngarəngliyi ilə seçilən bədii nəsr nümunələri və bu nümunələri yaradan nasirlərin, xüsusilə də Mirhüseyn Abbas, Hafiz Mirzə, Sevda Əlibəyli, Zakir Bağır və digərlərinin yaradıcılığının ayrı-ayrılıqda tədqiqata ehtiyacı vardır.

Bölgə ədəbi mühitində publisistikanın inkişaf etməsi, publisistika sahəsində qələmini sınayanların və eləcə də publisistik yazılarda toxunulan əsas məqamların mövzu dairəsinin ayırıca olaraq geniş şəkildə araşdırılmağa ehtiyacı var. Məlumdur ki, publisistika elə bir sahədir ki, özündə cəmiyyətdə baş verən bütün yenilikləri, ictimai-siyasi gedişatı, gündəlikdə duran müxtəlif mövzuları əhatə edən məsələləri bilavasitə inikas etdirir. Elə məhz bu baxımdan müstəqillik dövrü Lənkəran ədəbi mühitində bir çox sahələrdə baş verən dirçəlişdən, inkişafdan xəbər verən publisistikanın ayrıca olaraq araşdırılması çox mühüm əhəmiyyət kəsb edir.

Aparılan araşdırmalardan məlumdur ki, *“müasir Azərbaycan ədəbiyyatı müstəqil Azərbaycan cəmiyyətinin həyatı, arzu və ideyalarından yaranmışdır, müstəqil Azərbaycan dövlətçiliyinin dəyərlərinə söykənir. İdeoloji baxımdan bu tamamilə yeni ədəbiyyatdır. İdeoloji vacibdir; o cümlədən ədəbiyyatın, sənətin artması, inkişafında ideoloji diskursun iştirakı şəksizdir. Bunu 1990-cı illərin ideoloji atmosferinin mürəkkəbliyi bir daha üzə çıxardı. Özlüyündə sosrealizm mənganəsindən azad olmuş, buxovlardan qurtulmuş ədəbiyyat və sənət məhz yeni ideologiya axtarışlarında təbəddülat keçirdi. Millətin, xalqın, cəmiyyətin, fərdin, insanın taleyi; milli sosial, zümrəvi, fərdi, dünyəvi mənafe; tarixi-mədəni, ictimai-siyasi, dini mənəvi, etnik–milli, bəşəri-sivilizasion dəyərlər, qolobal maraqlar, geopolitik maraqlar, hər qarşıyan çıxan düyündə millət sevdası ədəbiyyat və sənət üçün ideoloji zərurətin kontekstini müəyyənləşdirməkdə çətinlik törədirdi”*[158, s.59]. Bütün bu xüsusiyyətləri biz müstəqillik dövrü Azərbaycan ədəbiyyatında gördüyümüz kimi onun ayrılmaz bir hissəsini təşkil edən Lənkəran ədəbi mühitində də açıq-aşkar müşahidə edə bilirik. Belə ki, ictimai-siyasi hadisələr fonunda ədəbiyyata birbaşa təsir edən mövzular, xalqın azadlıq uğrunda apardığı mübarizə nəticəsində ədəbiyyatda yaranan patriotik şeirlər, tamamilə yeni-müstəqillik ideologiyasının bədii nümunələrdə təbliği Lənkəran ədəbi mühitinin müstəqillik dövründə qazandığı və bölgənin əvvəlki dönəmlərində heç bir poetik nümunələrdə qarşılaşmadığımız mövzular silsiləsindəndir.

Bütövlükdə müstəqillik dövrü Azərbaycan ədəbiyyatı bir çox araşdırmaların əsas obyekti olmaqla bir sıra tədqiqat işlərinin aparılmasına, maraqlı elmi əsərlərin ortaya çıxmasına səbəb ola bilər. Çünki Lənkəran ədəbi mühitində fəaliyyət göstərən ədiblərin çoxşaxəli yaradıcılığı, ədəbiyyatımıza gətirdiyi bir çox yeniliklər, eyni zamanda yazarların əsərlərində qarşılaşdığımız bir çox diqqət çəkən məqamlar, bölgədə müstəqillik dövründə mövcud olan məclis ənənələri bunu xüsusilə vurğulamağa əminlik yaradır. Elə məhz sadalanan bu və digər səbəblərdən müstəqillik dövrü Lənkəran ədəbi mühitinin də bu sfera çərçivəsində araşdırılaraq

tədqiq olunması qarşıya qoyulan çox mühüm və araşdırılması vacib olan vəzifələrdən biridir.

Müstəqillik dövründə Lənkəran ədəbi mühitinin inkişafı təkcə bölgənin özü ilə məhdudlaşmamış, eyni zamanda ətraf rayonlara da öz təsirini göstərmişdir. Bölgədə fəaliyyət göstərən ədəbi məclislər qonşu rayonlarda yavaş-yavaş formalaşmağa başlayan ədəbi mühitin də dirçəlməsinə şərait yaratmışdır. "Fövcül-füsəha" ədəbi məclisindən təsirlənərək Astarada "Çeşmələr", Cəlilabadda "Söz işığı" nın yaradılması buna bariz nümunə ola bilər. Ətraf rayonlardan olan söz ustaları tez–tez bu məclislərdə görüşlər təşkil edirdi. Xüsusilə də Mirhaşım Talışlının rəhbərliyi ilə şairin öz evində təşkil olunan bu görüşlərdə Lerik, Yardımlı, Masallı, Cəlilabad, Astaradan olan ədibləri görmək olardı. Lənkəran ədəbi mühiti kimi, Lerik, Yardımlı, Masallı, Cəlilabad, Astara ədəbi mühitlərinin də geniş tədqiq olunmağa ehtiyacı vardır. Bu ədəbi mühitlərin həm oxşar, həm də bir–birindən fərqli cəhətləri, eyni zamanda "Cənub ədəbi mühitini" formalaşdırması onların hər birinin ayrılıqda tədqiqatını vacib edir.

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dərin poetik köklərə söykənən Lənkəran ədəbi mühitinin müstəqillik dövrünün araşdırılaraq öyrənilməsi çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın ayrılmaz bir hissəsini təşkil edən "Cənub mirvarisi" - Lənkəran hər zaman öz qaynar ədəbi mühiti ilə fərqlənmiş, bir çox söz ustaları bu mühitdə öz dəst–xətti ilə seçilmişdir. Bölgədə zamanında fəaliyyət göstərən "Fövcül–füsəha" ədəbi məclisi, həmçinin bu məclisin fəal üzvlərindən- Mirzə İsmayıl Qasir, Molla Fəttah Səhban, Mirzə Ələkbər Aciz, Mirzə Əziz Molla Əli oğlu Əliyev, Mirzə Əhməd Hüseyn oğlu Kəmin, Mirzə İsa Hacı Məhəmmədrəhim oğlu Xəyali, Usta Məhəmmədhəsən Rəhim oğlu Nəccar, Molla Məhəmməd Hacı Əli oğlu Mücrim, Mirzə Rəcəb Kərbəlayi Kazım oğlu Vəssaf, Mirzə Ələkbər Ələsgər oğlu Mühəqqər, Mirzə Ələkbər Mirzə Əliqulu bəy oğlu Səburi, Usta Hüseynqulu Allahverdi oğlu Dünbəndidüz Şuri, Mirzə Qasım bəy Talışınski, Mirzə Mustafa, Qaşdan Rza yaradıcılığı buna bariz nümunə ola bilər. Onu da xüsusilə vurğulamaq lazımdır ki, Lənkəran ədəbi mühitində yazıb yaradan adı

çəkilən ədiblərin yaradıcılığı haqqında daha geniş və ətraflı məlumatı biz ədəbiyyatşünas alim, tədqiqatçı Mirhaşım Talışlının "XIX əsr Lənkəran ədəbi mühiti" adlı elmi–tədqiqat işindən əldə edirik. [204, ı c., 200,].

Lənkəran ədəbi mühiti əvvəlki dövrlərində olduğu kimi müstəqillik dövründə də həm məzmunca, həm də formaca bir çox yenilikləri ilə diqqət çəkir. Bu yeniliklərin araşdırılaraq tədqiqat obyekti kimi öyrənilməsi qarşıya qoyulan ən böyük və zəruri məsələlərdən biridir. Həmçinin müstəqillik dövrü Lənkəran ədəbi mühitini formalaşdıran söz ustalarının yaradıcılığı fərqli, özünəməxsus üslubu, metodu, məzmun və forma yeniliklərinin doğurduğu fərqli çalarlarının tədqiq edilməsi, klassik məclis ənənələrinin müstəqillik dövründə yenidən dirçələrək inkişafı, sonet janrının bölgə ədəbi mühitində inkişafı da bu zəruri məsələləri araşdırmağa sövq edən əsas amillərdəndir.

Yaşadığımız dövrü əhatə edən müstəqillik dövrü Azərbaycan ədəbiyyatı məlumdur ki, XX əsrin sonu XXI əsrin başlanğıcını əhatə edir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı əvvəlki dövr ədəbiyyatından həm mövzu əhatəsinə, həm də quruluş baxımına görə yetərincə fərqlənir. Müstəqillik illərinin ədəbiyyatı, əlbəttə ki, müasir Azərbaycan ədəbiyyatıdır. Təbii ki, bu dövrdə yazıb-yaradan bir çox sənətkarların ayrı-ayrılıqda yaradıcılıqları, üslubu bu və digər dərəcədə araşdırılmışdır. Lakin bu böyük salnamənin Lənkəran ədəbi mühiti və bu ədəbi mühitdə yazıb-yaradan söz ustalarının bir-birindən rəngarəng yaradıcılığı demək olar ki, araşdırılmamışdır. Belə ki, zəngin ədəbi irsə malik olan Lənkəran ədəbi mühiti təkcə Mirhaşım Talışlının "XIX əsr Lənkəran ədəbi mühiti" adlı elmi tədqiqat işi ilə yekunlaşır. Lənkəran ədəbi mühitinin nə müstəqillik dövrü, nə də ki bu mühiti formalaşdıran ayrı-ayrı sənətkarlıq xüsusiyyətlərinə malik söz ustalarının, yazarların bədii irsi, fərqli yaradıcılıq metodu, həmçinin mühitdə müstəqillik dövründə yenidən fəaliyyətə başlayan ədəbi məclis ənənələri demək olar ki, araşdırılmamışdır. Bu baxımdan əminliklə qeyd etmək olar ki, mövzunun araşdırılaraq işlənməsi yox dərəcəsindədir və heç bir tədqiqatçı tərəfindən indiyə qədər ətraflı olaraq tədqiq olunmamışdır. Buna baxmayaraq, müstəqillik dövrü Lənkəran ədəbi mühitinin bir

çox aspektlərdən tədqiqatı vacibdir və ədəbiyyatımıza bir çox yeni töhfələr bəxş etdiyindən bu yeniliklərin ayrı-ayrılıqda fundamental formada araşdırılması olduqca gərəklidir.

**Tədqiqat işinin obyekti və predmeti.** Dissertasiya işində başlıca araşdırma obyekti müstəqillik illərində Lənkəran ədəbi mühitində yazılmış bədii nümunələrdir. Lənkəran ədəbi mühitinin zəngin olduğunu sözügedən mərhələdə Azərbaycan ədəbiyyatına bəxş etdiyi bir–birindən fərqli ədəbi nümunələr təsdiq edir. Tədqiqat işində daha çox müstəqillik dövrü Lənkəran ədəbi mühitinin inkişaf istiqamətləri, janr, mövzu əlvanlığına üstünlük verilmişdir. Həmçinin ədəbi mühiti formalaşdıran ayrı-ayrı sənətkarların yaradıcılığı, özünəməxsus xüsusiyyətləri müstəqillik dövründəki klassik irsə sadiq qalaraq yenidən fəaliyyətə başlayan məclis ənənələri və bu ənənələrin müasir biçimdə olan inkişafı da bu istiqamətlərə uyğun olaraq araşdırılmışdır. Tədqiqatın predmetini Lənkəran ədəbi mühitində yaşayıb yaradan yazarlardan Mirhaşım Talışlının, Elşad Səfərlinin, Ağamir Cavadın, Məsudi Dövranın, İltifat Salehin, Mirhüseyn Abbasın, Mirhafiz Bahadırın, Oktay Zəkanın, Hafiz Mirzənin, Xatirə Xatunun, Mirsalam Müasirin, Nadir Müzəffərin, Aliyə Seyidqızının, Zakir Bağırın, Sevda Əlibəylinin, Əhməd Tahirin, Eldar Tahirovun və digərlərinin əsərləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Müstəqillik dövrü Lənkəran ədəbi mühitinin özünəməxsus xüsusiyyətləri, inkişaf yönləri, bu mühitdə öz dəst-xətti ilə seçilən aparıcı ədəbi qüvvələrin yaradıcılığının, özünəməxsus, fərqli üslubunun, metodunun, həmçinin ədəbi mühitdə müstəqillik dövründə formalaşan bir çox yeniliklərin araşdırılaraq üzə çıxarılması və tədqiqi əsas məsələlərdən biri kimi qarşıya qoyulmuşdur.

**Tədqiqatın metodları.** Tədqiqat işi müasir ədəbiyyatşünaslığın mühüm elmi-nəzəri prinsipləri nəzərə alınmaqla yazılmışdır. Mövzunun araşdırılaraq tədqiq olunması zamanı müqayisəli tarixi metod, sistemli-təhlil üsulları, eləcə də müstəqillik dövrü Lənkəran ədəbi mühitinin inkişaf istiqamətlərinin araşdırılaraq ətraflı tədqiqində əsasən tipoloji və fərqli yanaşma üsulları daha çox əsas götürülmüşdür.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində aşağıdakı məsələlərə xüsusi olaraq diqqət yetirilmişdir və onlar müdafiəyə çıxarılacaq əsas müddəaları təşkil edir:

- Müstəqillik dövrü Lənkəran ədəbi mühitində poeziyada ictimai-siyasi hadisələrin təcəssümü – Qarabağ müharibəsi, 20 Yanvar hadisələrinin poeziyaya gətirdiyi qəm – kədər motivləri və eləcə də müstəqillik qazandıqdan sonra əldə olunan azadlığın, müstəqilliyin, poeziyaya gətirdiyi nikbinlik, gələcəyə inam hissinin bərpası, eyni zamanda dahi lider Heydər Əliyevin bütün bu hadisələr fonunda ədəbiyyatda müstəqilliyi bərpa edən, xalqın sabitliyi uğrunda mücadilə aparan xilaskar obrazı kimi tərənnümü və bu dönəmdə baş verən digər ictimai-siyasi hadisələrin poeziyaya yansıması;
- Lirik növün həm janr, həm də mövzu cəhətdən özünəməxsusluğu – müstəqillik dövrü Lənkəran ədəbi mühitində ən çox istifadə olunan şeir formaları və onların mövzu dairəsinin araşdırılması;
- Sərbəst şeir, əruz və heca vəznlərinin ayrı-ayrı ədiblərin yaradıcılığında bu və digər dərəcədə işlənmə məqamları, eyni zamanda ədiblərin dilində klassik ifadələrin müstəqillik qazandıqdan sonra get–gedə öz yerini daha çox milli mənşəli ifadələrlə əvəzləmə səbəblərinin müəyyənləşdirilməsi;
- Bədii nəsrin spesifik çalarları və mövzu dairəsi, Lənkəran ədəbi mühitində yazıçıların hekayə, povest, roman janrında qələmini sınayaraq toxunduğu mövzuların əhatə dairəsi;
- Publisistika sahəsinin müstəqillik dövrü Lənkəran ədəbi mühitində inkişaf səbəblərinin müəyyənləşdirilməsi;
- Uşaq ədəbiyyatının bölgə ədəbi mühitində özünəməxsus inkişaf yönlərinin müəyyənləşdirilməsi;
- Müstəqillik dövrü Lənkəran ədəbi mühitini formalaşdıran ədəbi simaların xüsusilə klassik irsə bağlılığı ilə seçilən Mirhaşım Talışlının, lirik növün əksər janrlarında, həmçinin sonet və xokku janrlarında qələmini sınayaraq həm bölgə ədəbi mühiti, həm də Azərbaycan ədəbiyyatında bır sıra ilklərə imza ataraq yeniliklər etmiş

Elşad Səfərlinin, yaradıcılığında daha çox qürbət motivləri üstünlük təşkil edən və eyni zamanda poeziya dili xalq deyimlərinə, xalq ruhuna daha çox yaxınlığı ilə seçilən Məsudi Dövranın, sərbəst şeir yaradıcılığı ilə bölgəyə ayrıca rəng qatan İltifat Salehin yaradıcılığı, həmçinin bölgədə fəaliyyət göstərən digər ədiblərin zəngin irsinin, dəst-xəttinin, yaradıcılıqlarında mövzu və janr özünəməxsusluğunun, fərqli üslubi cəhətlərinin aşkara çıxarılması;

- Qərb ədəbiyyatının qədim janrlarından biri olan sonet janrının müstəqillik dövründə daha da inkişaf edərək Lənkəran ədəbi mühitində özünəxas yer tutmasının əsas səbəbləri və bu janrın inkişaf xəttinin tədqiqi;

- Müstəqillik dövrü Lənkəran ədəbi mühitində "Fövcül - füsəha" ədəbi məclisinin Mirhaşım Talışlı tərəfindən yenidən bərpa olunaraq fəaliyyətə başlaması və bu məclisin bölgə ədəbi mühiti üçün daşıdığı xüsusi əhəmiyyətin araşdırılaraq üzə çıxarılması;

- Müstəqillik dövrü Lənkəran ədəbi mühitinin formalaşmasında klassik məclis ənənələrinin rolunun – "Fövcül–füsəha" ədəbi məclisinin təsiri ilə Ziyafət Əkbərov tərəfindən yaradılmış gənc yazarlardan ibarət "Ziya" ədəbi məclisi və bu məclisdə yetişən gənc yazarların yaradıcılıqlarının araşdırılması.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat işində ilk dəfə olaraq bölgədə fərqli, özünəməxsus qələm təcrübəsi ilə seçilən yazarların yaradıcılığı araşdırılaraq mövzu, janr, üslub baxımından şərhi öz əksini tapmışdır. Həmçinin ədəbi mühitin həm klassik, həm də müasir şeir ənənələrini özündə unikal formada ehtiva etməsi araşdırılan məsələlərdən biridir. Eyni zamanda ilk dəfə olaraq bölgədə bədii nəsrin inkişafı, hekayə, povest, roman, eləcə də esse janrlarında qələmini sınayan nasirlərin toxunduqları mövzular, publisistikanın inkişafı, publisistik yazıların mövzu dairəsi, müstəqillik dövründə bölgədə yaranan uşaq ədəbiyyatının maraqlı nümunələri, Azərbaycan ədəbiyyatında o qədər də çox istifadə olunmayan, qərb ədəbiyyatının incisi - sonet janrının Lənkəran ədəbi mühitində tutduğu xüsusi mövqe, bölgənin klassik ədəbi məclis ənənələrinin qorunub saxlanılaraq yenidən bərpa olunması, zamanında Mirzə İsmayıl Qasir tərəfindən yaradılan "Fövcül-füsəha" ədəbi

məclisinin müstəqillik dövründə Mirhaşım Talışlı tərəfindən bərpa olunaraq öz ətrafına bir çox ədibləri toplayaraq yenidən fəaliyyətə başlaması və Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq gənc yazarlardan ibarət “Ziya” ədəbi məclisinin “Fövcül-füsəha” ədəbi məclisindən ilhamlanaraq Ziyafət Əkbərov tərəfindən yaradılaraq fəaliyyətə başlaması araşdırılan əsas məqamlardan biridir. Eyni zamanda bölgədə öz dəst-xətti ilə seçilən ədiblərin - xüsusilə klassik ruhda yazan Mirhaşım Talışlının, xalq ruhuna yaxın yazan Məsudi Dövranın, qərb ruhunda yazan Elşad Səfərlinin, sərbəst şeir yaradıcılığı ilə bölgə ədəbi mühitinə yenilik gətirən İltifat Salehin yaradıcılıqları da ilk dəfə olaraq araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işində aparılan araşdırmalar və onun nəticələri, irəli sürülmüş elmi-nəzəri qənaətlər və ümumiləşdirmələr Lənkəran ədəbi mühitinin müstəqillik dövründə yazıb-yaradan söz ustalarının əsərlərindən, müxtəlif problemlərin öyrənilməsi baxımından əhəmiyyətli ola bilər. Həmçinin tədqiqat işi gələcəkdə də bu istiqamətlərdə aparılacaq yeni tədqiqat işləri üçün də müəyyən dərəcədə imkanlar açır. Bu baxımdan müstəqillik dövrü Lənkəran ədəbi mühitinin araşdırılaraq öyrənilməsinin nəzəri-təcrübi əhəmiyyəti çox böyükdür.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Tədqiqat işinin mövzusu Azərbaycan Milli Elmlər Akademiyası, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin filologiya problemləri üzrə elmi şurasında təsdiq olunub. Tədqiqat işinin əsas məzmunu AAK–ın qeydiyyatında olan müxtəlif respublika əhəmiyyətli elmi məcmuələrdə, beynəlxalq və respublika əhəmiyyətli konfransların materiallarında, eləcə də xaricdə nəşr olunmuş məqalələrdə öz əksini tapmışdır. Dissertasiya işinin əsas müddəalarını əks etdirən on bir məqalədən üçü xaricdə dərc olunmuşdur. On tezis isə respublika və beynəlxalq əhəmiyyətli konfrans materiallarına daxil edilmişdir. Biri xaricdə olmaqla üç beynəlxalq, beş respublika əhəmiyyətli konfrans materiallarına daxil olan tezislər isə fərqlənmə sertifikatlarına və təşəkkürnamələrə layiq görülmüşdür.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Tədqiqat işinin mövzusu Azərbaycan Milli Elmlər Akademiyası, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin filologiya problemləri üzrə elmi şurasında təsdiq olunduqdan sonra dissertasiya işi Lənkəran Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işinin struktur bölmələri "Giriş", üç fəsil, "Nəticə" və "İstifadə edilmiş ədəbiyyat" siyahısından ibarətdir. Dissertasiyanın "Giriş" hissəsi 10 səhifə - 17166 işarədən, I fəsli 4 paraqraf olmaqla 49 səhifə - 84668 işarədən, II fəsli 4 paraqraf olmaqla 55 səhifə – 80992 işarədən, III fəsli 2 paraqraf olmaqla 18 səhifə – 30243 işarədən, "Nəticə" 5 səhifə - 8515 işarədən ibarətdir. Ümumilikdə isə tədqiqat işi 155 səhifədən, "İstifadə edilmiş ədəbiyyat" siyahısı istisna olmaqla 222085 işarədən ibarətdir.

# I FƏSİL

# MÜSTƏQİLLİK DÖVRÜ LƏNKƏRAN ƏDƏBİ MÜHİTİNİN MÖVZU VƏ JANR ƏLVANLIĞI

## 1.1.İctimai-siyasi hadisələrin poeziyada inikası və lirik növün mövzu və janr özünəməxsusluğu

Azərbaycan ədəbiyyatı hər zaman öz dəyərli söz ustaları ilə seçilmiş, hətta dünya ədəbiyyatı tarixinə belə, nadir nümunələr bəxş etməyi bacaran Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi dahi sənətkarlar yetişdirmişdir. İstər yazılı, istərsə də şifahi xalq ədəbiyyatının zənginliyi ilə seçilən Azərbaycan ədəbiyyatı hər zaman öz fərqli koloriti ilə də diqqət çəkmişdir. Təsadüfi deyil ki, bəzi bölgələrimizin adı çəkiləndə müvafiq janr və yaxud ədəbi formaların adı, yaxud da həmin bölgənin yetişdirdiyi sənətkarlar gözümüzün önündə canlanır. Məsələn, Borçalı ədəbi mühiti dedikdə ilk ağlımıza xalq şeir biçimləri, qoşma, gəraylı, bayatı, Maştağa ədəbi mühiti dedikdə dini motivli şeirlər, Naxçıvan ədəbi mühiti dedikdə klassik məclis ənənələri və s. gəlir. Bu siyahını təbii ki, hər bölgə üzrə müvafiq formada davam etdirmək olar.

Lənkəran ədəbi mühiti də Azərbaycan ədəbiyyatının formalaşmasında xüsusi rol oynayıb. Bu regionun qədimliyi, klassik ənənələri, maarifçilik ideyaları və s. haqqında biz ilkin məlumatlarımızı tədqiqatçı-alim Mirhaşım Talışlının araşdırmalarından – "XIX əsr Lənkəran ədəbi mühiti" adlı elmi tədqiqatından əldə edirik. Dərin ədəbi-mədəni köklərə malik olan Lənkəran ədəbi mühiti sağlam təməl üzərində formalaşdığından mühitin müstəqillik dövrü də əvvəlki dövrləri kimi zəngin və çoxşaxəlidir.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı digər dövrlərə nisbətən fərqli koloritə malik olduğundan, bu dövr Azərbaycan ədəbiyyatının ayrılmaz hissəsini təşkil edən Lənkəran ədəbi mühiti, həmçinin bu mühiti formalaşdıran ədəbi simalar və onların

özünəməxsus yaradıcılıq metodu da diqqət çəkir. Məhz elə bu baxımdan əminliklə söyləmək olar ki, regionların ədəbi mühitinin müstəqillik dövrünü araşdırmaq xüsusi əhəmiyyət kəsb edir. Çünki ədəbiyyat təkcə mərkəzdən ibarət deyildir. Şübhəsiz ki, onu zənginləşdirən və fərqlilik qatan məhz elə bölgələrə xas olan spesifik çalarlardır. Apardığımız araşdırmalar məhz bizə bu qənaətə gəlməyə geniş imkan yaradır.

Xüsusilə vurğulamaq lazımdır ki, "*Azərbaycan şeiri öz inkişaf tarixi ərzində heç zaman 1990-cı illərdə olduğu qədər dinamik, hadisələrə çevik reaksiya verən, ictimai-siyasi mühitlə nəfəs alan, o mühiti əks etdirən, ondan qidalanan, azadlıq ideyası ilə coşub daşan, eyni zamanda da poetik anlamda dünya ədəbi prosesi ilə qovuşmağa can ataraq onda gedən prosesləri əxz etməyə çalışan və məhz bu səbəbdən də bədii – estetik anlamda bir çox dəyişikliklərə uğrayan olmamışdır. Belə ki, 1980-ci illərin sonlarında Azərbaycanda, eyni zamanda da keçmiş SSRİ məkanında baş verən hadisələr ilk növbədə şeirə təsir göstərirdi. Və bu təsiri əvvəlcə-1980-ci illərin sonu, 1990-cı illəri əvvəllərində şeirin ideya - məzmun qatında daha sonralar isə həm də poetik xüsusiyyətlərində müşahidə etmək mümkün oldu*" [158,s.402]. Azərbaycan müstəqillik qazandıqdan sonra da poeziyada eyni gedişat müşahidə olunur. Bütün bu xüsusiyyətlər Azərbaycan ədəbiyyatının ayrılmaz hissəsi olan Lənkəran ədəbi mühitindən də yan keçməmişdir. Digər ədəbi mühitlərdən fərqli olaraq bu hadisələr Lənkəran ədəbi mühitində daha da qabarıq formada öz əksini tapmışdır. Çünki mövcud tarixi hadisələrin gedişatında Lənkəran daha fəal iştirak etmişdir.

Müstəqillik dövrü Lənkəran ədəbi mühiti ilk növbədə məzmun baxımından diqqət çəkir. Mühit lirik növdə yazılmış əsərlərlə daha zəngindir və lirik növün mövzu baxımından bölgüsü demək olar ki, müstəqillik dövrü Azərbaycan ədəbiyyatı və eləcə də mühitin əvvəlki dövrlərindəki mövzu dairəsindən o qədər də kənara çıxmır. Lakin lirikanın ənənəvi mövzularına fərqli bir baxış bucağı mühitə özünəməxsus rəng qatır. Ümumilikdə isə müstəqillik dövrü Lənkəran ədəbi mühitində qarşılaşdığımız şeirlərin mövzu dairəsini aşağıdakı kimi qruplaşdıra bilərik:

1. İctimai–siyasi lirika.
2. Təbiət lirikası.
3. Məhəbbət lirikası.
4. Dini-fəlsəfi şeirlər.

Ədəbiyyat elə bir anlayışdır ki, ona sözün əsl mənasında tarixin güzgüsü adı verilsə, daha dəqiq səslənmiş olar. Çünki bütün dövrlərdə tarixdə baş vermiş hadisələr ilk növbədə məhz elə ədəbiyyatda öz daha dolğun inikasını tapır. Bəzən tarixin qaranlıq səhifələri belə ədiblərin əsərlərinə istinad olunaraq araşdırılır. Çünki yazar ilk növbədə gördüyünü daha sonra isə hiss etdiyini yazır. İctimai-siyasi lirikada isə daha çox görərək yazmaq diqqət çəkir. Elə buna görə də bütün dövrlərdə ictimai-siyasi hadisələr ədəbiyyatdan yan keçmir. Lirikanın mövzu tutumunda ictimai–siyasi lirika ön sıralarda durur. Lirikada nə qədər tərənnüm əsas məsələlərdən biri olsa da, ictimai-siyasi lirikada sanki tərənnümlə - təsvir qarışılıqlı vəhdətdə verilir. Ancaq buna baxmayaraq ictimai-siyasi mövzuda yazılmış lirik əsərlər nəzəri baxımdan lirik növün özünəməxsus təbiətinə heç bir xələl gətirmir.

Bütövlükdə müstəqillik dövründə baş verən yeni ictimai–siyasi hadisələr Azərbaycan ədəbiyyatında təcəssüm etdiyi kimi, bu ədəbiyyatımızın ayrılmaz hissəsini təşkil edən Lənkəran ədəbi mühitində də öz əksini tapmışdır. Xüsusilə poeziyada öz inikasını tapan bu mövzular, janr əlvanlığı ilə də seçilir. Belə ki, bəzən nikbin, bəzən bədbin notlara köklənən poeziyada söz ustalarının seçmiş olduğu mövzuya müvafiq biçim formaları demək olar ki, onun zənginliyindən və inkişafından xəbər verən əsas amillərdən biridir.

Lənkəran ədəbi mühitinin müstəqillik dövründə ictimai-siyasi hadisələrin poeziyada - lirik növün müxtəlif janrlarında özünü ehtiva etməsi aşağıdakı mövzularda öz geniş əksini tapmışdır:

1) Poeziyada Qarabağ mövzusu.
2) Poeziyada 20 Yanvar mövzusu.
3) Poeziyada müstəqillik ideyalarının təbliği.
4) Poeziyada xalqın xilası, sabitliyin bərpa olunması-ümummilli liderimiz

Heydər Əliyevin xilaskar obrazı kimi təcəssümü.

Bütövlükdə müstəqillik dövrü Azərbaycan ədəbiyyatında əsas, aparıcı və ana xətt təşkil edən Qarabağ mövzusu Lənkəran ədəbi mühitində demək olar ki, əksər şairlərin əsərlərində toxunduğu məqamlardan biridir. Fidan Abdurrəhmanova öz araşdırmalarında haqlı olaraq deyir ki, *"xalqların tarixi taleyində ağır sınaq olan müharibə ona böyük mənəvi yaralar, ölkəmizə ciddi iqtisadi zərər vursa da ədəbiyyat və incəsənətə həmin xalqı daha da dərindən tanımaq və bəşəriyyətə tanıtmaq üçün misilsiz mövzu, tükənməz axtarış perspektivi verdi. Demək olar ki, müharibənin ilk günlərindən ədəbiyyatımız müharibə haqqında yazır və təxminən elə o dövrdən də tənqid və ədəbiyyatşünaslıq ədəbiyyatda müharibə mövzusunu tədqiq edir. Ədəbiyyatda və filoloji fikirdə müharibə mövzusu ədəbi prosesin müharibədən sonrakı inkişafında getdikcə miqyasını genişləndirən güclü bir təmayüldür* " [2, s.81]. Həqiqətən də, müharibə elə bir dəhşətli anlayışdır ki, xalqın tarixi yaddaşına vurduğu silinməz iz bütün dövrlərdə ağrı ilə, acı ilə anılır. Lakin bu da danılmaz faktdır ki, bu ağrıların, acıların fonunda ədəbiyyat mövzuca daha da zənginləşir, bu həyat hadisələrini yaşamış həqiqi qəhrəmanlar ədəbi qəhrəmanların taleyi ilə birləşərək elə ədəbiyyatın özü ilə əbədiləşir. Elə məhz bu baxımdan *"1990-cı illərin ortalarından başlayaraq, Qarabağ savaşı, Qarabağ müharibəsindən bəhs açan əsərlər ədəbiyyatımızda ayrıca bir vurğu ilə seçilməyə, fərqlənməyə başlayır. Ümumən milli istiqlal, vətənin azadlığı, milli insanın ictimai-siyasi mübarizəsi kontekstindən kənarda təsəvvür olunmayan həmin mövzunun məxsusi aktuallıq qazanması təsadüfi deyildi. Qarabağ düyünü heç də lokal problem olmayıb, milli istiqlalımıza əngəl olan qüvvələr tərəfindən Azərbaycan xalqının qarşısına yuvardılmışdı. Azərbaycan xalqı tarixin sınağından çıxaraq, istiqlalını, müstəqil dövlətini qoruya bildisə də, lakin Qarabağ savaşı bitməmiş qaldı"* [158, s.167].

Qarabağ motivləri Azərbaycanın hər yerində söz ustalarının müraciət etdiyi ağrılı-acılı mövzulardan biridir. Lənkəran ədəbi mühitində bu mövzuda yazılmış əsərlərə kifayət qədər rast gələ bilirik. Demək olar ki, Lənkəran ədəbi mühitində əksər söz ustaları bu məqama toxunmuşdur. Bu mövzu lirik növün müxtəlif

janrlarının dili ilə öz təcəssümünü tapmışdır. Məsələn, yeri gələndə Mirsalam Müasir əruz vəznində yazdığı "Qarabağda", "Ağlar", "Yandı" [152] qəzəlləri ilə, yeri gələndə isə heca vəznində yazdığı bayatılarında bu dərdi canlandırmağa çalışmışdır.

Dünyanın ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı da bu dövrdə yazarların ürək yanğısı ilə qələmə aldığı əsas motivlərdən biridir. Prezident İlham Əliyev hadisəni "bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət" adlandıraraq demişdir: "*Yüzlərlə dinc sakin görünməmiş işgəncələrlə öldürüldü, uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi, onların meyitləri təhqir olundu. XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi. Bu gün artıq heç kimə sirr deyil ki, Xocalı faciəsi davakar erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi"* [53, s.2]. Təbii ki, bu faciənin ağrı-acısı bölgə yazarlarının qələmindən süzülərək o dəhşətləri bir daha əks etdirmişdir. Xüsusilə Mirhaşım Talışlının "Soyqırım" [205, s.61] qəzəli, Camal Yusifzadənin "Yaman dəyişib ölüm" [220, s.75], Allahverdi Zeynalovun "Xocalı faciəsi" [222, s.26], "Şuşa" [223, s.57], Xatirə Xatunun "Şuşanın dağları başı dumanlı", "Xocalıya elegiya" [85], Mirhafiz Bahadırın, "Papaq qaçır başımdan" [144, s.5], "Ünvanım Qarabağdır", "Allah amanında", "Cəbhəyə arxa gərək" [142] Aliyə Seyidqızının "Qarabağ" [176, s.83], Etibar Vəliyevin "Nəvəmi Şuşada gəzdirərsiniz", "Ağla, Xocalım ağla!" [218] Hacı Yaşar Əkbərovun "Balam", "Qarabağ" [48] şeirləri, Əli Nasirin "Qayıt daha, qayıt daha özünə" [52, s.273] poeması bu qəbildəndir. Bölgə ədəbi mühitində daha çox yaradıcılığı qəm–kədər motivləri ilə seçilən Aliyə Seyidqızının yaradıcılığında da Xocalı kədəri, Xocalı dəhşəti onun bu mövzuda yazdığı digər şeirlərində olduğu kimi "Xocalı" şeirində də ürək yanğısı ilə öz dərin ifadəsini tapmışdır:

*Sən ey azğınlar əlində qalan ağlar, Xocalı!*
*Ruhum, hissim, ürəyim qəmimlə sızlar, Xocalı!*
*Neyləmişdin fələyə bu ilk bahar fəslində?*

*Kafər od vurdu, sinəndə yandı bağlar, Xocalı!*
*O gün ki, sən yasə batdın, göy üzü geydi qara,*
*Hönkür-hönkür ağladı göydə buludlar, Xocalı!* [ 176, s.83]

Poeziyada qəm–qüssə, dərd-kədər motivləri təkcə Qarabağ mövzusu ilə yekunlaşmır. Həmçinin Qanlı Yanvar hadisələri də bədii lövhələrdə öz əksini çox təsirli formada tapmışdır. Xalqın tarixi yaddaşına Qanlı Yanvar olaraq həkk olan, 1990-cı ilin 20 Yanvar hadisələri ədəbiyyatımızda da yeni səhifələr açdı. Tarixə qanla yazılan bu səhifələr, ədiblərimizin qələmi ilə bədii lövhələrdə həkk olundu və hələ də bu mövzu öz aktuallığını qoruyub saxlamaqda davam edir. Bu qanlı hadisələr müstəqillik dövrü bütövlükdə Azərbaycan ədəbiyyatında olduğu kimi Lənkəran ədəbi mühitində də öz əksini tapmışdır. Xüsusilə Əli Nasirin "Qara bayraqlı şəhər", "22 yanvar, 90–cı il", "Şəhidlər", "Ağrılı, acılı günlər" [50], Şəkər Aslanın "Qanlı Yanvar","Qərənfillər solmasın" [194], Camal Yusifzadənin "Belə ölüm görmüsənmi, ay nənə!?", "Göndərilməmiş məktub" [220], Etibar Vəliyevin "Şəhid anası" [218, s.20], Mirhafiz Bahadırın "Üzüqarayam vətən" [143,s.20], Allahverdi Zeynalovun "Şəhid qəbirləri","20 Yanvar" [222], Tərlanın "20 Yanvar" [214, s.6], Kazım Kazımovun "Qanlı Yanvar" [98], Mirhaşım Talışlı "Şəhidlər", "Yanvar gələndə", "20 Yanvarda", "Şəhidlər xiyabanı" [205], Aliyə Seyidqızının "Baxa bilmirəm, İlahi, daha bu şəkillərə!", "Azərbaycan ağlayır", "Bakıda cəllad var bu gün", "M.S.Qorbaçova" [175], şeirləri buna misal ola bilər. Həmçinin Əli Nasirin "İlham və Fərizə" [52, s. 258] poeması bu qanlı olayın geniş təfərrüatlarını verməklə bərabər xalqımızın tarixən başına gəlmiş bir çox qanlı olayların da qısa xülasəsini verir.

Xalqın ard-arda yaşamış olduğu saysız–hesabsız zülmlərdən sonra artıq qəflət yuxusundan oyanmaq zamanı gəlmişdir. Daha sadəcə ağlayıb-sızlamaq zamanı yox, ayağa durub azadlıq hayqırmağın zamanı çatmışdır. Bu hayqırış sadə xalqın dilində necə yüksək səslənirdisə də, qələm sahiblərinin dilindən də eyni tonla səslənməyə başlamışdır. Məlumdur ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya

Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Məhz bunun nəticəsində ədəbiyyatda da yepyeni bir mövzu, poeziyamızda müstəqillik ideyalarını təbliğ edən lirik şeirlər formalaşmağa başladı. Azərbaycanın ayrı-ayrı regionlarında olduğu kimi, Lənkəran ədəbi mühitində də bu motiv lirikanın əsas mövzularından birinə çevrildi. Müstəqillik ideyaları ədəbiyyata o qədər yansımışdır ki, demək olar ki, bu ideyaların təbliğinə yazarların əsərlərində rast gəlməmək mümkünsüzdür. Sabaha inam, yurdun azadlığı və bu kimi ideyalar bölgədəki söz ustalarının dilindən kənarda qalmamışdır. Xüsusilə Mirhaşım Talışlının "Milli Dirçəliş günü", "Qurtuluş günü", "28 may–Respublika günü" [205] kimi şeirləri buna misal ola bilər. Hətta Ziyafətin "Azərbaycan" şeirində təbliğ olunan müstəqillik ideyaları ən yüksək pafosu ilə diqqət çəkir:

*Sinəndəki vulkan - yayın,*
*Od püskürür haqqın, sayın.*
*İşıq saçır zülmətlərə*
*Bayrağında doğan ayın.*
*Sən azadsan, məğrur dayan,*
*O bayrağı*
*Savalanda sancmalısan,*
*Azərbaycan!* [224, s.11]

Bildiyimiz kimi, müstəqillik qazanmağımızın əsas səbəbkarı Müstəqil Azərbaycan Respublikasının qurucusu ümummilli liderimiz Heydər Əliyevdir. Elə məhz bu səbəbdən müstəqillik qazandıqdan sonra Azərbaycan ədəbiyyatının əsas aparıcı mövzularından biri məhz Heydər Əliyevin Azərbaycan xalqının sabitliyi uğrunda mücadilə apararaq azadlığa qovuşduran xilaskar obrazı kimi təcəssümüdür. Məlumdur ki, "*Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Bu möhtəşəm əsərin möhkəm əsaslarını o, hələ keçmiş sovet hakimiyyəti illərindəki düşünülmüş siyasəti və məqsədyönlü fəaliyyəti ilə formalaşdırmışdır. Zəngin dövlətçilik təcrübəsinə və geniş dünyagörüşə malik dövlət xadimi olması, cəsarətli ideyaları, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörənliyi hələ Azərbaycan Respublikasına*

*rəhbərliyinin birinci dövründə Heydər Əliyevin siyasi liderlik istedadını Azərbaycan cəmiyyətinə və dünyaya təqdim etmişdi. Heydər Əliyev xalqımızın çoxəsrlik tarixində Azərbaycan adlı dövlət yaratmış nadir siyasi şəxsiyyətdir. Onun rəhbərliyi ilə qısa müddətdə ölkəmiz Sovetlər İttifaqının inkişaf etmiş respublikalarından birinə çevrilmişdi. Bütün bunlara görə XX əsrin doxsanıncı illərinin əvvəllərində mürəkkəb və gərgin ictimai-siyasi şəraitdə Azərbaycan xalqı görkəmli dövlət xadimi Heydər Əliyevi qüdrətli xilaskar kimi siyasi mühitin ön mövqeyinə çəkmişdi"* [158, s.64]. Həmçinin Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsi, xalqın xilası, sabitliyin bərpa olunması bölgə yazarlarının da ilham mənbəyi olmuşdur. Buna misal olaraq Lənkəran ədəbi mühitində Mirsalam Müasirin "Xilaskarımıza" [152, s.68], Hacı Yaşar Əkbərovun "Heydər baba", "Mərhaba Heydər baba" [48], Aliyə Seyidqızının "Kövrəltdin lap bizi, cənab prezident!!" [175, s.6], Allahverdi Zeynalovun "Heydər baba", "Heydərimiz", "Heydərə səs verirəm" [223] və s. kimi şeirləri misal göstərmək olar.

*Heydərə səs verirəm,*
*"Milyonlardan biri tək!"*
*Heydər adı gələndə,*
*Ayağa duraq gərək!*

Mirhaşım Talışlının yaradıcılığında isə biz eyni motivləri daha çox duyuruq. Onun "Ulu öndər Heydər Əliyevin ad gününə", "Ağılı qoşma", "Mən eşq olsun deyirəm" [205] şeirləri, həmçinin şairin ulu öndərimiz Heydər Əliyevi Lənkəranda qarşılayarkən oxuduğu aşağıdakı şeir buna nümunə ola bilər:

*Sənin qüdrətinə söz demək üçün,*
*Sözə İlahidən qüdrət gərəkdir;*
*Xalqın pənahısan, ümidgahısan,*
*Bunu dərk etməyə diqqət gərəkdir.*

Həmçinin Heydər Əliyevin hakimiyyətə dönüşündən sonra apardığı siyasət, Azərbaycanın inkişafı naminə imzaladığı müqavilələr və s. gördüyü işlər belə ediblərin ilham mənbəyi olmuşdur. Məlum olduğu kimi 1994-cü ilin sentyabr ayında

Bakıda Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri – Çıraq - Günəşli" yataqlarının istifadə edilməsi barədə "Əsrin müqaviləsi" adlanan müqavilə imzalandı. Bu tarixi saziş Məsudi Dövranın "Əsrimin kontraktı" [139, s.5] şeirində öz poetik ifadəsini belə tapmışdır:

*Əsrimin bu kontraktı yazıldı tarixlərə,*
*Yayıldı ölkələrə, okeanlar yara-yara.*
*Nəğmələr də qoşuldu, düşdü dildən dillərə,*
*Dost ölkələr sevindi "haylar" geydilər qara.*

Aliyə Seyidqızının "Bakı – Ceyhan kəməri!" [175, s.19] adlı şeirində də biz eyni tarixi hadisənin poetik dildə ifadəsinin şahidi oluruq:

*Keçəcək Türkiyədən ən məşhur*
*Cahan kəməri!*
*Şanımız, şöhrətimiz – Azərbaycan kəməri!*
*Ay ulduzlu, al - yaşıl - göy rəngli*
*bayraqlı boru,*
*Əsrdən - əsrə əmanət – Bakı - Ceyhan kəməri!...*

Məlumdur ki, müstəqilliyimiz bərpa olunduqdan sonra ümummilli liderimiz Heydər Əliyev bir çox sahələrdə islahatlar apardı. Bunlardan biri və ən önəmlisi də ana dilini qorumaq sahəsində aparılan islahatlar idi. "*Təsadüfi deyildir ki, əsrlərin sınağından çıxmış, böyük təzyiqlərə və məhrumiyyətlərə baxmayaraq qorunub saxlanmış və milli mənsubiyyətimizin ən böyük rəmzi və dəlil-sübutu kimi Azərbaycan xalqının bir millət kimi formalaşmasında müstəsna rol oynamış Azərbaycan dili öz həqiqi qiymətini ancaq müstəqillik dövründə ala bilmişdir. Lakin müstəqillik illərində də Azərbaycan dilini yeni sınaqlar gözləyir. Çünki məhz bu dövrdə imperiya buxovlarından azad olmuş Azərbaycanın qapıları bütün dünyaya açılır və gənc bir dövlət möhtəşəm qloballaşma dalğaları ilə üz-üzə gəlir*" [89 s.77]. Bütün bu çətinliklərin öhdəsindən gələn dahi lider deyir: *"Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik... Hər*

*bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarını, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur"* [13, s.86]. Doğma dilimizin inkişafı naminə atılan addımlar birbaşa ədiblərin yaradıcılığına da təsir edirdi. Müstəqillik dövründə ana dilinin təbliğatı, doğma dilə olan sevgini təcəssüm edən əsərlərin yaranmasında məhz ümummilli liderimizin apardığı xidmətlər əvəzsizdir. Lənkəran ədəbi mühitində də müstəqillik əldə etdikdən sonra biz ədiblərin ana dili haqqında yazdığı şeirlərə kifayət qədər rast gəlirik. Xüsusilə Məsudi Dövran yaradıcılığında biz ana dilini vəsf edən şeirlərlə daha çox qarşılaşırıq:

*Mən bu dildə doğulmuşam,*
*Bu dildə dilə gəlmişəm.*
*Dirilik bulağı budur,*
*Bağında gülə gəlmişəm* [135, s.5]

Lirikada ictimai-siyasi hadisələr yuxarıda bölgüsünü apardığımız mövzuları daha çox əhatə etsə də təkcə onlarla yekunlaşmır. Hələ də yaşadığımız dövrü əhatə edən müstəqillik dövrü hal-hazırki zaman çərçivəsində baş verən ictimai-siyasi hadisələri də özündə əks etdirir. Xüsusilə də Aprel döyüşləri buna misal ola bilər. Belə ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayan Aprel döyüşləri Dağlıq Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan bəri baş vermiş ən şiddətli döyüşlərdən biridir. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur. Bu qələbə həmçinin ədiblərə də stimul vermiş və onların yaradıcılığına da birmənalı şəkildə yansımışdır. Buna nümunə olaraq Etibar Vəliyevin qələmə aldığı "Aprel döyüşləri" adlı şeirini göstərə bilərik:

*Döyüş əmrinizi gözləyirik biz ,*
*Tam azad olunar ana yurdumuz,*

*Lələtəpədəki bayrağımızı*

*Şuşa qalasında asar ordumuz* [218, s.15].

Ədəbiyyatımıza bütün qanlı-qadalı mövzulardan sonra yepyeni bir coşqu gətirən isə 44 günlük Vətən Müharibəsindən sonra qazandığımız böyük zəfərimizdir. Belə ki "*dövlətimiz 44 günlük əks-hücum əməliyyatlarını müvəffəqiyyətlə başa vurdu. Vətən müharibəsi bizim böyük zəfərimizlə bitdi. Zəfərimizə mənəvi məna verən isə 28 il işğal altında olan torpaqlarımızı, xüsusilə siyasi və strateji əhəmiyyət daşıyan Şuşa şəhərinin hərbi döyüşlərlə azad edilməsi oldu. Beləliklə, Azərbaycan son 2 əsrlik tarixində ilk dəfədir ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxır. Azərbaycan Ordusunun əldə etdiyi tarixi zəfər dövlət və xalqın mənafeyi baxımından xüsusi əhəmiyyətə malikdir. Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi ilk növbədə Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi"* [54]. Qələbə əzmi bölgə yazarlarının qələmindən də yan keçmədi. Xüsusilə "Zəfər bayramı" münasibəti ilə təşkil olunan tədbirlərdə yazarlar öz şeirlərini böyük coşqu, ruh yüksəkliyi ilə səsləndirirdi. Əhməd Haqsevərin "Gözün aydın vətənim Azərbaycan" adlı bəhri-təvili [44], Əfsanə Sultanın "Xalqı səadətə aparan əldir" şeirləri şanlı qələbəmizin ən gözəl tərənnümlərindəndir:

*Əzminlə gücünlə qırıb sədləri,*

*Qaldırdın yuxudan yatan başları.*

*Nə qədər səbr ilə, böyük eşq ilə*

*Təmizlədin düşmən atan daşları* [38].

Böyük qələbənin fonunda Ali Baş Komandanımız İlham Əliyevin qüsursuz siyasəti, uzaqgörənliyi də bölgə yazarlarının ilham mənbəyinə çevrilmişdir. Səbahət İsmayılovanın "Tarixə yazdırdı adını İlham" şeirində olduğu kimi:

*Sevdi öz xalqını canla, ürəklə,*

*Susdurdu düşməni böyük mərdliklə,*

*Vətəni bəzədi güllə-çiçəklə,*

*Tarixə yazdırdı adını İlham* [96].

Vətən Müharibəsi zamanı Cənub bölgəsi çoxlu şəhid, xüsusilə Lənkəran 156 şəhid vermişdir. Şəhidlərin xatirə gecələrində, anım günlərində bölgə yazarları da iştirak edərək onlara ithaf etdikləri şeirləri səsləndirmiş, onların ailələrinə təskinlik verməyə çalışmışlar. Bu baxımdan, Xatirə Xatunun “Şəhid atası ilə söhbət” şeiri diqqət çəkir:

*Ağlama, şəhid atası,*
*Dur qarşıla, balan gəlir.*
*Ümidləri dolu döymüş,*
*Arzuları talan gəlir...* [86].

Bölgədə şəhidlərin ölməz xatirəsini öz qələmi ilə əbədiləşdirən söz ustalarından biri də Elşad Səfərlidir. Onun baş leytenant Vüsal Kazımovun xatirəsinə yazdığı “Bir anın yuxusu” adlı poeması buna parlaq nümunədir. Tənqidçi alim Vaqif Yusifli poema haqqında təəssüratlarında deyir: *“Bu poema lirik səpkidədir, şairin şəhid–qəhrəman balamıza poetik himn kimi yazılıb. Burada qəhrəmanlıq təsdiq və etiraf olunur. Hər bəndi, hər parçası od kimidir. Soyuq, ürəkdən gəlməyən misralara rast gəlmirsən*” [182, s.3].

*Qaldırdın zirvələrə*
*Üçrəngli bayrağını.*
*Otuz ildir gözləyirdi*
*Şuşanın daş dağları.*
*Gözləyirdi sənin kimi*
*Qəhrəman oğulları* [182, s.23].

Müstəqillik dövrü Lənkəran ədəbi mühitinə ictimai-siyasi hadisələr, matəm motivləri, eyni zamanda qələbə motivləri nə qədər çox təsir etmiş olsa da, ənənəvi mövzular heç də sıradan çıxmamış, əksinə yazarların lirik növün müxtəlif janrlarında yazmış olduğu əsərlər əvvəlki dövrlərdə olduğu kimi öz aktuallığını qoruyub saxlamağı bacarmışdır.

Lirika hər zaman gözəllikdən qaynaqlanır. Gözəllik hər zaman lirikanın aparıcı, prioritet mövzularından biri olaraq qalmağı bacarır. Əlbəttə ki, Lənkəran

deyəndə gözümüzün önündə bir tərəfdən uzanan Talış dağları, digər tərəfdən mavi Xəzərin əsrarəngiz gözəlliyi canlanır. Bu cür zəngin təbiət gözəlliklərinə malik, rus şairi N.Tixonovun "Cənub mirvarisi" adlandırdığı Lənkəran elə bölgə yazarlarının da əsas ilham mənbələrindən biri olmuşdur. Y.V.Çəmənzəminli haqlı olaraq vurğulayır: "*Mühit təbiətcə zəngindirsə,dil də genişlənir, ədəbiyyat da zənginləşir*" [12,v c.5,s.7]. Həqiqətən də, təbiət gözəllikləri ədəbiyyatın mövzu dairəsini genişləndirir. Xüsusilə hər bölgənin regional xüsusiyyəti, relyefi, coğrafi mövqeyi, məhz elə təbiət lirikası ilə ədəbiyyata yansıyır. Müstəqillik dövrü Lənkəran ədəbi mühitinə nəzər saldığımız zaman demək olar ki, ədiblərin hər birinin yaradıcılığında biz təbiət lirikasına xüsusi yer ayrıldığını görürük. Mirhaşım Talışlının "Bülbül", "Bülbüllər", "Lənkəran" [205], Məsudi Dövranın "Xəzər", "Harda var?" [134], Vaqif Cavadovun "Dağlar", "Lənkəran" [32], Allahverdi Zeynalovun "Qızılağac", "Bu yerdə" [223], "Dağ çayı", "Təbiətin təkrarı", "İstisuda", "Bu yerlərin payızı" [222], Aliyə Seyidqızının "Lənkəran, ay Lənkəran", "Xandı Lənkəran", "Lənkəran bülbülləri" [175], Qurban Babayevin "Dağlara yaz gəlir", "Çaylar da sevinir", "Sevirəm təbiəti", "Bəşəru çay", "Payız lövhələri" [15], Əli Nasirin "Anam Lənkəran", "Bir dağ görürəm", "Lənkəran" [52] və b. şeirləri buna misal olaraq göstərə bilərik.

Lirikanın bütün dövrlərdə aparıcı mövzularından biri də məhəbbət motivləri olmuşdur. Əvvəlki dövrlərdə bir qədər ilahi sevgini ehtiva edən, dilində daha çox ərəb və fars mənşəli sözlər daşıyan məhəbbət lirikası müstəqillik dövrü Lənkəran ədəbi mühitində artıq yepyeni bir don geyinmişdir. Düzdür, klassik şeir tərzinə müraciət edən ədiblərin dilində əvvəlki ənənə özünü göstərsə də, daha çox heca vəznində eyni motivə müraciət edən ədiblərdə biz bu yenilikləri görürük. Xüsusilə bu dönəmdə məhəbbət lirikasına önəm verən ədiblərin yaradıcılığında daha çox Nüsrət Kəsəmənlinin təsiri müşahidə olunur. Məlumdur ki, Nüsrət Kəsəmənli müasir dövr Azərbaycan ədəbiyyatının tanınmış məhəbbət şairlərindən biridir. Müasir ədəbiyyatımızda Nüsrət Kəsəmənli ruhundan bəhrələnən ədiblər kifayət qədərdir. Eləcə də Müstəqillik dövrü Lənkəran ədəbi mühitində də biz bunu müşahidə edə bilirik. Belə ki, onun yaradıcılığından bəhrələnən yazarlardan biri Xatirə Xatundur.

Xatirə Xatun yaradıcılığında məhəbbət lirikası daha çox üstünlük təşkil edir. Yazarın şeirlərində istifadə etdiyi, bənzətmələr, dilinin əlvanlığı demək olar ki, Nüsrət Kəsəmənli yaradıcılığında qarşılaşdığımız məqamlarla daha çox üst–üstə düşür. Xatirə Xatunun məhəbbət motivlərini özündə ehtiva edən "Nə vaxtı", "Mənə bir az yalan danış", "Məni ürəyinə salma sən allah", "Sən məni unuda bilməyəcəksən", "Sənə qoşduğum nəğmə", "Sən hardan biləsən", "Səni unudacağam", "Gecikmiş sevgi", "Əllərim əlinə vurulub", "Çətin bir də...", "Bu sevgidən nə qalacaq görəsən", "Bu eşqi", "Bir də görərsən ki...", "Ata ocağına üz tutan gəlin" [85] kimi şeirlərində demək olar ki, Nüsrət Kəsəmənlinin "Səbr ver, Allahım", "Bilsəm yalan deyirsən", "Əllərin nə yaman soyuqdur, gülüm", "Bura qədərmiş" [101] və s. kimi şeirlərinin ruhu duyulur. Hətta bəzən Xatirə Xatun yaradıcılığında qarşılaşdığımız müraciət formaları Nüsrət Kəsəmənlinin şeirlərində olduğu kimi əks olunduğundan oxucuda həmin şeirin davamı kimi bir təəssürat yaradır. Məsələn, Nüsrət Kəsəmənli "Sən demə təzədən sevmək olarmış" şeirində:

*Sən demə, təzədən sevmək olarmış,*
*Tale də təzədən gülə bilərmiş.*
*Küsüb gözüyaşlı gedən məhəbbət*
*Peşiman-peşiman gələ bilərmiş* [101, s.79].

- istifadə etdiyi fikirlər, ifadə formaları Xatirə Xatunun "Sən demə" şeiri ilə demək olar ki, eyni ab-havadadır:

*Sən demə, bu yolun yox imiş sonu,*
*Biz çata bilmədik mənzil başına,*
*Burda başa çatdı sevgi oyunu,*
*Dəydi ilk oxumuz həsrət daşına* [85, s.76].

Göründüyü kimi hər iki yazarın dilində heca vəzninin vermiş olduğu səlislik və aydınlıq duyulmaqdadır. Nüsrət Kəsəmənli ruhu, dilinin səlisliyi, həmçinin Ağamir Cavadın yaradıcılığında da özünü göstərməkdədir. Onun "Yayın sevgi nağılı", "Qəlbimi" [25], "Mənim şeirlərim", "Bir eşq nəğməsi oxu" [30], "Saçından asılan gözəl", "Bu gözəllik gözlərimi apardı" [23], "Mən sənin məhəbbət

gündəliyinəm", "Eşq" [28], "Könlümün", "Bəsimdir", "Sənə güvəndiyim dağlar" [24] və s. şeirlərində bu özünü daha da qabarıq formada göstərir.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində Etibar Vəliyevin yaradıcılığında da məhəbbət motivləri daha çox duyulur. Onun "Baxmağa dəyər" [216], "Mənim duyğum" [217], "Ürəyimdə döyünən vətən" [218] kitabları başdan–başa məhz məhəbbət motivlərini ehtiva edən heca vəznli lirik şeirlərdən ibarətdir. Həmçinin bölgə ədəbi mühitində məhəbbət motivli şeirlərə Elşad Səfərlinin "Unut məni", "Gizli sevgi etirafı", "Əbədi eşq əfsanəsi" [179], Anar Həbiboğlunun "Sevgilər şəhəri", "Bir sevdam var", "Ala gözlərinə bayatı dedim" [75], Mirhaşım Talışlının "Dilbərim" [205,s.100], Şəkər Aslanın "Öz əlində", "Nələr düşünürəm" [194], Qurban Babayevin "Nə gözəl yaradıb səni yaradan", "Hərənin öz tayı", "Səndən xəbərsiz" [15], Əli Nasirin "Sevən ürək", "Sənin xətrinə", "Danış göz dilində", "Süzüləydim yanağından" [52] və s. şeirləri nümunə olaraq göstərə bilərik.

Lənkəran ədəbi mühiti dini motivli şeirlərlə hər zaman zəngin olmuşdur. Bölgənin özünəxas xüsusiyyətlərindən biri də məhz əvvəlki dövrlərdə olduğu kimi dini-fəlsəfi ideyaların tərənnümünə geniş yer verilməsidir. Daha çox klassik tərzdə yazılmış dini motivli şeirlərdə Kərbəla hadisələri, İmam Hüseynin müsibəti, Allahın, peyğəmbərin mədhi, on iki imam, əhli-beytin tərənnümünə geniş yer verilmişdir. Demək olar ki, bölgədə bir çox yazarların yaradıcılığında bu mövzu geniş formada öz əksini tapmışdır. Xüsusilə müstəqillik dövrü Lənkəran ədəbi mühitində Nadir Müzəffərin yaradıcılığında dini motivli şeirlərə - ən çox da klassik tərzdə yazılmış mərsiyələrə rast gəlirik:

*Yox cahanda sən kimi bir əhli-iman, ya Hüseyn!*
*Əhli- beytiylə olan tək haqqə qurban, ya Hüseyn!...* [159, s.96]

Araşdırmalar zamanı dini motivli şeirlərə Mirsalam Müasirin yaradıcılığında da kifayət qədər rast gəlinir. Onun klassik ədəbiyyatımızda rastlaşdığımız Allaha müraciətlə yazmış olduğu "Minacat", Kərbəla hadisələrini, Əhli-beytin başına gətirilən müsibətləri özündə ehtiva edən "Mərsiyələr"i [151], "Rehlətin Fatimənin bağrını büryan elədi", "Hər iki dünyaya rəhbər, ya Məhəmməd, ya Əli", "Oldun

Guruhi – naciyə sən rəhnüma Əli", "Məhəbbətin tanıdıb, sevgilim, mahalə məni", "Gələndə mahi – Məhərrəm gəlir əza xəbəri", "Məhəbbət aləmində pir Əlidir" [153], "Dini şeirlər" başlıqlı qəzəllərini, Kərbəla ziyarətində olduğu zaman yazdığı "Əl çəksin", "Olduq", "Bağdad", "Ey fələk", "Samirə", "Biz Hüseyndən ayrılırıq" [151] kimi silsilə qəzəlləri dini motivləri özündə əks etdirən, klassik tərzdə yazılmış poeziya nümunələridir. Hətta şair klassik tərzdən uzaq olan, heca vəznində, xalq dilinə yaxın tərzdə yazdığı bayatılarında belə dini motivlərə toxunmağı unutmamışdır:

*Kərbəla o taydadır,*
*Xorasan bu taydadır,*
*Hümeyniylə Hüseynin*
*Gözləri bay-bayadır* [151, s. 320].

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində yaradıcılığında dini motivlərə yer verən söz ustalarından biri də Əli Nasirdir. Onun "Oxuyuram alnımdakı yazını" [52] kitabındakı şeirlərinin əksəriyyəti məhz dini-motivli şeirlərdən ibarətdir. Hətta "Dan ulduzu" [50] epik poemasını Qafqaz müsəlmanlarının şeyxi Hacı Allahşükür Paşazadəyə həsr edərək yazan şair bu əsərdə də dini baxışlarını ön planda göstərməyə çalışmışdır. Ədibin "Əl-fatihə", "İsmi əzəm", "Əlif, Lam, Mim" qəzəlləri, Ruhullah Musəvi İmam Xomeyninin qəzəllərinə yazdığı "Sirlər xəlvətnaməsi", "Gözəllik şəhri", "Mehrab qibləsi", "Tənha büt", "Rindilərin məzhəbi", "Mühəmməd əl Müstəfa", "Əhlibeytnamə", "Rəməzən" [52] adlı təxmisləri məhz dini–fəlsəfi baxışları əhatə edir.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində ən çox dini-fəlsəfi şeirə həmçinin Hacı Yusif Qulammirzə oğlunun yaradıcılığında rast gəlirik. Onun yaradıcılığı başdan-başa klassik ruhda yazılmış dini motivli şeirlərdən ibarətdir. Ədibin "Allahın elçisi" [104], "Bu fani dünyadan məhşərə qədər" [105], "İlahidən gələn sevgi" [107], "Dünya belə dünyadır" [106] kitabları məhz dini–fəlsəfi şeirləri özündə ehtiva edir. Hətta şairin "Rübailər" [108] adlı kitabı belə dini motivləri özündə ehtiva edən rübailərdən ibarətdir:

*Ey əlin göylərdən üzməyən insan,*
*Nə xeyri əməlsiz yalvarışından ?*
*Allahdan diləyin vardırsa, buyur,*
*Hacət namazını qıl, istə Ondan* [108, s.92].

Dini motivlər bölgə ədəbi mühitində Tofiq Məcidovun yaradıcılığında da xüsusi yer tutur. Onun "Hər şeyə qadirdir o gözəl Allah" [113] kitabı quran ayələrinə əsaslanaraq yazılıb. Ədibin insanın taleyi, gələcəyi, davranışları, etdiyi əməlləri, düşüncələri ilə bağlı dini–fəlsəfi baxışları quran ayələrinə söykənərək ön planda verilmişdir.

Ədəbi mühitdə Oktay Zəka yaradıcılığı da dini motivli şeirləri ilə seçilir. Onun "Təxəyyüldən doğan günəş" [163] adlı kitabı ədibin dini–fəlsəfi baxışlarını əhatə edir.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində klassik irsi ilə seçilən Mirhaşım Talışlı da dini motivli şeirlərə yaradıcılığında daha çox üstünlük vermişdir. Onun "Əbədi yol", "Ey Fatimeyi-Zəhra", "Bərəkətli boyunbağı Fatimeyi – Zəhra (ə.s)", "Ərbəin üçün", "Münacat", "Mərsiyə", "Salamlar", "Ya Hüseyn, Hüseyn" [205] şeirləri buna bariz nümunədir.

Lənkəran ədəbi mühitində lirikasında daha çox qəm – kədər motivləri üstünlük təşkil edən Aliyə Seyidqızının da yaradıcılığının müəyyən bir qismini dini şeirlər təşkil edir. Onun "Allaha xitab", "Allah sözünün cəlalına bax", "Allahın işinə inanmaq gərək", "Haqq yolu", "Adəm və Həvva", "Minacat" [175] kimi şeirləri bu qisimdəndir.

Tədqiqat zamanı bir daha aydın olur ki, Lənkəran ədəbi mühiti rəngarəng mövzu və bu mövzuların özünəmüvafiq geyindiyi donu – janr əlvanlığı ilə seçilir.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində lirik növ demək olar ki, hər üç vəzndə və bu vəznlərin müxtəlif, bəzən mühitin özünəməxsus janrlarında yazılan ədəbi nümunələri ilə təzahür edir. Xüsusilə vurğulamaq lazımdır ki, bu dönəmdə klassik şeir formaları yerini daha çox heca vəznli şeirlərlə əvəz etmişdir. Həmçinin ədiblərin dilində əvvəlki dövrlərdən fərqli olaraq klassik formanın doğurduğu ərəb və

fars mənşəli sözlər öz yerini milli sözlərə vermişdir. Hətta Əli Nasir əruz vəzninin heca vəznli şeirlərlə əvəz olunmasını onların deyişməsi formasında poetik dildə belə səsləndirib:

*Əruz:*

*Qovdu zülmətləri nur gəldi xoruz banı, heca,*
*Qalxdı şəmşiri- əruz çək başa qalxanı, heca.*

*Heca:*

*Çox tərif eyləmə dövranı, əruz,*
*Endirər bir zaman qalxanı, əruz* [52, s.244].

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində ədiblərin yaradıcılığını konkret olaraq hansısa bir vəznə üstünlük verdiklərinə görə qruplaşdırmaq bir qədər çətindir. Çünki bölgə yazarları qələmlərini həm heca vəznində, həm əruz vəznində, həm də sərbəst şeir formasında sınayıb. Bu formalarda yazılan poetik nümunələr öz fərqliliyi ilə daha çox diqqət çəkir. Şərti olaraq isə bölgə ədiblərinin yaradıcılıqlarını ən çox istifadə etdikləri vəzn üstünlüyünə görə təqribən aşağıdakı kimi sıralamaq daha dəqiq olar:

***Heca vəzni*:** Müstəqillik dövründə bütövlükdə Azərbaycan ədəbiyyatında olduğu kimi, Lənkəran ədəbi mühitində də ədiblərin yaradıcılığında heca vəznli şeirlərlə daha çox qarşılaşırıq. Məlumdur ki, heca vəzni Azərbaycan dili üçün ən oynaq, ən ahəngdar şeir ölçüsüdür və işlənmə tarixi də daha qədimdir. Ədəbiyyatşünas alim Nizaməddin Şəmsizadə heca vəzni haqqında yazır: "*Heca vəzni vəznlərin ən sadəsi və ən zənginidir. O, türk dilinin doğma vəznidir*" [196, s.280]. Əlbəttə ki, tədqiqatçının bu fikirləri ilə razılaşmamaq mümkünsüzdür. Müstəqillik dönəmində bəlkə də bu vəznə daha çox önəm verilməsinin əsas səbəblərindən biri milli özünəqayıdış olmuşdur. Artıq doğma - sadə vəzndə də böyük işlər görməyin, qiymətli söz söyləməyin mümkün olduğunu ədiblər qarşılarına bir amal kimi qoymuşdur. Bölgədə daha çox heca vəzninə üstünlük verən yazarlara Elşad Səfərlini, Məsudi Dövranı, Ağamir Cavadı, Xatirə Xatunu, Əli Nasiri, Ziyafət Əkbərovu, Aliyə Seyidqızını və başqalarını göstərə bilərik.

Məlumdur ki, heca vəzni təkcə yazılı ədəbiyyatın deyil, həmçinin şifahi xalq ədəbiyyatının da ən çox istifadə olunan vəznlərindən biridir. Bu baxımdan biz bölgə yazarlarının yaradıcılığında təkcə lirik növün yazılı ədəbiyyatda istifadə olunan janrlarını deyil, həmçinin şifahi xalq ədəbiyyatında istifadə olunan janrları ilə də qarşılaşırıq. Xüsusilə ilə də bayatılarla. Ədəbiyyatşünas alim, professor Vüqar Əhməd haqlı olaraq vurğulayır ki, "*bayatıların qısa, yığcam olması, oynaq bir vəzn və sadə, səmimi sözlərlə ifadə olunması onu folklorun başqa janrlarından daha kütləvi etmişdir*" [219, s.110]. Fikrimizcə, məhz elə bu kütləvilik onu yazılı ədəbiyyatın da ən çox istifadə olunan janrlarından birinə çevirmişdir. Aparılan araşdırmalar zamanı bölgə ədəbi mühitində bayatı janrına daha çox Ziyafət Əkbərovun yaradıcılığında qarşılaşırıq;

*Mən aşiqəm gül əkdi*
*Bağda bağban gül əkdi.*
*Qorxuram yar gəlməyə*
*Hava bu gün küləkdi* [224, s.61].

Ümumiyyətlə, müstəqillik dövrü Lənkəran ədəbi mühitində heca vəznində kütləviliyin daha çox şahidi oluruq. Demək olar ki, bölgədə əksər söz ustaları heca vəzninə müraciət etmişlər. Hətta bəzən heca vəznini bəyənməyən modernistlər belə bölgə yazarlarının qınağına tuş gəlir. Elşad Səfərlinin aşağıdakı misralarında olduğu kimi:

*Deyən bəyənmirsən hecalı şeri,*
*Deyən meyarları tez unudursan.*
*Hecada yazılmış ən gözəl şerə,*
*Turş alça yemiştək üz turşudursan* [187, s.102].

Heca vəznli şeirlərin mövzularında xalq ruhuna, xalq dilinə yaxınlıq daha çox duyulur. Araşdırmalar zamanı ən çox da bu yaxınlıq Məsudi Dövranın yaradıcılığında özünü göstərir:

*Alça gül açdı,*
*Gül də dil açdı.*

*Güllü budaqlar,*

*Qəlbə yol açdı* [134, s.44].

Heca vəzni bölgədə aparıcı vəznlərdən biridir. Məlumdur ki, Azərbaycan poeziyasında heca vəzninin müxtəlif formaları var. Bu müxtəlifliyin səbəbi təbii ki, misraların sayından irəli gəlir. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatına nəzər saldığımız zaman istər şifahi, istərsə də yazılı ədəbiyyatda iki hecadan on altı hecaya qədər olan şeir nümunələrinə rast gəlmək mümkün olurdusa, müstəqillik dövrü Lənkəran ədəbi mühitində hətta bir hecalı nümunələrlə də qarşılaşa bilirik. Bu daha çox Elşad Səfərlinin yaradıcılığında özünü göstərir. Onun bir hecalı sonetləri buna bariz nümunə ola bilər:

*Sən*

*Gül*

*Ol*

*Şən* [184, s.36].

Bir hecalı şeir forması əlbəttə ki, Azərbaycan ədəbiyyatı üçün bir yenilikdir. Həmçinin Lənkəran ədəbi mühitində on altı hecalı şeirlərlə də üzləşirik. Ən çox bu tip şeirləri aparılan tədqiqat zamanı biz Məsudi Dövran yaradıcılığında müşahidə edirik:

*Üz-gözünün turşutması üzə düşər, üz göstərmə.*

*Yalançıya düz söyləsən düzə söyər, düz göstərmə.*

*Həyalıya yalan demə, dəyər sözün qənşərinə.*

*Naqislərə imkan versən, gözə düşər, göz göstərmə* [137, s.15].

Lənkəran ədəbi mühitində heca vəzninin demək olar ki, bütün ölçülərində yazılmış bədii nümunələrlə ədiblərin yaradıcılıqlarında rastlaşmaq mümkündür. Bölgədə araşdırmalar zamanı qarşılaşdığımız ən çox istifadə olunan ölçülər isə 5, 7, 8, 11 və 12 hecalı şeir formalarıdır.

***Əruz vəzni:*** Əruz vəzni bölgənin ən qədim və aparıcı vəznlərindən biri olaraq hələ mühitdə məclis ənənələri formalaşdığı dönəmdən mövcud olaraq inkişaf

etmişdir. Müstəqillik dövründə də öz aktuallığını qoruyub saxlamağı bacaran bu vəznə demək olar ki, bölgədə fəaliyyət göstərən söz ustalarının əksəriyyətinin yaradıcılığında rast gəlinir. Həmçinin əruz vəznində yazılan əsərlərdə biz bu dönəmdə daha çox Füzuli ənənələrini görürük. Bölgədə klassik irsə bağlılıq, Füzuli ənənələri bir çox yazarların əsərlərindən sezilir. Ümumiyyətlə, müstəqillik dövrü Lənkəran ədəbi mühitində əruz deyəndə ilk növbədə göz önünə Mirhaşım Talışlı yaradıcılığı gəlir. Mirhaşım Talışlının klassik irsi o qədər zəngindir ki, tədqiqat işinin bir paraqrafında məhz onun yaradıcılığı araşdırılıb.

Lənkəran ədəbi mühitində Nadir Müzəffərin əruz vəznindən bəhrələnən yaradıcılığı da diqqət çəkir. Demək olar ki, yaradıcılığında başdan-başa əruz vəzninə müraciət etmiş ədib bu işin öhdəsindən gəlməyi bacarmışdır. Onun M. Füzulinin 500 illiyi şərəfinə yazdığı "Füzuli" qəzəli öz ustadının irsinə bağlılığını bir daha sübut edir.

*Hikmətli sözün zirvəsisən, ey baba şair!*
*Tərifdə necə söz taparam şəninə dair...* [156, s.5]

Nadir Müzəffərin əruz vəzninin müxtəlif bəhrlərində yazmış olduğu "Gördüm", "Dəyər", "Dedilər", "Gördü" , "Həvəsində", "Görüb", "Sevindim", "Eyləmişəm", "Gedir", "Dedilər", "Bəs?", "Qaldı", "Olmaz", "Sənəm", "Düşüb", "Məni", "Desinlər" [159] və s. rədifli qəzəllərində də Füzuli ənənələri açıq-aydın müşahidə olunur.

Əruz vəzni bölgədə bir tərəfdən Füzuli ənənələrini ehtiva edir və vəznin təbiətinə xas olan ərəb və fars mənşəli sözlər üstünlük təşkil edirsə də, digər tərəfdən də bəzi yazarların yaradıcılığında əruz daha sadə, anlaşıqlı dildə oxucuya çatdırılır. Daha çox Xatirə Xatunun yaradıcılığında qarşılaşdığımız qəzəllərdə biz bunun şahidi oluruq. Onun heca vəznli şeirlərində olduğu kimi əruz vəznli qəzəl yaradıcılığında da məhəbbət motivləri duyulmaqdadır. Şairənin Xatun təxəllüsü ilə yazdığı "Elədin", "Olasan", "Çəkirəm", "Gedirəm", "Kimiyəm" [85] rədifli qəzəlləri bu qəbildəndir. Həmçinin Xatirə Xatunun Nəsimi yaradıcılığından etdiyi təxmisləri ilə də diqqət çəkir. Lakin onun məhəbbət motivli heca vəznində qələmə aldığı

şeirlərində, həmçinin qəzəllərində ilahi eşq deyil, daha çox real məhəbbət təsvir olunsa da, əruz vəznində yazdığı təxmislərində demək olar ki, Nəsimi ruhu daha qabarıq formada öz ifadəsini tapmışdır və onun təsvir etdiyi məhəbbət Allaha olan məhəbbətdir, ilahi eşqdir. Xüsusilə də Xatirə Xatunun İmadəddin Nəsiminin "Neylərəm?" adlı qəzəlinə yazdığı təxmisindən biz bunu açıq-aşkar müşahidə edə bilirik:

*Versələr sənsiz mənə cümlə cahanı, neylərəm,*
*Dünyanın zövqün, səfasın, toy - nişanı neylərəm?*
*Tək sən ol yarım mənim, sultanı, xanı neylərəm?*
*"Dilbəra, mən səndən ayrı təndə canı neylərəm?*
*Tacü - təxti, mülki-malı, xanımanı neylərəm"* [ 85, s.97].

Nizami Tağısoy Xatirə Xatun yaradıcılığı haqqında deyir : "... *onun yaratdığı nümunələrdə S.Yesenin şeirlərinin Ə.Kürçaylı və E. Borçalı tərcümələrindən gələn ahəngini, harmoniyasını hiss etməkdəyik. Şeirlərdə ana dilimizin dadı - duzu da yerli yerindədir*" [200]. Həqiqətən də, Xatirə Xatunun yaradıcılığına nəzər saldığımız zaman onun şeirlərinin dilinin olduqca sadə, şirin və ahəngdar olduğunun şahidi oluruq.

Lənkəran ədəbi mühitində eyni zamanda Ağamir Cavadın yaradıcılığında qarşılaşdığımız əruz vəznində yazılmış qəzəllərdə də daha çox doğma ifadələrlə üzləşirik. Onun qəzəllərində də məhəbbət motivli şeirlərində olduğu kimi Nüsrət Kəsəmənli ruhu duyulmaqdadır. Hətta bəzən onun qəzəl janrında yazıldığı şeirlərinin dilinin sadəliyindən əruz vəznində olduğu belə hiss olunmur:

*Ötər günlər, qatar bağlar ilim ahəstə-ahəstə,*
*Çəkər ömrün təmənnasın ölüm ahəstə-ahəstə* [23, s.180].

Bölgədə əruz vəznində yazılan satirik şeirlər də üstünlük təşkil edir. Nadir Müzəffərin yaradıcılığı bu baxımdan daha çox diqqət çəkir. Onun əruz vəzninin müxtəlif bəhrlərində yazmış olduğu "Vay dədə, vay" , "Vəzifə" , "Allaha boş beyyət nədir?", "Puldan dolu seyfim olur", "Pul", "Özümündür" [160], "Satıram", " Nə edim əhli-əyali" [159] kimi satirik şeirləri buna misal ola bilər. Satiralarında Sabiranə ruh

duyulan Nadir Müzəffər rüşvətxorları, pulun idarə etdiyi insanları, vəzifəsindən sui-istifadə edənləri birbaşa öz satiralarında əsas hədəf kimi göstərməyə çalışmışdır.

Lənkəran ədəbi mühitində həmçinin satirik şeirlərlə biz Mirsalam Müasirin yaradıcılığında da qarşılaşırıq. Onun xüsusilə "Lovğalıq", "Olmaz", "Aman Allah" [152] şeirlərini satirik şeirlərə nümunə kimi göstərmək olar. Onun satiralarının əsas tənqid hədəfi isə daha çox özündən razı, başqalarının fikirlərini bəyənməyən lovğa insanlardır.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində satirik ruhlu şeirləri ilə seçilən Əli Nasirin satira yaradıcılığı öz fərqliliyi ilə seçilir. Belə ki, o, satirik ruha yeni forma verərək fərqli biçim yaratmağa müvəffəq olmuşdur. Sözünü Sabiranə formada deyən Əli Nasirin satirik şeirləri ilk baxışdan daha çox əruzla heca vəzninin sintezi təəssüratı oyadır. İstifadə etdiyi qafiyələrin sonundakı hecadan yeni söz yaradaraq qafiyə formalaşdıran şairin bu yeniliyini bölgə ədəbi mühitində digərlərində müşahidə etmirik. Ədibin "Şalvar-var" satirik şeiri bu baxımdan diqqət çəkir:

*Səsləndi, oyandıq hamı sübhə? – hə.*
*Azad elədi milləti cəbhə? – hə...*
*Açdı bu gecə sizlərə Nasir – sirr,*
*Şükr eyləyin əyninizdə o şalvar – var !!!* [52, s.142]

Göründüyü kimi, Əli Nasir yuxarıdakı misralarda sözlərin son hecalarına uyğun sözdən ibarət qafiyə quraraq yeni bir tərz, yeni bir forma yaradaraq satirik məzmunu bu formaya sıxışdıra bilmişdir. Ədəbiyyatımıza nəzər saldığımız zaman bu formada satirik şeirlərin Əli Nasir yaradıcılığından öncə qarşımıza çıxmadığının şahidi oluruq. Deməli, Əli Nasir satirik janra nəinki yeni məzmun hətta yeni forma qataraq yenilik etməyi bacarmışdır. Onun "Hop-hoplarıq", "Xamdı bu", "Min şükür", "Canım Akqa", "Satıram" [52] və s. kimi satirik şeirlərində bölgə ədəbi mühitində satirik şeirlərə xas olan Sabiranə ruh duyulmaqdadır.

Bölgə ədəbi mühitində əruz vəzində yazılmış təxmislərə də kifayət qədər rast gəlirik. Yaradıcılığı klassik ənənələrə söykənən Oktay Zəka "Cəftərəzə" [162] adlı kitabının "Təxmislər şəlaləsi" bölməsini Nizami Gəncəvi, İzzəddin Həsənoğlu,

Əfzaləddin Xaqani Şirvani, Marağalı Əhvədi, İmadəddin Nəsimi, Qətran Təbrizi, Nəbati, hətta mənbələrdən əlimizə yaradıcılığından çox azsayda nümunələr gələn Füzulinin oğlu Fəzliyə etdiyi təxmislər əhatə edir:

*Xəbərdar ol, hər sözün tumarına uyma gəl,*
*Dərdin dərisin naz nəşrətiylə soyma gəl.*
*Oktay Zəka, fərq gör, boşdur o avaz doyma gəl,*
*"Vergül tu Fəzli, kamini fərdayə qoyma gəl,*
*Yoxdur bağaşı ömrünün inanə bilməzsən"* [162, s.210].

Oktay Zəka yaradıcılığında təkcə yuxarıda adlarını sadaladığımız klassiklərimiz deyil, həmçinin bölgədə həm əvvəlki dövrlərdə, həm də müstəqillik dövründə yaşayıb yaradan ədiblərdən də təxmis etmişdir. Bunların sırasında XIX əsrdə Lənkəran ədəbi mühitində fəaliyyət göstərən eyni zamanda "Fövcül–füsəha" ədəbi məclisinin üzvləri olan Hacı Əbdülhəsən Raci, Molla Fəttah Səbhan Göyşəbani, Hüseynqulu Şuri Dübəndi, Mirzə Rəhim Fəna, Mirzə Möhsüm Xəyali, eyni zamanda müstəqillik dövründə yazıb yaradan Əli Nasirdən də etdiyi təxmislər var:

*Oktay Zəka, çox qəmli – qəbahətlidir dövran,*
*Etdin məni öz aşina isbatına heyran,*
*Amma, onu da bilməlisən ey günü viran;*
*"Gəlmişdilər həmrahiləri Nasirə mehman,*
*Cismi dedi ki, ruhi gedib şəhrinə Yarın"* [162, s.224].

Oktay Zəka təxmislərlə yanaşı təzmin də yazmışdır. Məlumdur ki, təzmin başqa bir şairin hansısa şeirindən bir misranı olduğu kimi şeirdə verməkdir. Lənkəran ədəbi mühitində klassik tərzə yazanların əksəriyyətinin yaradıcılığında olduğu kimi Oktay Zəka yaradıcılığında da Füzuli ruhu, Füzuli ənənəsi duyulur. Hətta onun yazmış olduğu və bölgə ədəbi mühitində ədiblərin yaradıcılığında o qədər də çox qarşılaşmadığımız təzmin janrında yazmış olduğu misraları belə məhz Füzuli yaradıcılığından qaynaqlanıb:

*Füzuli fəxri misralar yaratmış beyt amalıyla,*

*Sözün sirlər diyarın fət edib ustad kamalıyla,*

*Yazar Oqtay Zəka "təzmin" sənətkarlıq misrasıyla,*

*Buyur, dünyayə ərz eylə; bu mən , bu sən bu dastanım,*

*"Gözüm, canım, əfəndim, sevdiyim, dövləti Sultanım"* [162, s.227].

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində əruz vəzninə yaradıcılığında daha çox yer verən ədiblərdən biri də Mirsalam Müasirdir. Onun yaradıcılığında da daha çox təxmislərə rast gəlirik. Ədib əsasən Məhəmməd Füzuliyə təxmis yazmışdır. Bunlara nümunə olaraq "Oynar", "Eyləmək olmaz" [152] təxmislərini göstərə bilərik. Həmçinin Mirsalam Müasirin yaradıcılığında klassik şeir şəkillərindən olan qitələr də xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda araşdırmalar zamanı klassik tərzdə yazıb-yaradan Mirsalam Müasirin yaradıcılığında əruz vəzninin həcəz bəhrində yazılan, əsasən də nəsiyyət xarakteri daşıyan rübailərlə də kifayət qədər qarşılaşırıq:

*Xəyyam tək mey içib yaşa, ey naşı,*

*Onun sərxoşluğdan ayılmıb başı;*

*O vəhdət meyini nuş edib ancaq,*

*Onu əyyaşlarla tutma yanaşı!* [151, s.279]

Bölgədə rübai janrına eyni zamanda Nadir Müzəffərin yaradıcılığında da çox rast gəlirik. Aparılan araşdırmalar zamanı Nadir Müzəffərin yazdığı rübailərinin də əksəriyyətinin məhz Mirsalam Müasirdə olduğu kimi nəsiyyət xarakter daşıdığının şahidi oluruq:

*Riyakarı vurur sözün doğrusu,*

*Çox boyunlar vurur sözün burğusu.*

*Cürbəcür oğru var, olunur aşkar,*

*Ən iyrənc görünür sözün oğrusu* [160, s.236].

Aparılan araşdırmalar zamanı Lənkəran ədəbi mühitində Yaşar Əkbərovun yaradıcılığında da əruz vəzninin əsasən rəməl və həcəz bəhrlərindən istifadə edərək yazdığı qəzəllərin üstünlük təşkil etdiyinin şahidi oluruq. Ədibin yazmış olduğu "Qəzəllər" [49] adlı kitabında məhz müstəqillik illərində qələmə aldığı qəzəllər öz əksini tapmışdır:

*Canan dediyim dilbərimə varımı verdim,*

*Peymanımı, həm əhdimi, ilqarımı verdim* [48, s.17].

***Sərbəst şeir:*** Azərbaycan ədəbiyyatında digər vəznlərdən fərqli olaraq daha az istifadə olunan sərbəst şeiri məlumdur ki, ilk dəfə S.Vurğun, R.Rza, M.Muşfiq və Ə.B.Fövzi istifadə etmişdir. Digər vəznlərdən fərqli olaraq ədəbiyyatımızda bir qədər az istifadə olunan sərbəst şeir Azərbaycan ədəbiyyatının ayrılmaz bir hissəsini təşkil edən Lənkəran ədəbi mühitində öz təşəkkülünü demək olar ki, müstəqillik dövründə tapmışdır. Hətta digər bölgə ədəbi mühitləri ilə müqayisədə müstəqillik dövrü Lənkəran ədəbi mühitində səpkili şeir formasına daha çox rast gəlinir. Aparılan tədqiqat zamanı sərbəst şeirin özünəməxsus xüsusiyyətlərini biz ən çox Camal Yusifzadənin yaradıcılığında görürük. O, bölgədə yaşamasa da Lənkəran ədəbi mühiti ilə birbaşa əlaqələri olmuş, burada təşkil olunan məclislərdə, ədəbi-bədii gecələrdə iştirak etmişdir. Xalq şairi Rəsul Rza Camal Yusifzadə yaradıcılığına xüsusi qiymət verərək demişdir: *"Klassik irsimizdən bəhrələnmiş və müasir poeziyanın tələblərinə yiyələnmiş bu gənc şairin şeirləri konkret mühitlə-rayon, respublika çərçivəsi ilə məhdudlaşmır, məhəlli xarakter daşımır. Geniş diapazona, dinamik, poetik gücə malik bu şeirlər rəngarəng, oxunaqlı və düşündürücüdür. Sərbəst ritm, misraların daxili səsləşməsi, obrazlı assosiativ təfəkkür və lirik duyumu Camal Yusifzadənin poeziyası üçün xarakterik xüsusiyyətdir. İlk baxışdan adi danışıq tərzinə bənzəyən bu şeirlərdə qəribə bir səmimilik, oxucu ilə açıq söhbətə meyl duyulur. Hissin əlvanlığı, mənəvi doğmalıq, psixoloji vəziyyətin dəqiq və poetik şərhi, onun şeirlərinə rəğbət doğuran ən mühüm amildir. O abstrakt obrazlılıq arxasınca qaçmır, müəyyən əhval-ruhiyyə ilə bağlı psixoloji anları, vəziyyətləri poetik detallarla çatdırmağı bacarır"* [220, s.382].

Yaradıcılığı ilə müstəqillik dövrü Lənkəran ədəbi mühitinə xüsusi bir rəng qatan Camal Yusifzadə bölgə ruhuna bir o qədər də yaxın olmayan sərbəst şeiri sevdirməyi bacarmışdır. Onun səpkili şeir formasında yazdığı "Bir ixtiyar qocayam", "Kor gördü, kar eşitdi", "Dəmir qapı Dərbənd", "Belə havalarda neyləyim, Allah?", "Vallah məhəbbətə oxşayır payız", "Qaldı ki, qaldı" [220] və s. şeirlərini nümunə

göstərə bilərik. Bəzən sərbəst şeirin özünə belə fərqli don geyindirməyə cəhd göstərən şair onu heca vəzninə gah yaxınlaşdırmış, gah da sintez edərək sanki fərqli bir forma biçimi yaratmağa çalışmışdır. Bu forma biçimi Camal Yusifzadənin qələmində demək olar ki, maraqlı alınmışdır. "Köhnə şərab" şeirində bu forma daha çox diqqət çəkir. Şeirin ilk misraları dörd hecalı şeir təəssüratı oyatsa da sonluğunda sərbəst şeir olduğu ortaya çıxır:

*Yenə payız,*
*Yenə sükut,*
*Yenə rəng –*
*ala-bəzək, rəngbərəng* ... [220, s.213].

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində Tərlanın da yaradıcılığında sərbəst şeirlərə kifayət qədər rast gəlmək mümkündür. Demək olar ki, onun ədəbi yaradıcılığında digər vəznlərdən fərqli olaraq sərbəst şeir daha çox aparıcı mövqe tutur. Hətta onun ilk baxışdan heca vəzninə bənzəyən şeirlərinin sonluğu belə sərbəst formada bitir:

*Çırpılır qapına qaranquş sözüm ...*
*Qonaq gözləməyin ev yiyəsi kimi*
*tələsik silirsən*
*döşəmədən göz yaşlarını,*
*silirsən*
*divarlardan və də tavandan*
*doğma baxışları, yad baxışları* [214, s.47].

Sərbəst şeir müstəqillik dövrü Lənkəran ədəbi mühitində öz geniş yaşamını İltifat Saleh yaradıcılığında tapmışdır. Demək olar ki, bölgədə sərbəst şeirin sevilməsində şairin bilavasitə xidmətləri olmuşdur. Elə buna görə də İltifat Salehin sərbəst şeir yaradıcılığı tədqiqat işində ayrıca paraqraf olaraq işlənilmişdir.

Göründüyü kimi bölgədə lirik növ həm məzmunca, həm də mövzuca çox zəngindir. Apardığımız araşdırmalar bir daha sübut edir ki, müstəqillik dönəmində Lənkəran ədəbi mühiti istər mövzuca, istərsə də məzmunca kasadlıq

keçirməmişdir. Bütövlükdə xalqın başına gətirilən qanlı–qadalı hadisələr, ictimai-siyasi hadisələrin digər dövrlərə nisbətən gah artan, gah da azalan sürətlə fərqli məcralarda inkişafı söz ustalarını heç də ruhdan salmamış, əksinə ədiblər bu hadisələri ədəbiyyata yeni mövzu və ideya olaraq gətirməyi bacarmışlar. Həmçinin ədəbiyyatın ədəbi və əzəli mövzuları–məhəbbət motivli şeirlər, təbiət təsvirli şeirlər, dini-motivli şeirlər bəzən klassik biçimdə, bəzən isə yeni biçimdə ədiblərin bir-birindən fərqli ab-havaya malik olan yaradıcılıqlarında qarşımıza çıxır. Lirik növün həm janr özünəməxsusluğu, həm mövzu əlvanlığı müstəqillik dövrü Lənkəran ədəbi mühitinin rəngarəng və olduqca qaynar olduğunu təsdiq edən əsas amillərdəndir.

### 1.2. Bədii nəsrin spesifik xüsusiyyətləri

Müstəqillik dövrü Lənkəran ədəbi mühitinə nəzər saldığımız zaman bədii nəsrin də özünəməxsus inkişaf xəttini müşahidə etmiş oluruq. Poeziyada olduğu kimi nəsrdə də kifayət qədər əlvan mövzular, həmçinin forma biçimləri ilə qarşılaşırıq. Lakin araşdırmalar göstərir ki, müstəqillik dövrü Lənkəran ədəbi mühitində nəsr yaradıcılığı poeziyada olduğu kimi geniş deyildir. Lənkəran ədəbi mühitində yazıçılar şairlərə nisbətən azlıq təşkil edir desək daha dəqiq olar. Bütövlükdə isə ədəbi mühitin əvvəlki dönəmlərini nəzərdən keçirdiyimiz zaman nəsr yaradıcılığı ilə demək olar ki, o qədər də qarşılaşmırıq. Həmçinin Mirhaşım Talışlının apardığı "XIX əsr Lənkəran ədəbi mühiti" adlı araşdırmalarında da biz Lənkəran ədəbi mühitinin XIX əsrə qədər olan dönəmində heç bir nəsr nümunəsi ilə üzləşmirik. Bölgənin əvvəlki dönəmləri daha çox klassik tərzdə yazılmış poeziya nümunələri ilə zəngindir. Buradan da belə qənaətə gəlmək olar ki, bədii nəsr həm mövzuca, həm də formaca Lənkəran ədəbi mühitində öz varlığını məhz müstəqillik dövründə tapmışdır. Elə məhz bu səbəbdən poeziyada şahidi olduğumuz müxtəlif məzmunların və bu məzmunların geyindiyi müxtəlif tipli forma əlvanlığını bədii nəsrdə geniş şəkildə müşahidə edə bilmirik. Lakin bədii nəsrin poeziyaya nisbətən bir qədər kasadlıq keçirməsinə baxmayaraq biz Lənkəran ədəbi mühitində kifayət qədər bədii nəsr nümunələri ilə qarşılaşırıq.

Bölgədə nəsrin inkişafında Məhəmmədhüseyn Əliyevin müstəsna xidmətləri olmuşdur. Lakin onun yaradıcılığında təkcə “Döyüşən illər” romanının ikinci hissəsi müstəqillik dövrünə təsadüf edir. Bu roman 1986-cı ildə yazılmış eyni adlı romanının davamıdır. Nəsr yaradıcılığı müstəqillik dövrünü əhatə etməsə də, Lənkəran ədəbi mühitində nəsrin inkişafı birbaşa onun adı ilə bağlıdır.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında bədii nəsrə nəzər saldığımız zaman aydın olur ki, *“Azərbaycan xalqının ictimai-siyasi həyatında, tarixi mənəvi durumunda baş verən köklü dəyişmələr: milli müstəqilliyin qazanılması, müstəqil dövlətçiliyin bərpası, milli varlığın dünyada cərəyan proseslərə bilavasitə qatılması bütövlükdə Azərbaycan ədəbiyyatında olduğu kimi, nəsrdə də qabarıq surətdə özünü göstərdi. Ədəbiyyatın janr yaddaşı ilə ictimai hadisələr arasında birbaşa, yaxud dolayısı ilə əlaqədar konkret tarixi situasiyalarla bağlıdır. Xalqın ruhunun, mənəvi özünüifadəsinin 1990-cı illər nəsrində daha dolğun təzahür tapması bir sıra problem-situasiyalar ətrafında baş verir. Bu halda gerçək durumla öz inersiyası ilə gəlişən ədəbiyyat arasında həmahənglik yarandığı kimi, təzadlar, ziddiyyətlər də müşahidə olunur”* [158, s.25]. Biz bütövlükdə Azərbaycan ədəbiyyatında duyduğumuz bu ab-havanı eyni ilə Lənkəran ədəbi mühitində də görürük

Apardığımız araşdırmalar zamanı o da aydın olur ki, bölgədə epik növün aşağıdakı janrları daha çox geniş yayılıb.

1) Hekayə
2) Povest
3) Roman

Ədəbiyyatşünas alim Nizaməddin Şəmsizadə öz araşdırmalarında hekayə haqqında çox gözəl bənzətmə apararaq demişdir: *“Hekayə ədəbiyyatın diş ağrısıdır. Balaca bir diş əsəb sistemini oyadıb bədəni lərzəyə gətirdiyi kimi, hekayə də ədəbiyyatı hərəkətə gətirir”* [196, s.231]. Həqiqətən də, apardığımız müşahidələr hekayə haqqında söylənilən bu fikri bir daha təsdiq edir. Lənkəran ədəbi mühitində də ən çox yayılan və ən çox bədii nəsri hərəkətə gətirən və ona ayrıca bir rəng qatan epik növün janrlarından başlıcası elə məhz hekayədir. Müstəqillik dövrü Lənkəran

ədəbi mühitində ən çox hekayə janrına müraciət etmiş yazarlara Sevda Əlibəylini, Hafiz Mirzəni, Qorxmaz Kadusini, Mirhüseyn Abbası göstərə bilərik.

Bölgədə fəaliyyət göstərən nasirlərin hekayə janrında toxunduqları məqamlar daha çox adi insanların həyat tərzi, düşüncələri, hisləri barəsindədir. Hekayə janrının vermiş olduğu əsas xüsusiyyət yazıçılara gündəlik həyat hadisələrini, insan düşüncələrini bu və ya digər dərəcədə yığcam, lakonik formada ifadə etməyə şərait yaradır.

Məlum olduğu kimi, müstəqillik qazandığımız ilk dönəmlərdə mövcud tarixi hadisələr ədəbiyyata da bu və ya digər dərəcədə təsirsiz ötüşmürdü. Xüsusilə qanlı yanvar hadisələri ədəbiyyatın əsas leytmotivlərindən birinə çevrilmişdir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında olduğu kimi Lənkəran ədəbi mühitində də əsas mövzulardan biri müharibə və onun törətdiyi ağrı-acılar, 20 Yanvar hadisələrinin real boyalarla təsviri ön planda dururdu. Bu baxımdan Mirhüseyn Abbasın bədii nəsri daha çox diqqət çəkir. Onun “Şəhid anası” hekayəsində yaratdığı Şəfiqə ana, “Ata gəlişi” hekayəsində 20 Yanvar hadisələrində övladı şəhid olmuş azərbaycanlı anaların simasında yaratmış olduğu Bərgüşad müəllim, “Tənha gül” [149] hekayəsində Səbri dayının simasında ata-baba yurdundan didərgin düşən, qaçqın həyatı keçirən ağsaqqallarımızın ümumiləşmiş obrazları buna konkret nümunədir. Müharibənin real ağrı-acılarını əks etdirən bu nəsr nümunələri tarixin qanlı səhifələri ilə bütün dolğunluğu ilə səsləşir. Obrazların daxili aləmi, keçirdiyi iztirablar inandırıcı və təbiidir. Ümumiyyətlə, Mirhüseyn Abbasın hekayə yaradıcılığına nəzər saldığımız zaman onun daha çox real həyat hadisələrindən bəhrələnərək insan talelərini qələmə aldığının şahidi oluruq. Belə ki, Mirhüseyn Abbasın “Çəlik” hekayəsindəki Səftər, “Hiylə” hekayəsindəki Yarəli, “Cərimə” hekayəsindəki Xələf, “Qəhər” hekayəsindəki Rüstəm, “İştah” [149] hekayəsindəki Şiraslan, “Mənim Badam xalam” hekayəsindəki Badam xala, Ataş əmi, “Qəzəb” hekayəsindəki Məmməd, İsaxan müəllim, “Görüş” hekayəsindəki Azər, Nüsrət, Fidan xanım, “Fil balası” [150] hekayəsindəki Əliş əmi, “Həsrət yükü” hekayəsindəki Nüsrət, Lalə “Sevginin qüdrəti” hekayəsindəki Aynur, “Əzizənin səhvi” hekayəsindəki Əzizə, “Şalvar” [148] hekayəsindəki Əsəd, “Donmuş

baxışlar” [149, s.37] hekayəsində Nəzərlinin, Qəribə xalanın, “Həyatın acısı” [146] hekayəsində Elçin, Xalidə obrazları həm müsbət, həm də mənfi cəhətləri ilə birgə gündəlik həyatımızda qarşılaşdığımız insanların ümumiləşdirilmiş simalarıdır. Yazıçı insan taleləri, gündəlik həyat hadisələri, müxtəlif situasiyalardan çıxış yollarını, arzularını, hiss və düşüncələrini bu obrazların dili ilə oxucularına çatdırmağı bacarır.

Lənkəran ədəbi mühitində Qorxmaz Kamil Kadusinin nəsr yaradıcılığında da biz eyni ilə Mirhüseyn Abbasın yaradıcılığında olduğu kimi real insanların başına gələn həyat hadisələri ilə üzləşirik. Buna misal olaraq “Yüzüncü ceyran”, “Əröldürən”, “Sonbeşik”, “Yadplanetlilər”, “Mobil tacir”, “Dəvətnamə”, “Gecə namazı”, “Sonuncu ah” [97] hekayələrini göstərmək olar.

Lənkəran ədəbi mühitində hiss və düşüncələri, həyat həqiqətlərini yığcam və oxunaqlı formada qələmə almağı bacaran həm jurnalist, həm də hekayə ustası Sevda Əlibəylidir. O, hekayələrində sadə həqiqətlərin bədii həllini elə sadə yollarla verir. Yazarın hekayələri struktur baxımdan mürəkkəb və gərgin olmadığından daha çox oxunaqlıdır. Bu baxımdan onun Nəcibə və Mələk adlı rəfiqələrin illərlə davam edən dostluqlarının, iş yerlərində isə Nəcibənin gördüyü işlər müqabilində daha çox sevildiyini, Mələyin isə tənbəlliyi ucbatından heç kəs tərəfindən sevilmədiyindən bəhs edən “Peşmançılıq”, Bakıya oxumağa gəldikdən sonra doğmalarından addım – addım uzaqlaşan, yadlaşan Gülnarın ürək sızıldadan taleyindən bəhs edən “Kənddə qalan “Vağzalı”, Rəşadla ailə qurmaqdan imtina etdikdən sonra, işini, doğmalarını itirən, ömrünün sonlarında dilənçiliklə məşğul olaraq Rəşada əl açan Qəmərin acınacaqlı həyatını əks etdirən “Qəmli görüş”, dünyaya qız övladı gətirdiklərinə görə Tünzalə və Gülnarın axıtdığı göz yaşları fonunda cəmiyyətdə qız övladına olan biganəliyi tənqid edən “Bəyaz gecənin qızları”, övlad həsrəti çəkən Toğrul və Əsmərin qohum-qonşu tərəfindən üzərlərinə olunan psixoloji şiddəti əks etdirən “Əsmərin ad günləri”, evləndikdən sonra Dilarə və Aqilin qaynana tərəfindən evdə yaranan söz-söhbət nəticəsində ailələrinin dağılmasına gətirib çıxardan “İllərlə gecikən səadət”, Gülbəniz və Araz müəllimin bir-birlərinə olan saf sevgisindən bəhs edən “Mən, sən və həmin telefon” [59] hekayələri daha xarakterikdir.

Sevda Əlibəyli eyni zamanda yumoristik hekayələrin də müəllifidir. Yazarın yumoristik ovqat üzərində köklənən hekayələrində Cəlil Məmmədquluzadə ruhu duyulmaqdadır. Düzdür, Sevda Əlibəylinin nəsr dili Cəlil Məmmədquluzadədə olduğu kimi kəskin deyil, amma buna baxmayaraq o yumoristik hekayələrində cəmiyyətdə olan nöqsanları, avamlığı, geriliyi, acgözlüyü dolayısı ilə tənqid etməyi bacarır. Bu baxımdan onun yaşının qoca vaxtı evlənmək eşqinə düşən, buna görə dəllal Xırdaxanıma pul verərək ona arvad almağı tapşıran, sonda isə aldanılan, pulunu, malını, mülkünü itirən Qasım kişinin sərgüzətlərindən bəhs edən “Qasım kişinin arvadı”, hamıya bəy deyə müraciət edən cəmiyyətin əslində bəylik iddiasında olduğunu tənqid edən “Özündənbəy eşitmisənmi?”, brilyant almaq eşqi ilə pul yığaraq pullarını sığortalayan dayının sonda sığortaladığı pullarının dəyərdən düşməsinə görə bir çüt quşa çatdığını və bununlada cəmiyyətdə olan pula hərisliyi tənqid edən “Brilyant əvəzinə bir cüt qaşqaldaq” [59] kimi yumoristik hekayələri daha çox diqqət çəkir.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində hekayə ustası kimi adından söz etdirməyi bacaran nasirlərdən biri də Zakir Bağırdır. Ədəbiyyatşünas alim Kamran Kazımov onun haqqında deyir: *“... ədəbiyyatda kiçik hekayələr müəllifi kimi daxil olan istedadlı qələm ustası Zakir Bağır müxtəlif həyat hadisələrini bədii ustalıqla oxucularına çatdıra bilmişdir. Respublika mətbuatında maraqlı povest və oçerklərilə mütəmadi çıxış edən müəllif XX əsrin sonları – XXI əsrin əvvəllərində bir sıra tarixi hadisələrə toxunmaqla, artıq soyumağa doğru gedən oxucu qəlbini özünün ədalətli qələmi ilə isidə bilmişdir”* [221, s.4]. Onun müxtəlif mövzularda yazdığı “Sənətimdir”, “Lotereya bileti”, “Əvəz çıxacağam”, “And”, “Dost”, “Yanğın” [221] və s. bu kimi hekayələri lakonik məna etibarilə, dolğunluğu ilə seçilir.

Lənkəran ədəbi mühitində ən çox diqqət çəkən məqamlardan biri də hekayənin sənədli-hekayə və xatirə-hekayə formasının geniş yayılmasıdır. Bölgə yazarları sənədli hekayə və xatirə-hekayə formasında yazdığı lakonik həyat hadisələri, bölgənin tanınmış, nüfuzlu simalarının həyatından parçaları özündə əks etdirir. Buna nümunə kimi Zakir Bağırın Zülfüqar Əhmədzadənin həyatından olan məqamları

özündə ehtiva edən "Yadigar kitab" [221, s.301] adlı sənədli hekayəsini göstərə bilərik. Araşdırmalar göstərir ki, Lənkəran ədəbi mühitində olmuş hadisələr və yaxud bölgədə tanınmış şəxslərin həyatını əks etdirən janr təkcə hekayə ilə yekunlaşmır. Biz bu ənənəni povest janrında da görürük. Belə ki, aparılan araşdırma zamanı müstəqillik dövrü Lənkəran ədəbi mühitində povest janrının daha çox sənədli və xatirə povest forması ilə qarşılaşırıq. Buna nümunə olaraq Hacı Etibar Əhədovun bölgənin tanınmış siması, Lənkəranda ticarət və ictimai iaşənin təşkilində böyük xidmətləri olan el ağsaqqalı, xeyriyyəçi, Əməkdar ticarət işçisi Şamməd Əsgərovun qısa, lakin şərəfli həyat yolu və fəaliyyətini əks etdirən "Səni unutmarıq" [43] xatirə-povesti, ömrünü, bütün bilik və bacarığını Lənkəranın iqtisadi, sosial, mədəni-quruculuq və s. sahələrin yüksəlişinə həsr etmiş Sosialist Əməyi Qəhrəmanı İsa Məmmədovun Lənkəranda rəhbər vəzifədə işlədiyi illərdəki fəaliyyətindən, torpağa, insanlara bağlılığından söhbət açan "Bir ömrün işığı" [43, s.78] adlı sənədli-povesti, Zakir Bağırın İkinci Dünya Müharibəsi qəhrəmanı Baloğlan Abbasova həsr etdiyi "Bənövşə ömrü" [221, s.235] sənədli povesti bunlara nümunə ola bilər. Həmçinin sənədli povestlə yanaşı bölgə ədəbi mühitində xatirə-povestlə də qarşılaşırıq. Buna misal olaraq Mirzə Bağırovun "Ömürdə izlər" [18] xatirə povestini göstərə bilərik.

Araşdırmalar onu göstərir ki, povest janrı hekayə janrından sonra bölgədə ən çox yayılmış epik növün janrıdır. Müstəqillik dövrü Lənkəran ədəbi mühitində bu janrın ən gözəl nümunələrinə Hafiz Mirzənin qeyri-ənənəvi təriqətləri ifşa edən, İslam dininin nüfuzdan salınmasına, müsəlmanlar arasında nifaq düşməsinə, dini qüvvələrin parçalanmasına və bəşəriyyət üçün ciddi fəsadlar törətməsinə səbəb olan qondarma və yad dini təzahürləri ifşa edən "İblisin xeyir – duası ilə" [72] povestini, real həyat hadisələrini əks etdirən, insanın psixoloji varlıq kimi cəmiyyətdə mövqeyini ön planda göstərməyə çalışan "Qurulmayan saat", "Şeyx İsmayılın Şeyxəkəran səfəri" , "Mail. ru agent" əməliyyatı", "Əskərağanın birinci və sonuncu toyu", "Yarımsaatlıq yolda", "Ları xoruzun hekayəti" [74] buna nümunə ola bilər. Tədqiqat zamanı onu da müşahidə edirik ki, bölgədə fəaliyyət göstərən digər nasirlərdən fərqli olaraq Hafiz Mirzə bir qədər pafoslu yazılara üstünlük verir. Onun

yaratdığı qəhrəmanlar, toxunduğu mövzular reallıqdan bir qədər uzaqdır. Biz bunu xüsusilə onun povestlərində daha çox görürük. Lakin bölgədə rastlaşdığımız digər povest nümunələrində biz daha çox real həyat hadisələrinin qələmə alındığının şahidi oluruq. Xüsusilə buna nümunə olaraq Əhməd Tahirin "Zahid kişinin qızları", "Əraf sakini" [39] povestlərini göstərə bilərik.

Məlumdur ki, povest janrı hekayə ilə roman arasında ortaq mövqe tutan, hekayədən böyük, romandan kiçik epik əsərdir. Müstəqillik dövrü Lənkəran ədəbi mühitindən biz povest janrının məzmunca fərqli formaları ilə qarşılaşdığımız kimi formaca da bir qədər fərqli çalarları ilə üz-üzə gəlirik. Xüsusilə də, Zakir Bağırın yaradıcılığında biz mini povestlərə rast gəlirik ki, bütövlükdə Azərbaycan ədəbiyyatına nəzər saldıqda bu tip povest formasına demək olar ki, o qədər də rast gəlmirik. Yazıçının "Həsrət dolu baxışlar", "İfşa" ", "Ərəb – Zəngi bacı" [221] tipli mini povestləri buna misal ola bilər.

Mirhüseyn Abbasın nəsr yaradıcılığında da povest janrı aparıcı mövqelərdən birini tutur. Hekayələrində olduğu kimi real insan həyatlarını və real hisləri qələmə alan yazıçının povest yaradıcılığında da eyni dəst-xətt müşahidə olunur. Onun "Soyuq ömrün nəşəsi", "Şirin dilli xəyanət", "Zərif qəlbin hərarəti", "Ömrə zinətdir gözəllik", "Məhəbbətlə sıxılmayan əl", "Soyuq ömrün nəşəsidir məhəbbət", "Mərdlik taleyin zərbələrini heçə endirir", "Varlığına sığınan ürək" [149] povestləri ədəbiyyatımızın demək olar ki, əbədi və əzəli mövzularından olan məhəbbət mövzusuna həsr edilmişdir.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində roman janrı da özünə xüsusi mövqe qazanan epik növün janrlarından biridir. Nizaməddin Şəmsizadə öz tədqiqatlarında roman haqqında yazır: *"Roman ədəbi – bədii janrların ən möhtəşəmi, ədəbiyyatın qocalıq şəklidir. O, xalq həyatının bədii təcəssümüdür. Əgər xalq romanda özünü görmürsə, deməli, yazıçı mənasız təsvirlərlə məşğul olub! Hətta ən maraqlı əhvalatların dal - dala düzümü roman deyil. Romanda əhvalat, təsvir və təfərrüat yox, həyatı, cəmiyyəti tarixi dəyirman kimi üyüdən təhkiyə əsasdır. Roman ədəbiyyatda üsluba başçılıq edir, epopeya müxtəlif üslubları öz mətnində bir ailə*

*kimi, əlvan çələng kimi birləşdirə bilir. Milli xarakter milli romanın bel sütunudur. Lakin, dahiyanə roman bəşəri insan, cahan və zaman münasibətlərini təhlil və izah edir"* [196, s.243]. Doğurdan da, tədqiqatçının sadaladığı bütün xüsusiyyətləri biz müstəqillik dövrü Lənkəran ədəbi mühitində yazılan romanlarda açıq–aydın müşahidə edə bilirik.

Tədqiqatçı Əhməd Sami Elaydinin də vurğuladığı kimi: *"Azərbaycanın müstəqillik əldə etməsi hər şeydən öncə, cəmiyyətin* sosial-siyasi *həyatında dəyişikliklərə gətirib çıxarmışdır. Ona görə də inqilabi dəyişikliklərlə, köklü, sistemli islahatlarla müşayiət olunan bu qlobal hadisənin bədii nəsrin, o cümlədən, roman janrının aparıcı mövzularından birinə çevrilməsi təbii zərurət kimi şərtlənməkdədir"* [40, s.60]. Həqiqətən də, söylənilən dəyişikliklər, roman janrında yaradılan obrazların birbaşa həyatında müşahidə olunan məqamlardır. Düzdür, müstəqillik dövrü Lənkəran ədəbi mühitində roman janrı hekayə və povest kimi geniş vüsət almamışdır. Amma buna baxmayaraq bu janrda yazılan əsərlər öz sanbalı ilə seçilir. Roman janrının epik növün hekayə və povest janrına nisbətən az istifadə olması onun bölgə ədəbi mühitində mövzusunu da nisbətən kasadlaşdırır. Araşdırma zamanı tarixi romanla qarşılaşmamağımız bu fikri xüsusi ilə vurğulamağımıza zəmin yaradır. Çünki müstəqillik dövrü Lənkəran ədəbi mühitində istər hekayə janrında qarşılaşdığımız xatirə-hekayə, sənədli-hekayə, istərsə də povest janrında yazılmış əsərlərdə qarşılaşdığımız sənədli povest janrı əslində tarixi roman janrının inkişafına təkan verə bilərdi. Belə ki, bölgədə tanınmış simaların, tarixi şəxslərin həyatından maraqlı məqamlara rast gəlinir ki, bu da tarixi roman janrı üçün kifayət qədər mövzu seçimi ola bilərdi. Və yaxud da bölgənin öz tarixindən qaynaqlanan hadisələr, eləcə də bu hadisələrin fonunda real qəhrəmanlara çevrilmiş insanlar tarixi roman janrının da ədəbi qəhrəmanlarına çevrilə bilərdi. Bütün bunlara baxmayaraq bölgədə roman janrından məharətlə istifadə etməyi bacaran nasirlərdən biri Zakir Bağırdır. Onun "Mənim atasız dünyam" [221] romanı diqqət çəkicidir. Romanda xalqımızın, etnoqrafiyası, adət-ənənələrindən bəhs edilir. Belə ki, beş hissədən ibarət olan bu romanda müəllif Azərbaycanda XX əsrin lap əvvəllərindən başlayaraq, ictimai

quruluşun müxtəlif səviyyələrdə cərəyan etməsini real lövhələrdə göstərməyə müvəffəq olmuşdur. Cənub bölgəsində ağaların və bəylərin törətdiyi fitnə-fəsadlar, var–dövlət xatirinə, hətta doğmalarına belə zülm edən namərdlər Zakir Bağırın qələmində özünün layiqli qiymətini almışdır. Belə əzabkeşlərdən biri də doğma dayısından əzab-əziyyət görən, dayısı qızının bəyənmədiyi yoxsul bir oğlan və hamı tərəfindən bəxtinə uyğun ad qazanmış Yetim obrazıdır. Artıq keçən əsrin 20-ci illərində, Azərbaycanın digər bölgələrində olduğu kimi, cənub bölgəsində də sovet hakimiyyətinin qurulması uğrunda mübarizə gedirdi. Yetimin də fəal iştirak etdiyi bu mübarizədə bu bölgəyə xas olan milli ruh, adət-ənənə, böyüklərə hörmət, dar gündə əl tutmaq kimi Azərbaycan xalqına məxsus xüsusiyyət və vərdişlər Zakir Bağırın əsas ideyasına çevrilmiş və müəllif bir sıra problemlərin işıqlandırılmasının öhdəsindən layiqincə gələ bilmişdir.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində qələmini roman janrında sınayan nasirlərdən biri də Mirhüseyn Abbasdır. Onun bir–birinə bənzəməyən, ürək dağlayan, ziqzaqlı ömür yoluna malik üç qadının həyatından bəhs edən, ailə-məişət mövzusunda yazdığı "Qırılan ömürlər" [148] romanı, ömrü boyu məhrumiyyətlərlə üzləşən, göz yaşı içində olan Sara xala və məcburiyyət üzündən uşaq evində böyüyüb, həyatın sərt sınaqlarından çıxan qızı Xanımın uğursuz talelərindən söz açan, insan mənəviyyatını alçaldan bir sıra mənfi cəhətləri açıb göstərən "Ürəyin kölgəsi" [150] romanı bu janrın bölgə ədəbi mühitində ən gözəl nümunələrindəndir. Həmçinin "Ürəyin kölgəsi" romanı folklor xüsusiyyətlərinə görə də Mirhüseyn Abbasın digər əsərlərindən fərqlənir. Tədqiqatçı Aynurə Bəşirova öz araşdırmalarında "Ürəyin kölgəsi" romanı haqqında belə yazır: *"Yazıçı həyat həqiqətlərini bədii həqiqətlərə çevirərək müasirlərimizin həyatına, məişətinə, adət-ənənələrinə, psixologiyasına yaxından bələd olduğunu sübut edir. Əsərin dili aydın, səlis və əsl nəsr dilidir. Əsərdə daim folklor nümunələrinə rast gəlinir. "Çayın mənbəyi bulaq, ailənin mənbəyi anadır", "Dost olan yerdə həsrət olmaz," "Gülüş min bir dərdin dərmanıdır", Yaşlı adama qızıl bağışlama, nəvaziş bağışla", "Torpaq ot gətirdiyi*

*kimi, qocalıq da xəstəlik gətirir" kimi aforizmlər işlənmiş və qoyulan məqsədə xidmət edir "* [21].

Hafiz Mirzə yaradıcılığında da roman janrı mövzu rəngarəngliyi ilə diqqət çəkir. Bu baxımdan onun yumoristik hadisə və məqamlarla zəngin, lakin tam ciddi və kədərli sonluqla bitən, tarixi hadisələrin fonunda əski sovet rejiminin yanlış ideoloji, iqtisadi və sosial sferası, eləcə də şəxsiyyətin formalaşmasında ayrı-ayrı şəxslərin, ailənin və cəmiyyətin yanlış rolu sətiraltı fikirlər və incə yumorla kəskin ifşa olunduğu "Katok" [73] romanı, həyata, dünyaya, tarixə, cəmiyyətə sərt, həm də eyni qədər məhəbbət dolu xoş münasibətlərin əks olunduğu "Paz" [70, s.5] romanı həm həcminə görə, həm də mövzu genişliyinə görə bir qədər digər romanlardan seçilir.

Lənkəran ədəbi mühitində roman janrında qələmi sınayanlardan biri də Eldar Tahirovdur. Onun "Ata sorağında" [201] romanı keçən əsrlərdə baş vermiş bəzi tarixi hadisələr və eləcədə Əlirza nəslinin soykökü haqqında geniş məlumat verir. Həmçinin Cənub bölgəsinin adət-ənənələri, yaşayış tərzi, nasirin eşitdiyi və bilavasitə şahidi olduğu həyat hadisələrindən bəhs edir. Romanda baş verən hadisələr real hadisələr olduğundan bir-birini tamamlayır. Roman bölgə tarixinin müəyyən bir qismini özündə əks etdirdiyinə görə çox böyük əhəmiyyət kəsb edir. Filologiya elmləri doktoru, professor Məsud Məmmədov roman haqqında deyir: *"Yazıçı Eldar Tahirovun romanları ilə tanışlıq bir daha sübut edir ki, o müxtəlif fərdi həyat yolu keçən adamların mənəvi aləminə eyni səviyyədə nüfuz etmək bacarığına malikdir, çünki yazıçının təsvir etdiyi hadisələr real həyatdan götürmüş və ona görə də daha təbii və inandırıcıdır. Müəllifin iki hissədən ibarət olan romanının bir lazımı faktı da Cənub bölgəsinin ilk xanı olan Qara xandan başlayaraq Mirhəsən xana qədər olan Lənkəran xanlığının şəcərəsinin təsvir edilməsidir"* [201, s. 6]. Romanda hətta ermənilərin Qarabağa köçürülməsi haqqında az da olsa müəyyən qədər məlumat verilir. Belə ki, əslən Qarabağlı olan Nəriman dəstəsi ilə "elatlar" adlandırılıb Qarabağa köçürülən ermənilərin karvan dəstəsini dağıdır. İsmayıl Nərimanın köməyi ilə köçürülənlərə başçılıq edən Xaçiki öldürüb qısasını alır. Yazıçı-publisist Əlizaman

Baxış roman haqqında deyir: "*Yazıçı Talış xanlığının tarixinə ekskursiya etmiş, xanlığın baniləri, onların vətən, xalq sevgisini bacardığı qədər təsvir etməyə çalışmışdır. Doğrudur, əsərdə bu baxımdan bir neçə qeyri-dəqiq, lakin bölgə haqqında verilən bilgi və məlumatları kiçik nöqsanlara baxmayaraq əsəri daha da əhəmiyyətli edir. Əsərin bədii dəyəri onun tərbiyəvi təsirində, oxucunun ondan nəsə müsbət bir nəticə götürməyindədir"* [201, s. 7]. Həqiqətən də roman bölgənin, etnoqrafiyasını, toponimikasını öyrənmək baxımından olduqca böyük əhəmiyyət daşıyır. Ümumiyyətlə, Lənkəran ədəbi mühitində roman janrında yazılan əsərlərə nəzər yetirdiyimiz zaman "Ata sorağında" romanının daha fundamental əhəmiyyət kəsb etdiyinin şahidi oluruq. Aparılan araşdırmalar zamanı müstəqillik dövrü Lənkəran ədəbi mühitində "Ata sorağında" romanında olduğu kimi həyatı real tarixi faktlara söykənərək geniş epik lövhələrdə əks etdirən ikinci bir romana rast gəlmirik.

Müasir dövrümüzdə epik növün ən geniş yayılmış janrlarından biri də essedir. Təəssüflər olsun ki, esse haqqında müasir ədəbiyyatşünaslıqda geniş tədqiqat aparılmamışdır. Lakin aparılan araşdırmalar zamanı həm nasirlərin, həm də şairlərin yaradıcılığında esse ilə tez- tez qarşılaşırıq. Həm lirik, həm epik çalarlara malik esse haqqında tədqiqatçı İsmayıl Kazımov belə qənaətdədir: *"Bir həqiqətdir ki, esse janr kimi ədəbiyyata və sənətə açıq, aydın münasibətdən daha çox, həyata və dövrə fəlsəfi-məntiqi yanaşmanın ifadəsi kimi meydana gəlmişdir. Bu tipli əsərlər çağdaş tənqidin yeni janr və forma axtarışlarını əks etdirməklə yanaşı, həm də ədəbiyyat və zaman, sənət və həyat, cəmiyyət və onun problemləri ətrafında dövrün ədəbi düşüncəsini, müasir yazarın mövqeyini, bir sözlə, müxtəlif konseptləri əks etdirir. Esse paradoksal janrdır, bu janrda arqumentlərin ( dəlil və sübutların ) harmoniyası və assosiasiyası, müəllifin şəxsi mövqeyi üstünlük təşkil edir. Aydın söyləm, yaxud paradoksal müəyyənlik bu janrı xarakterizə edir"* [198, s.13]. Esse haqqında söylənilən bütün bu məqamlar müstəqillik dövrü Lənkəran ədəbi mühitində bu janrda qələmi ilə sınayan yazarların esse yaradıcılığında da açıq aşkar müşahidə olunur. Xüsusilə Ağamir Cavadın "Poeziya eşq işığıdır" [24, s.3], Mirhüseyn Abbasın "Yanğı" [145, s.179], "Nəğməkar şair" [145, s.184], "Yarımçıq ömrün bütöv salnaməsi" [145, s.188],

“Dostların tacı, Hacırza Hacı” [145, s.190], “Ömrü uzun, həyati şirin nağıl olan insan” [145, s.198], “Qəniməti el istəyi olan Hacıməmməd” [147, s.20] esseləri buna bariz nümunədir.

Lənkəran ədəbi mühitində qarşılaşdığımız esselərdə real zəmində baş verən hadisələr bir qədər poetik dildə səsləndirilir. Ümumiyyətlə, bölgədə bədii nəsrin ayrı-ayrı janrlarına nəzər yetirdiyimiz zaman daha çox hadisələrin real formada baş verdiyinin şahidi oluruq. Lakin aparılan araşdırmalar zamanı müstəqillik dövrü Lənkəran ədəbi mühitində nədənsə, oçerk janrında yazılmış əsərlərə çox az təsadüf edilir. Məlumdur ki, “*oçerkdə faktik material bədiiliklə verilir. Burada, demək olar ki, hər şey real faktlara əsaslanır və statistik xarakter daşımayıb bədii şəkildə ifadə olunur. Oçerki məqalədən ayıran xüsusiyyət onun bədiiliyi, təsvir vasitələridirsə, hekayədən ayıran xüsusiyyət də faktik materiala əsaslanmasıdır”* [88, s.163]. Bölgədə fəaliyyət göstərən yazarlar sənədli povest və sənədli hekayə janrlarında bu məqamlara kifayət qədər geniş toxunduqlarından oçerk janrına yaradıcılıqlarında bir o qədər də üstünlük verməmişlər.

Aparılan araşdırmalar zamanı məlum olur ki, bədii nəsr Lənkəran ədəbi mühitində əvvəlki dövrlərdən fərqli olaraq müstəqillik illərində həm mövzuca, həm də formaca inkişaf etməyə başlamışdır. Bölgə ədəbi mühitində yazıçılar şairlərə nisbətən az olsa da müstəqillik dönəmində kifayət qədər nəsr nümunələri yaranmışdır.

### 1.3. Publisistika

Apardığımız araşdırmalar zamanı müstəqillik dövrü Lənkəran ədəbi mühitində kifayət qədər publisistik yazılara rast gəlinir. Elə buna görə də ayrıca bir paraqrafın məhz bu araşdırmaları özündə əks etdirməsini təqdirə layiq hal kimi qəbul edirik.

Publisistika sahəsinin inkişafına təkan verən əsas amillərdən biri çox güman ki, bölgədə fəaliyyət göstərən qəzet və jurnallardır. Məlumdur ki, ümummilli liderimiz Heydər Əliyevin söz, fikir və mətbuat azadlığının yüksək səviyyədə təminatı sahəsində ardıcıl siyasət yürütməsi nəticəsində 1998-ci ildə mətbuat üzərində

senzuranın ləğv olunması, ardı ilə isə Mətbuat Şurasının, Azərbaycan Respublikası Prezidenti yanında KİVDF - nin (Kütləvi informasiya vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu) yaradılması və həmçinin Azərbaycan Respublikası Prezidentinin 2 iyul 2015-ci il tarixində imzalandığı "Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı publisistika sahəsinin bölgələrdə də inkişafına xüsusi şərait yaratmışdır. Xüsusilə bölgədə sosial, mədəni, elmi və ədəbi mühiti əks etdirən "Yaşıl Çay" aylıq elmi-praktik, publisistik jurnalı, "Məşəl" ədəbi-bədii, elmi-publisistik jurnalı, "Söz" müstəqil ədəbi-publisistik jurnalı, həmçinin "Lənkəran" ictimai–siyasi qəzeti Lənkəran ədəbi mühitində publisistika janrının inkişafına xüsusi təkan vermişdir. Demək olar ki, bölgədə fəaliyyət göstərən yazarlar mütəmadi olaraq adları sadalanan mətbu orqanlarda ədəbi-bədii, publisistik yazıları ilə çıxış edir, ədəbi mühitin nəbzini bu formada saxlamağı bacarırlar. Hətta bu jurnalların bir qismi bölgə ədiblərinin ilham mənbəyinə belə çevrilməyi bacarmışdır. Bu baxımdan, Vaqif Cavadovun "Söz" jurnalına ithafən yazdığı "Sözdür" şeiri diqqət çəkicidir:

*Jurnalların ən qəşəngi,*
*Ən gözəli - düzü "Söz" dür.*
*Alovların, tonqalların,*
*Parıldayan gözü "Söz" dür* [32, s.104].

Ümumiyyətlə, publisistika elə bir sahədir ki, istər sosial mühitin, istərsə də ədəbi mühitin inkişafını birbaşa özündə əks etdirir. Demək olar ki, müasir cəmiyyətdəki baş verən bir çox hadisələri mətbuatda sənədlər, faktlar toplusunda əks etdirmək publisistikanın əsas predmetidir. Elə buna görə də ictimai fikrə təsir etmək publisistikanın əsas funksiyalarından biridir. Müasir dövrümüzdə publisistika istənilən informasiyanın təşkilində və ötürülməsində əsas və aparıcı mövqelərdən birini tutur. Əlbəttə ki, publisistik sahənin belə bir xüsusiyyətə sahib olması, onu sonrakı nəsillər üçün əvəzsiz bir vasitəyə çevirir. Elə bu xüsusiyyətinə görə mübaliğəsiz deyə bilərik ki, dövrün həyat hadisələrini istər elmi, istərsə də bədii

formada özündə ehtiva edən publisistika sözün əsl mənasında həmin dövrün canlı bir mənzərəsidir.

Publisistik yazılar Lənkəran ədəbi mühitində öz orijinallığı ilə seçilir. Hər şeydən öncə ayrı–ayrı vaxtlarda müxtəlif mətbu orqanlarda işıq üzü görmüş publisistik yazılar bölgə ədəbi mühitində bu janrın inkişafından xəbər verir. Bu baxımdan Şaiqə Həmzəqızının yaradıcılığı olduqca diqqət çəkir. Onun M.Şəhriyar haqqında yazdığı "Əbədiyyət gülü", Rəsul Rza haqqında yazdığı "Kişi şair", Nigar Rəfibəyliyə aid yazdığı "Sevgi dolu Nigar xanım", Süleyman Rüstəmə ithaf etdiyi "Bir gözü gülən, bir gözü ağlayan şair", Bəxtiyar Vahabzadəyə həsr etdiyi "Vətənin müddətsiz əsgəri", Əli Kərim haqqında yazdığı "Mənsə səni sevirəm...", Hüseyn Arifə həsr etdiyi "İnanmıram yaddan çıxa Hüseyn", Məmməd Araz poeziyasına həsr etdiyi "Bölüşmək istədiklərim", Nərman Həsənzadəyə ithaf etdiyi "Ürəyi əvvəlki sevdasındadır", Fikrət Qoca yaradıcılığına həsr etdiyi "Xoş ovqata kökləndiyimdi Fikrət Qoca şeirləri", Lənkəranın tanınmış söz ustalarından Şəkər Aslanın həyat və yaradıcılığını əks etdirən "Xatirələr sorağında", Vaqif Hüseynovun yaradıcılığından bəhs edən "Yurdunun vurğun şairi", Lənkəran ədəbi mühitinin daha bir siması Ağamir Cavadın yaradıcılığından bəhs edən "Öz qapısı-söz qapısı" [76] publisistik yazıları buna bariz nümunədir. Onu da qeyd etmək lazımdır ki, bu publisistik yazılar ayrı-ayrı vaxtlarda "Söz" müstəqil ədəbi-publisistik jurnalında işıq üzü görsə də, daha sonra Şaiqə Həmzəqızı bu yazıları "Sözdən başqa qalan yox" adlı kitabında cəmləşdirərək oxuculara təqdim etmişdir. Həmçinin bu kitaba onun ayrı-ayrı vaxtlarda tanınmış simalarla apardığı publisistik səpkili söhbətləri də yer almışdır. Bu baxımdan onun "Akademik Bəkir Nəbiyevlə söhbət", "Anarla söhbət", "Fikrət Qocayla söhbət" [76] başlıqlı müsahibə formatlı publisistik yazıları daha çox diqqət çəkir.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində poeziyada olduğu kimi publisistikada da dini motivli yazılarla qarşılaşırıq. Bu baxımdan Mirhaşım Talışlının ayrı-ayrı vaxtlarda müxtəlif mətbu orqanlarda yayımladığı daha sonra isə öz kitabında cəmləşdirdiyi "Dinimiz, mənəviyyatımız" [204, Ic.s.123], Hacı Sərdar

Hüseynovun "Nur Məhəmməd Ə.S" [80] başlıqlı publisistik yazıları buna bariz nümunə ola bilər.

Bölgədə publisistik yazılar təkcə ədəbi mühiti deyil, həmçinin digər istiqamətləri də işıqlandırır. Belə ki, bölgədə səhiyyənin inkişafından xəbər verən Ağamir Cavadın "Lənkəran səhiyyəsi etibarlı əllərdədir" [27], "Qəlb evinin loğmanı" [26] publisistik yazıları, Eldar Tahirovun "Kamil insanlar təbabət zirvəsində" [202] publisistik yazısı, Mahmudağa Mehrəliyevin "Şəfqətli ürəklər" [112], "İşimizi yenidən qururuq" [110], "Sağlamlığa qayğı" [111], İdris Şükürlünün "Yaşatmaq eşqiylə" [199], Azad Zülaloğlunun "Soltanağa həkim" [226], publisistik yazıları təhsilin inkişafından xəbər verən Ağamir Cavadın "Ürəklərdə yaşayan ziyalı" [29], Hacı Mirhaşım Talışlının "Riyaziyyat müəllimi, şeir–sənət vurğunu" [210], "Professor Tarıverdi Əzizov" [209], Akif Məmmədlinin "Elm məbədinin müdrik rəhbəri" [114], Barat Kərimovun "Əyyub müəllim" [100], idmanın inkişafından xəbər verən Xudaverdi Cavadovun "Lənkəran idmanının Zaur rekordu" [31], Cavid Allahverdiyevin "Lənkəran boks məktəbinin atası" [8] kimi publisistik yazıları buna nümunə ola bilər.

Ümumiyyətlə, birmənalı şəkildə vurğulamaq lazımdır ki, bölgə ədəbi mühitini işıqlandıran qəzet və jurnallar bölgə ziyalıları tərəfindən mütəmadi oxunan və ehtiyac duyulan mənəvi qidadır. Ömrünün yarıdan çoxunu mətbuatla təmasda keçirən və mütəmadi mətbuatda həm bədii, həm elmi, həm publisistik yazılar dərc edən Mirhaşım Talışlı ömrünün ahıl çağında belə publisistikadan uzaq qalmamışdır. Hətta "Söz" jurnalına məktub yazaraq öz təəssüratlarını belə bölüşmüşdür: *"Hörmətli Sevda xanım, "Söz" jurnalında professor Əjdər Ağayevə həsr etdiyimiz "Yüzü görmək arzusu ilə" və filologiya üzrə fəlsəfə doktoru, dosent Şaiqə Həmzəqızının "Söz ərməğanı" essesini, eləcə də "Respublika" qəzetində professor Teymur Əhmədovun "Azərbaycan pedaqoji elminin görkəmli xadimi" məqaləsini oxuduqdan sonra böyük fərəh hissi keçirdim... "* [211] Mirhaşım Talışlının qəlbindən gələn bu səmimi hislər Lənkəran ədəbi mühitində publisistika sahəsinin inkişafının əsas göstəricilərindən biridir. Həmçinin onu da vurğulamaq lazımdır ki, Mirhaşım Talışlı

özü də mütəmadi olaraq mətbuatda müxtəlif səpkili publisistik yazıları ilə çıxış etmişdir. Daha sonra isə bu yazıların bir qismini "Mirhaşım Talışlı Əsərləri" adlı III cildlik kitabına da daxil etmişdir. Xüsusilə kitabın II cildində verilən "İşıqlı xatirələr" bölməsi ədibin xatirələrində dərin iz qoymuş bir çox ziyalılar, qələm dostları haqqında yazmış olduğu publisistik yazıları əhatə edir. Buna misal olaraq "Professor Əkrəm Cəfər haqqında xatirələrim", "Müşfiqi xatırladıqca", "Xalq şairi Səməd Vurğun", "Vaqif Hüseynovu xatırlayarkən", "Unudulmaz aktyorumuz Əli Salahlı", "O mənim şagirdim olub", "Daş üzərində izlər" [204.IIc.] kimi publisistik yazılarını göstərə bilərik.

Aparılan araşdırmalar zamanı bölgə ədəbi mühitində qarşılaşdığımız publisistik yazılar istər mövzuca, istərsə də bu janrın özünəxas olan publisisitik üslubca zəngin və rəngarəngdir. Deмək olar ki, Lənkəran ədəbi mühitində publisistika o qədər inkişaf etmişdir ki, onu ayrıca bir tədqiqat işi kimi araşdırmaq daha məqsədəuyğun olardı.

### 1.4. Uşaq ədəbiyyatı

Azərbaycan ədəbiyyatının əsas tərkib hissəsini təşkil edən uşaq ədəbiyyatı əslində bütün dövrlərdə öz inkişaf xətti ilə özünəməxsus formada diqqət çəkir. Araşdırmalar zamanı istər yazılı, istərsə də şifahi xalq ədəbiyyatında fərqli formaları ilə qarşılaşdığımız uşaq ədəbiyyatının çalarlarına müstəqillik dövründə Lənkəran ədiblərinin yaradıcılığında da kifayət qədər rast gəlirik.

Bildiyimiz kimi "*Azərbaycan uşaq ədəbiyyatı sahəsində son illər meydana gəlmiş bədii əsərləri nəzərdən keçirdikdə belə bir nəticəyə gəlmək olur ki, uşaqlar üçün yazan qələm sahiblərimiz kiçik yaşlı oxucuların təlim-tərbiyəsinə, əxlaqi-mənəvi dəyərlərin inkişafına və formalaşmasına ciddi təsir göstərən müxtəlif janrlı maraqlı əsərlər yaratmağa çalışmışlar. Xüsusilə, Respublikamızın əldə etdiyi müstəqillikdən sonra milli uşaq ədəbiyyatında az da olsa yeni forma və məzmuna malik olan əsərlərin yazılmasına meyl artmışdır. Azərbaycan uşaq ədəbiyyatının son onilliklərdəki yaradıcılığına diqqət yetirdikdə aydın olur ki,*

*söz sənətimizin bu sahəsinin məhsuldarlığı əvvəlki illərdən kəmiyyətcə az olsa da, bu ədəbiyyatın mövzu və ideyalarında, fikri ifadə tərzində müstəqil, gələcəyi inkişafda olacaq milli uşaq ədəbiyyatının ilkin cücərtilərini görmək mümkündür"* [64, s.338].

Lənkəran ədəbi mühitinə nəzər saldığımız zaman yazarların dilinin əvvəlki dövrlərə nisbətən klassik ifadələrdən - ərəb və fars mənşəli sözlərdən nisbətən azad olunduğunu müşahidə edirik. Bu da uşaq ədəbiyyatının inkişafına təkan verən əsas amillərdən biridir. Şübhəsiz ki, uşaqların təlim-tərbiyəsi, eləcə də bədii zövqünün formalaşmasında uşaq ədəbiyyatının çox böyük, müstəsna əhəmiyyəti vardır. Eyni zamanda uşaq ədəbiyyatı kiçik yaşlı məktəblilərin, yeniyetmələrin zehni qabiliyyətinin güclənməsinə də xidmət göstərir. Əlbəttə ki, uşaq yazıçısı öz oxucuları ilə dil tapmağı bacarmalı, uşaq təfəkkürünə və marağına cavab verən əsərlər yazmalıdır. Aparılan araşdırmalar zamanı Lənkəran ədiblərinin bir çoxunun yaradıcılığında biz bu tələblərə kifayət qədər cavab verən əsərlərlə qarşılaşırıq. Demək olar ki, bölgə yazarlarının əksəriyyəti öz balaca oxucularını unutmamış, Onların dünyagörüşünə, düşüncəsinə uyğun səviyyədə maraqlı ədəbi nümunələr yaratmağa müvəffəq olmuşlar.

Böyük rus tənqidçisi Belinski yazırdı: *"Uşaq kitabları tərbiyə məqsədi ilə yazılır. Tərbiyə isə çox böyük işdir, o insanın taleyini həll edir"* [20, s.126]. Bu baxımdan bölgədə fəaliyyət göstərən ədiblərin sırf uşaqlar üçün yazdıqları əsərlərə diqqət yetirdiyimiz zaman biz ilk növbədə bu nümunələrin məhz tərbiyəvi əhəmiyyət kəsb etdiyinin şahidi oluruq. Əlbəttə ki, ədəbiyyatın başlıca vəzifələrindən biri də məhz tərbiyələndirməkdir. Bu baxımdan uşaqlar üçün yazılan əsərlərin ilk növbədə tərbiyəvi əhəmiyyət kəsb etməsi heç şübhəsiz ki, danılmaz bir faktdır.

Xanım Mustafayeva öz tədqiqatlarında uşaq ədəbiyyatının əsas xüsusiyyətləri haqqında yazır: "*Hansı coğrafi ərazidən, hansı ictimai–siyasi sistemdə yaranmasından asılı olmayaraq ancaq bir məqsədə xidmət etmişdir; yeni nəslin təlim - tərbiyəsini düzgün istiqamətdə aparmaq, onlara müxtəlif elmlərin əsasını mənimsətmək, təbiət və cəmiyyət hadisələri haqqında təsəvvürləri genişləndirmək*

*və sistemli bilik vermək"* [155, s.59]. Uşaq ədəbiyyatı haqqında sadalanan bütün bu fikirlər araşdırmalar zamanı Lənkəran ədiblərinin yaradıcılığında da öz təsdiqini bir daha tapır.

Aparılan tədqiqat zamanı Lənkəran ədəbi mühitində daha çox qəm – kədər motivli şeirlər yazan Aliyə Seyidqızının yaradıcılığında belə hətta nikbin ruhlu uşaq şeirlərinə rast gəlirik. Buna misal olaraq ədibin "Balaların balasıdır nəvələr", "Nurlan", "İsmayılın ad günü", "İlahi! Bu uşaq haçan böyüyər", "Bağça xatirələri" [175] və s. bu kimi şeirləri göstərə bilərik.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində öz klassik ruhu ilə seçilən Mirhaşım Talışlı da uşaq ədəbiyyatına biganə qalmamışdır. Onun uşaqlar üçün yazdığı "Sərçələr", "Qış gəldi" [203], "Uşaq ili–2009-cu il", "Qaranquş", "Ördək balaları", "Uşaq qəzet oxuyur", "Əlvida uşaq bağçası", "Bu bağça", "17 saylı uşaq bağçasında", "Sabahın igidləri" [205] və s. kimi şeirlərini nümunə olaraq göstərə bilərik.

Lənkəran ədəbi mühitində uşaq ədəbiyyatının inkişafı baxımından Əli Nasirin yaradıcılığı daha fərqlidir. Belə ki, onun "Balaca tənbəl", "Dəcəlin aqibəti", "Karusel", "Bəs kiminlə oynayım?", "Ağ cücəm", "Tuk-tuk", "Gilas", "Ay nənə", "Elşənin arzusu", "Bu gün bazar günüdür", "Haydı dostlar, irəli!", və s. bu kimi uşaq şeirləri, "Kəlbətinin dərdi", "Ağcaqanad", "Özündənbəy qurbağa", "Artıq tamah", "Nəğmə gözəl nəğmədir", "Siçanın arzusu", "Müftəxor sərçə", "Çəpgözün yuxusu" adlı təmsilləri, "Axı mən məktəbliyəm?!" adlı novellası, "Yuxu" [51] adlı bir pərdəli uşaq pyesi Lənkəran ədəbi mühitində uşaq ədəbiyyatının maraqlı nümunələrindəndir.

Həmçinin Əli Nasir zəngin uşaq folklorundan da çox gözəl bəhrələnərək onun maraqlı nümunələrindən istifadə etmişdir. Belə ki, araşdırmalar zamanı onun şifahi xalq ədəbiyyatının yanıltmac, tapmaca, nağıl kimi janrlarından faydalanaraq uşaqlar üçün çox gözəl nümunələr yaratdığının şahidi oluruq. Tədqiqatçı Ramazan Qafarlının da haqlı olaraq qeyd etdiyi kimi: *"Söz oyunlarında ən çox işlənən uşaq folkloru janrı yanıltmacdır. Sözlərin, səslərin, səs və söz birləşmələrinin bir cümlə daxilində müxtəlif formalarda təkrarlanmasından ibarət olan yanıltmaclar*

*uşaqların düzgün tələffüz vərdişinə yiyələnməsində, səlis danışmağa alışmasında, söz ehtiyatlarının artırılmasında böyük əhəmiyyətə malikdir"* [102, s.386]. Bu baxımdan Əli Nasirin uşaqlar üçün "q" səsi əsasında qurduğu yanıltmac olduqca maraq doğurur:

*Qara qara qarğa qondu,*
*Qarda qara qarğa ondu.*
*Qara qarda qarğa qovdu,*
*Qara, qarda bu nə ovdur?* [51, s.103]

Həmçinin ədib uşaqların zehni inkişafını sürətləndirməkdə müstəsna əhəmiyyətə malik olan və eyni zamanda da uşaq folklorunun aparıcı janrlarından biri olan tapmacalara da yaradıcılığında kifayət qədər yer verib. Məlumdur ki, *"tapmaca əsasən metafora şəklində qurulmuş düşündürücü suallardan ibarətdir. Burada hər hansı məfhum, hadisə və əşyanın müəyyən əlaməti, keyfiyyəti və ya xasiyyəti dolayı yolla anladılır, başqa cəhətləri isə gizlədilir"* [155, s.17]. Əli Nasir də uşaqlar üçün yazdığı tapmacalarında tapmacanın bu xüsusiyyətlərini tam olaraq nəzərə almışdır. Aşağıdakı tapmacadan da biz şagirdlərin qiymətlərinin yazıldığı gündəliyin əsas xüsusiyyətlərinin düşündürücü formada əks olunduğunun şahidi oluruq:

*Nə kitabdır, nə dəftər,*
*Gah sevincdir, gah kədər.*
*Var qəribə hikməti,*
*Yazılır sinəsinə,*
*Biliklərin qiyməti* [51, s.105].

Aparılan tədqiqat zamanı bölgədə fəaliyyət göstərən yazarlarından Vaqif Cavadovun yaradıcılığında da uşaq ədəbiyyatının nümunələrinə kifayət qədər rast gəlirik. Onun "Arzuya, bax, Arzuya", "Altı-yaşlılara", "Ulu nənəmiz deyək", "Paltosunu çıxarar", "Körpələrlə gülürəm", "Nazlama" [32] və s. kimi uşaq şeirləri məhz elə bu qəbildəndir.

Həmçinin tədqiqat zamanı bölgə yazarlarından Maqsud Məmmədin də yaradıcılığında kifayət qədər uşaq şeirləri ilə qarşılaşırıq. Demək olar ki, ədibin

yaradıcılığı başdan–başa uşaqların dili ilə deyilən şeirlərdən ibarətdir. Ədibin uşaq şeirlərinin dili olduqca sadə və anlaşıqlıdır. Buna nümunə olaraq "Nənəm corab toxuyur", "Ay bahar", "Təzə il", "Anamın sağ əliyəm", "Balaca balıqçılar", "Qarpız", "Çayın hikmətləri", "Zirək uşağam", "Sərçə", "Yonça" [109] şeirlərini nümunə göstərə bilərik. "Dulusçudur mənim atam" şeirində isə ədib uşaqların özünəməxsus sadə dili ilə elə uşaqların özünə deyir:

*Qoy danışım, Elşən sənə,*
*Dulusçudur mənim atam .*
*Əllərinin qüdrətinə*
*Qardaşım da mən də matam...*
*Yoğurduğu palçıq ilə*
*Atam "ev" də ucaldır lap,*
*Düzəltdiyi samovarı*
*Muzeylərdə get axtar tap* [109, s. 122].

Artıq qeyd etdiyimiz kimi uşaq ədəbiyyatının özünəxas xüsusiyyətlərindən biri də maarifçilik ideyalarının təbliği, vətənə, elə, obaya bağlılığı, tariximizi, milli-mənəvi dəyərlərimizi özündə inikas etdirməsidir. Təbii ki, uşaqların, yeniyetmələrin bu ruhda böyüməsində ədəbiyyatın, xüsusilə də uşaq ədəbiyyatının müstəsna əhəmiyyəti vardır. Müstəqillik dövrü Lənkəran ədiblərindən bir çoxunun, xüsusilə də Məsudi Dövranın yaradıcılığında biz ədəbiyyatın tərbiyəvi əhəmiyyətinin, öyrədici xüsusiyyətinin, gənc nəslin bu ruhda böyüməsinə xidmət etdiyinə bir daha şahid oluruq. Şairin "Ana dili" şeirində doğma dilə bağlılığı da məhz bu ruhda yazılan şeirlər silsiləsindəndir :

*Nənədir, babadır bu dil,*
*Boş qalmaz yuvadır bu dil,*
*Mahaldır, obadır bu dil,*
*Vətənə, elə gəlmişəm* [135, s.5].

Eyni zamanda Məsudi Dövranın hələ uşaqlıq illərində, V sinifdə oxuduğu

zaman atasına həsr edərək qələmə aldığı “Vətən xilaskarı” şeiri də uşaq ədəbiyyatının əminliklə qeyd edə bilərik ki, maraqlı incilərindəndir. Çünki burada təkcə ədəbin özünün uşaqlara olan duyğusu deyil, eyni zamanda bir uşağın öz dünyasından verilən hislər tərənnüm olunub. Ədəbiyyatımızda isə bu tip şeirlər çox azlıq təşkil edir. Şeir o qədər bitkin formada yazılmışdır ki, oxucuda hətta qısa poema təəssüratı yaradır və bir uşağın qələmindən süzülən şeirdən çox daha təcrübəli qələm sahibinin şeiri təəssüratı yaradır:

*Atam Vətən üçün çarpışan zaman*
*Üstünə cummuşdur bir dəstə alman.*
*Polad sinəsini vermiş irəli*
*Qanlı yara almış əyilməz əli.*
*Lakin itirməmiş atam özünü*
*Düşmənə zilləmiş o mərd gözünü*
*Yaralı əlinə tüfəng almış o,*
*Ulduzlu tüfəngi işə salmış o.*
*Sən ey rus süngüsü, rus tüfənglisi*
*İmtahan etmişdir sonuncu cəngi*
*Səhərin dan yeri ağardığından*
*Arada başlanmış süngü davası*
*Dolmuş meyitlərlə alman yuvası* [137, s.5].

Həmçinin Məsudi Dövranın yaradıcılığında uşaqları elmə, biliyə səsləyən, kitab oxumağa həvəsləndirən, maarifçiliyi daha çox təbliğ uşaq şeirləri ilə də qarşılaşırıq:

*Kitab var qalın kitab,*
*Kitab var qalan kitab.*
*Səhifəsi az, mənası çox,*
*Qəlbləri alan kitab* [139, s.51].

Göründüyü kimi müstəqillik dövrü Lənkəran ədəbi mühitində uşaq ədəbiyyatı

özünəməxsus inkişaf xətti ilə xüsusi olaraq seçilir. Bölgənin fərqli koloridinə yeni çalar qatan uşaq ədəbiyyatı ədiblərinin yaradıcılığına da özünəməxsus ab–hava qatır.

Görkəmli fransız mütəfəkkiri Jozef Jubert demişdir: *"Uşaqların nəsihətdən çox yaxşı nümunəyə ehtiyacı var*". Düşünür ki, müstəqillik dövrü Lənkəran ədəbi mühitində yazıb yaradan ədəbilərin yaradıcılığında xüsusi yer tutan uşaq ədəbiyyatından gətirdiyimiz ən çox da tərbiyəvi və maarifləndirici əhəmiyyət kəsb edən nümunələr də məhz bu qəbildəndir.

Ümumiyyətlə, uşaq ədəbiyyatının inkişafı ən mühüm amillərdən biridir. Nəzərə alsaq ki, uşaqlar məxsus olduğu xalqın gələcəyidir, o zaman bunun nə dərəcədə mühüm bir anlayış olduğunu görmüş olarıq. Uşaq ədəbiyyatının inkişafı ilk növbədə tərbiyələndirici xarakter daşıyırsa da, digər tərəfdən ədəbiyyatı uşaqlara sevdirməklə onlarda bu sahəyə olan marağı formalaşdırmağa da xidmət etmiş olur. Təbii ki, bu maraq onların gələcəkdə şair, nasir, publisist olmalarına da təkan verən güclü amillərdəndir.

Tədqiqat zamanı müstəqillik dövrü Lənkəran ədəbi mühitində fəaliyyət göstərən ədiblərin əksəriyyətinin yaradıcılığında qarşılaşdığımız uşaqlar üçün nəzərdə tutulmuş bədii nümunələr bir daha sübut edir ki, bölgə ədəbi mühitində uşaq ədəbiyyatı kifayət qədər inkişaf etmişdir. Aparılan araşdırmalar istər publisistikanın, istərsə də uşaq ədəbiyyatının müstəqillik dövrü Lənkəran ədəbi mühitində əvvəlki dövrlərdən fərqli olaraq daha çox inkişaf etdiyini xəbər verir.

Tədqiqat işinin I fəslini əhatə edən əsas müddəalar ədəbiyyat siyahısının 117, 118, 119, 120, 123, 124, 130, 132, 133, 229, 230, 231 nömrələrində göstərilən məqalə və tezislərdə dərc olunmuşdur.

# II FƏSİL

# MÜSTƏQİLLİK DÖVRÜ LƏNKƏRAN ƏDƏBİ MÜHİTİNİN ƏSAS SİMALARI

## 2.1. Mirhaşım Talışlı yaradıcılığı və klassik şeir ənənələrinin təzahürü

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində öz fərqli üslubu, dəst–xətti, klassik tərzi ilə seçilən sənətkarlardan biri də Mirhaşım Talışlı olmuşdur. Yaradıcılığında başdan-başa Füzuli ruhu duyulan, klassik ənənələrə sadiqliyi ilə seçilən Mirhaşım Talışlı "Müsafir" təxəllüsü ilə yazıb yaratmışdır. Şair, ədəbiyyatşünas alim, tədqiqatçı Mirhaşım Talışlının zəngin ədəbi irsi yalnız ədəbiyyat tariximiz üçün deyil, həm də digər sahələrdə göstərdiyi xidmətlərə görə çox önəmli mövqelərdən birini tutur.

Mirhaşım Talışlı əruz vəzninin müasir dövrümüzdə ən mahir bilicilərindəndir. Ədəbiyyatşünas alim Rəhim Əliyevin də qeyd etdiyi kimi: *"Azərbaycan dilində uzun saitlər olmadığı üçün əruzun bəhrləri də çox nadir hallarda qüsursuz işlənə bilir. Ona görə Azərbaycan şeiri əsasında əruzu dəqiq öyrənmək çətindir, bunun üçün ərəb və fars dillərinin fonetikasına və bu dillərdə əruzun səslənməsinə və ahənginə bələd olmaq lazımdır. Əruz bəhrləri Azərbaycan şeirinə adətən farsca şeirlərin bəhri saxlanılmaqla tərcüməsi və təbdili yolu ilə daxil olub*" [56, s.286]. Bu fikirlərdən də aydın olur ki, əruz vəznində yazmaq çox çətin olmaqla bərabər həmçinin də məsuliyyətli bir işdir. Mirhaşım Talışlı isə bu məsuliyyətin üzərindən öz klassik ruhlu yaradıcılığı ilə gəlməyi bacarmışdır. O, əruz vəzninin ayrı-ayrı bəhrlərindən istifadə edərək qəzəl janrında saysız-hesabsız nümunələr yaratmışdır. Təsadüfi deyil ki, "həm eşq, məhəbbət, həm də ictimai-fəlsəfi məzmunlu qəzəlin bir janr kimi Şərqdə və bütün dünyada şöhrət qazanmasının, poetik fiqurlar, müəmmalar, rəmzlər hesabına formalaşmasında sufizmin (təsəvvürün) böyük rolu olmuşdur" [196, s.164]. Biz qəzəlin bu xüsusiyyətlərin demək olar ki, Mirhaşım Talışlı yaradıcılığında tam olaraq

müşahidə edə bilirik. Daha çox Məhəmməd Füzuli irsinə bağlılığı ilə seçilən ədibin, dahi Füzuliyə olan sonsuz məhəbbəti aşağıdakı beytlərdən də açıq aşkar duyulur:

*"Məndə Məcnundan da artıq eşq vardır " söylədin,*
*Heyf bilməm hansı yara canını qıldın fəda...*
*...Mən sənin sevda yolunda Müsafir olmuşam,*
*Heç bir insan eyləyə bilməz məni səndən cuda* [203, s.13].

Mirhaşım Talışlının qəzəlləri mövzu baxımdan da çox rəngarəngdir. Onun qəzəllərinin bir qismi məhəbbət motivli lirik qəzəllərdir. Füzuli qəzəllərinə nisbətən Mirhaşım Talışlının məhəbbət motivli qəzəllərində təsvir etməyə çalışdığı eşq daha çox real boyalarla təsvir olunmuşdur:

*Sevgilim, ver öz əlinlə dolu peymanə mənə,*
*Onu nuş eyləməsəm, onda de: - "Divanə" mənə* [203, s.40].

Göründüyü ki, şair bu beytdə öz sevgilisinə xitabən özünü divanə adlandırır və onun təsvir etdiyi sevgili Füzulinin təsvir etdiyi aşiq və məşuq obrazlarından fərqli olaraq realdır. Şairin bu səpkidə lirik aşiqanə qəzəlləri çoxdur. Qədim Rufullayevin də qeyd etdiyi kimi *"Şairin aşiqanə qəzəlləri dil və üslubuna görə bir sıra diqqətəlayiq xüsusiyyətlərə malikdir. Klassik şeir mədəniyyətinə malik olan sənətkar, yaradıcılığında sözdən bacarıqla istifadə etmişdir. Yeknəsəq təsvirlərdən qaçmaq üçün rəngarəng, əlvan boyalardan məharətlə istifadə etmişdir. Belə aşiqanə qəzəllərdən qüvvətli təsvir vasitələri yaradaraq dili, ifadələri gözəlləşdirmiş, sözləri şeirlərin ayrı-ayrı misraları içərisində məna kəskinliyi və ahəngdarlığı ilə məharətlə düzə bilmiş, oynaq qafiyələr, münasib rədiflər yaratmışdır"* [171, s.24].

Lakin buna baxmayaraq onun məhəbbət motivli qəzəllərinin dərinliyində bəzən ilahi sevgi, ilahi məhəbbət özünü doğurur. Bu tip qəzəllərində isə artıq ədib digər real məhəbbət motivli qəzəllərindən fərqli olaraq Füzuli ənənəsini, Füzuli ruhunu yansıdır:

*Deməyin Yusifə rusvadır Züleyxa yerinə,*
*O Züleyxadi qoyan Yusifi rüsva yerinə...*
*...Ey, Müsafir, bu adınla dayanıbsan, bə nə vaxt,*

*Gedəsən Məkkəyə öncə, sonra uqba yerinə* [203, s.43].

Şairin qəzəlləri təkcə real və ilahi məhəbbəti tərənnüm edən motivlərdən ibarətdir deyildir. Onun qəzəllərində yeri gələndə ictimai siyasi hadisələr, yeri gələndə təbiət təsvirləri, yeri gələndə dinimizi, mənəviyyatımızı ehtiva edən məqamlar öz əksini tapır. Həmçinin Mirhaşım Talışlı müasir dövrümüzdə qəzələ olan biganəliyə, yad münasibətə eyhamla yazdığı "Qəzəl" rədifli qəzəlində onu Füzuli bağçasının gülü adlandıraraq bütün zamanlar üçün təravətli olduğunu dönə-dönə vurğulamağa çalışmışdır:

*Füzuli baxçasının tər gülü, qəzəldi, qəzəl,*

*O, söyləyib ki, "səfabəxş" dir, gözəldi qəzəl...*

*...Sənin əlin də Müsafir, bu sirli dəfdənədir,*

*Odur ki, söz sapına dür kimi düzüldü qəzəl.* [203, s.58-59]

*"M.Talışlı ictimai lirikasında gənc nəslin tərbiyəsində bəzi nöqsanların olması barədə narahatlığını da yeri gəldikcə vurğulayır. Müasir mərhələdə "Avropaya inteqrasiya" məfhumu yeri gəldi-gəlmədi, həyatın bütün sahələrində işlədilməkdədir. Avropanın mütərəqqi ənənələrinin Şərqə, ölkəmizə iqtibas edilməsində heç bir qüsur yoxdur. Lakin bununla yanaşı milli dəyərlərimizin unudulması, bu mədəniyyətə ögey münasibət bir çox insanlar kimi M.Talışlını da narahat edir"* [171, s.28]. Aparılan araşdırmalar zamanı biz bunu onun "Cavanlar" qəzəlindən daha aydın duyuruq:

*Şənliklərimiz əcnəbilər tək dəbə düşdü,*

*Xoş məclisimiz oldu şərəbxanə, cavanlar.*

*Şükr eyləmədik Haqqa ziyafətlər olanda,*

*Son qoymalıyıq indi bu nöqsana, cavanlar!* [203, s.335]

Ömrünün 50 ilini əruzun müxtəlif bəhrlərində qəzəl yazaraq, Füzuli ənənələrini layiqincə davam etdirən Mirhaşım Talışlı yazdığı qəzəllər əsasında "Divan" da tərtib etmişdir. Məlumdur ki, "*əsasən lirik şeirlər toplusundan ibarət olan divanların müvafiq daxili strukturu olur. Belə ki, divana daxil edilən şeirlər ərəb əlifbasının sıralanmasına uyğun olaraq düzülür. Belə ki, eyni janrdan olan ilk şeirin birinci (mətlə) və axırıncı (məqtə) beyti "əlef"(a) hərfi ilə bitməli və axırıncı şeirin isə*

*mətlə və məqtəsi ərəb əlifbasının axırıncı hərfi olan "ya" (i,y) hərfləri ilə bitməlidir. Şair divan ədəbiyyatının tələblərinə uyğun olaraq, bütün hərflərlə bitən şeirlər yazmalıdır. Divana daxil olan şeirlərin sayı 100-dən az olmamalıdır"* [91, s. 61]. Mirhaşım Talışlının "Dedim ki, sözüm qala" kitabına daxil etdiyi divanında biz divanın bu daxili strukturlara cavab verdiyinin şahidi oluruq. Məlumdur ki, *"Divanın əvvəlində verilmiş şeirlər məzmun etibarilə aşağıdakı növlərdə olmalıdır:*

*Tövhid – Allahın varlığının birliyinin tərifi;*

*Minacat - Allaha yalvarış, dua;*

*Nət – peyğəmbərin tərifi;*

*Meracnamə- peyğəmbərin Allahla bəndələr arasındakı elçiliyi;*

*Mədhiyyə - bir şəxsin tərifi;*

*Fəxriyyə - şairin özünü tərif etməsi;*

*Həcviyyə - bir şəxsin ifşası;*

*Mərsiyə - ağı;*

*Sözün tərifi "* [91, s. 63] ;

Mirhaşım Talışlının tərtib etdiyi divanı isə "Bismillah–ir-rəhman-ir rəhim" sözləri ilə başlayaraq "Allah doğurdan da bağışlayandır, hər şeyi biləndir və hikmət sahibidir" sözləri ilə davam edir. Lakin divanın ənənəvi məzmunun strukturundan fərqli olaraq Mirhaşım Talışlının tərtib etdiyi divanın ilk qəzəli allahın varlığının birliyini, allaha yalvarış, peyğəmbərin tərifi ilə deyil məhz Məhəmməd Füzuliyə mədhiyyə ilə başlayır:

*Bir səmasən ki, səni fəth eyləmək asan deyil,*
*Eylə bir şahsan , sənə məftundur şahu gəda...*
*...Mən sənin sevda yolunda bir Müsafir olmuşam,*
*Heç bir insan eyləyə bilməz məni səndən cuda* [203, s.13].

Çox güman ki, Mirhaşım Talışlının klassik divan ənənələrindən kənara çıxması söz mülkünün allahının, peyğəmbərinin məhz Məhəmməd Füzuli olduğunu xüsusilə vurğulamaq istəyi olmuşdur.

Mirhaşım Talışlı əruz vəznindən istifadə edərək təkcə qəzəllər yaratmayıb. Araşdırmalar zamanı onun yaradıcılığında klassik ruhda yazılan təxmislərə, təzmin, rübai hətta ilk dəfə olaraq əruzun həcəz bəhrində yazılan sonetlər çələnginə də rast gəlirik.

Tədqiqat zamanı Mirhaşım Talışlının daha çox Məhəmməd Füzuliyə, Seyid Əzim Şirvaniyə, Əliağa Vahidə, Məhəmmədhüseyn Şəhriyara çoxlu təxmislər yazdığının şahidi olunur. Məlumdur ki, daha çox klassik şairlərin yaradıcılığında müşahidə etdiyimiz təxmis müxəmməsə bənzəsə də, ondan fərqli olaraq adlı-sanlı, tanınmış hər hansı bir şairin şeirini alıb, onun hər beytinə üç misra artırmaqla yaradılır. Baba Babazadə tədqiqatlarında haqlı olaraq vurğulayır ki, *"bu baxımdan, beşləmə yazmaq, onun qafiyəsini qurmaq hər hansı bir sənətkardan yüksək ustalıq tələb edir. Belə ki, başqa şairdən alınan beytə uyğun olaraq şair artırdığı üç misrada, qafiyə və vəzndə yüksək sənətkarlıq nümayiş etdirməlidir"* [17, s.144]. Biz bu sənətkarlıq xüsusiyyətlərini Mirhaşım Talışlının təxmislərindən açıq-aşkar görə bilirik. Bu baxımdan onun ustad şair Məhəmməd Füzuliyə yazdığı təxmisi daha çox diqqət çəkir:

*Necə bağban oldum, hər yanda saraldı çəmənim,*
*Necə səbr eyləyim, ağırdır çiyində rəsənim.*
*Necə bu cismdə mən qeyri libasa bələnim;*
*"Pənbeyi-daği cunun içrə nəhandır bədənim;*
*Diri olduqca libasım budur, ölsəm kəfənim"* [203, s.98].

Hətta aparılan araşdırmalar zamanı Mirhaşım Talışlı yaradıcılığında klassik ədəbiyyatımızda belə o qədər də geniş yayılmayan təxmis – mərsiyə formasından da məharətlə istifadə etdiyinin şahidi oluruq. Təsadüfi deyil ki, onun təxmis-mərsiyəsi də məhz elə ustad şair Məhəmməd Füzulinin "Ya Rəbb" qəzəlinə yazılmışdır:

*Bu dəşti – Kərbəla, hər yan cəfa, çıxmaz səda, ya Rəb!*
*Mədinə rövzəsindən büsbütün olduq cuda, ya Rəb!*
*Hücum eylər dəmadən bu həyasız əşqiya, ya Rəb!*
*"Əgərci əmrdən çıxmaq olub qəti - xəta, ya Rəb!*

*Necə bu dərdu möhnətdən ürək qan olmasın, ya Rəb!"* [203, s.177]

Apardığımız araşdırmalar zamanı Mirhaşım Talışlının klassik irsində tərcibəndlərə də kifayət qədər rast gəlinir. Məlumdur ki, ədəbiyyatımızda daha çox məhz elə Məhəmməd Füzulinin yaradıcılığında müşahidə etdiyimiz tərcibənd 8 – 10-12 misradan ibarət olan gözəllik, sevgi, ictimai-fəlsəfi mövzulardan bəhs edən klassik şeir şəklidir. Digər klassik tərzdə yazdığı şeirlərində olduğu kimi Mirhaşım Talışlının tərcibəndlərində də eyni ilə Füzuli ruhu duyulur. O, ustadı Füzulinin adını dönə-dönə tərcibənlərində də çəkməyi unutmur. Hətta bəzi təcibəndlərini bütövlükdə dahi ustadına ithafən yazır:

*....Füzuli ! Bu adi qəzəlxan deyil,*
*Onun məclisi sadə meydan deyil,*
*Onun sözləri sözdür həyan deyil,*
*O hər qafiyə bazə sayan deyil...* [203, s.118]

Müsafirin klassik irsində biz həmçinin cəmi dörd misradan ibarət olan və daha çox ictimai, fəlsəfi və əxlaqi məzmun daşıyan əruz vəzninin həcəz bəhrində yazılan rübai janrı ilə də qarşılaşırıq. Şübhəsiz ki, rübai deyəndə, göz önündə ilk növbədə böyük şərq klassiki Ömər Xəyyam və Azərbaycan ədəbiyyatı tarixində Məhsəti Gəncəvi canlanır. Lakin müstəqillik dövrü istər Lənkəran ədəbi mühitində, istərsə də bütövlükdə Azərbaycan ədəbiyyatında rübai adı gələndə ilk göz önündə məhz Mirhaşım Talışlının yaradıcılığı canlanır. Düzdür, rübai janrına həm Lənkəran ədəbi mühitində, həm də bütövlükdə Azərbaycan ədəbiyyatında istər müstəqillik dövründə, istərsə də ondan əvvəlki dövrlərdə kifayət qədər müraciət edən şairlərimiz olub. Lakin öz klassik tərzi ilə seçilən Mirhaşım Talışlı rübai janrı ilə müstəqillik dövrü Azərbaycan ədəbiyyatına öz damğasını qoymağı bacarmışdır. Aparılan araşdırmalar zamanı onun rübailərində daha çox zamanla başımıza gətirilən müsibətlər, bir çox tarixi faktlar öz əksini tapır. Məlumdur ki, Mirhaşım Talışlı "Fövcül – füsəha" ədəbi məclisini müstəqillik dövründə yenidən bərpa edərək ona ömrünün sonuna kimi rəhbərlik etmişdir. O, yazmış olduğu rübailərində belə tez – tez "Fövcül – füsəha" ədəbi məclisin adını çəkərək, onun özündən əvvəlki yaradıcılarını dönə-

dönə xatırlayaraq yad edir:

*“Fövcül–füsəha ” məclisimiz var olsun,*
*Banilərin ruhu da bidar olsun,*
*Hər şəhərdəki məclisə bir namə yazaq,*
*Ünsiyyətimiz bir daha təkrar olsun* [203, s.179].

Mirhaşım Talışlının yaradıcılığını araşdırarkən demək olar ki, klassik şeir şəkillərinin əksəriyyətinə rast gəlirik. Hətta klassik ədəbiyyatda daha çox epik poeziya üçün səciyyəvi olan məsnəvi janrı belə Müsafirin yaradıcılığından yan keçməmişdir. Məlumdur ki, *“... məsnəvi sənətkarın yaradıcı axtarışlarını, onun bədii üsullarının müxtəlifliyini məhdudlaşdırmır, mürəkkəb psixoloji, dərin fəlsəfi-didaktik məzmunla hadisələri təsvirə imkan verir. Burada bədii – texniki prinsiplərə, qafiyə quruluşuna sərbəst yanaşılır, həcmcə sədd qoyulmur”* [68, s.265]. Məhz məsnəvinin bu xüsusiyyəti Müsafir yaradıcılığında daha dərin mövzuları epik səpkili çatdırmağa imkan yaradıb. Onun Qarabağ faciələri ilə əlaqədar yazdığı məsnəvisində ermənilərin xalqımızın başına gətirdiyi müsibətlər lirik-epik lövhələrdə öz təsvirini bütün dolğunluğu tapmışdır:

*Möhnəti axdı-gəldi ömrümüzün,*
*Çox çətin vaxtı gəldi ömrümüzün.*
*Qüssələrlə necə keçir ilimiz,*
*İntizar içindədir elimiz...* [203, s. 336]

Mirhaşım Talışlı klassik şairlərimizdən məharətlə bəhrələnən və onları ustadı hesab edən şairdir. Onun qəzəllərində Məhəmməd Füzuli ruhu duyulduğu kimi satirik tərzdə yazdığı şeirlərində Mirzə Ələkbər Sabirin dəst-xətti hiss olunur. Müsafirin “Bürokrata”, “Bibi qurban”, “Ayrı şeydir”, “Nə olsun?!”, “Toyuğuna dönəsən, ay toyuq satan Məmədi”, “Biz biləni yaxşısan, qalanın allah bilir”, “Satıram” [203] və digər satirik şeirləri buna nümunə ola bilər. Mirhaşım Talışlının “Satıram” satirik şeiri Mirzə Ələkbər Sabirin “Satıram” şeirinə nəzirə olaraq yazılıb. Sabirin öz satirasında dediyi:

*Moldayı, salmadı el dil boğaza...*

*Eybi yox, gərçi qoyulduq loğaza,*
*Yaz bu elanımı da bir kağaza:*
*Açmışam Reydə geniş bir mağaza,*
*Çox ucuz qiymətə hər şey satıram,*
*Ay alan!.. məmləkəti-Rey satıram!* [154, s.222]

fikirləri Mirhaşım Talışlının satirasında belə davam edir:

*Başlanıbdır daha rahatlığımız,*
*Çox olub mala haram qatmağımız;*
*Çıxıb aşkarlığa hər şadlığımız,*
*Daha gizlində deyil satdığımız.*
*Çatıb hər səmtə bu siqnal satıram,*
*Birə yüz qiymətinə mal satıram* [203, s.332]

Aparılan araşdırmalar zamanı Mirhaşım Talışlının yaradıcılığında görkəmli satira ustası Mirzə Ələkbər Sabirin yazdığı fəxriyyəsinə etdiyi əlavəsi ilə də qarşılaşırıq. Misafirin Sabirə xitab edərək başladığı bu satirası da demək olar ki, tamamilə günümüzlə səsləşən qəbildəndir:

*Sabir, sənə hər gündə gərək söylənə: rəhmət,*
*Aşkarlığı ki, eylədilər xalqına qismət.*
*Döndü yenə türk, tat, talışa, lahıca millət,-*
*Bərpa olub hər məhlədə bir tazə cəmiyyət,*
*Birlik yox imiş bizdə, hərə bir tərəfiz biz,*
*Öz qovmümüzün başına əngəl kələfiz biz* [203, s.291].

Mirhaşım Talışlının satirik şeirlərinin əsas məğzində zəmanədən şikayət, gördüyü haqsızlıqlara göz yummamaq, acı həqiqətləri, cahilliyi, geridə qalmışlığı Sabiranə formada tənqid etmək durduğu kimi bəzi şeirlərində dövrün, zamanın, haqq-ədalətin yavaş-yavaş sahmanə düşdüyü də ön plana çəkilir:

*Əzizim, bu cahan mülkü düşür sahmanə, inşallah!*
*Həyat Allahın əmrilə gəlir mizanə, inşallah!*
*Əgər insan uzun il doğru yollardan uzaqlaşdı,*

*Nəhayət, doğru yol qismət olur insanə, inşallah!* [205, s.355]

Mirhaşım Talışlının klassik irsini araşdıranda onun yaradıcılığında İmadəddin Nəsiminin də təsirinin duyulduğunu görürük. Məlumdur ki, öz mayasını xalq düşüncəsindən, ruhundan, dilindən almış İmadəddin Nəsiminin yaradıcılığı öz dövründə ana dilinin məxsus olduğu məna imkanlarını bütün təbiiliyi, tamlığı, təravəti və dolğunluğu ilə özündə inikas etdirmişdir. Dahi söz sənətkarının yaradıcılığı müasir dövr Azərbaycan ədəbiyyatında olduğu kimi onun bir hissəsini təşkil edən Lənkəran ədəbi mühitindən də yan keçməmişdir. Xüsusilə də bu təsir Mirhaşım Talışlı yaradıcılığında daha çox duyulur. Məlumdur ki, İmadəddin Nəsimi yaradıcılığında "mən" kainatdır, həyatdır, gözəllikdir, bir sözlə bəşəriyyətin taleyidir. Kainatın bütün sirləri onda cəmləşərək gizlənmişdir. Dünyada müxtəlif şəkillərdə təzahür edən bu "mən" əbədi və əzəlidir. Nəsimi yaradıcılığında əsas başlıca xüsusiyyət isə bu "mən" fonunda insanın özünü dərk etməsidir. Biz insanın özünün "mən" formasında dərkini Mirhaşım Talışlı yaradıcılığında da müşahidə edə bilirik:

*Bir sürəti canan üçün min intizarım var mənim,*
*Bir böylə əksi görməyə çox iftixarım var mənim...*
*Mən bir Müsafir şairəm, qəlbim gözüylə sahirəm,*
*Var əski üstə xatirəm orda şüarım var mənim* [205, s.15].

Məlumdur ki, hürufilikdə Quranın təhlili və yozumu saylar üstündə qurulmuşdur və mistik panteizm hürufilik fəlsəfəsinin əsas özəyini təşkil edir. Hürufilik təlimi əsasən onu öyrədir ki, bütün kainatın və yaradılışın sirri hərflərdən ibarətdir. Hürufilərin təliminə əsasən, insan özü tanrıdır və ya insan Allahın vücudundan qopmuş kiçik bir zərrədir. Hürufilərin fikrincə yalnız kamil insan yenidən Allaha qovuşacaqdır. Nəsiminin təlimində qarşılaşdığımız bu ideyaları biz eyni ilə Mirhaşım Talışlıda da görürük. Ömrünün yarıdan çoxunu eyni zamanda quranın təhlili ilə məşğul olmuş Mirhaşım Talışlının Nəsimiyə yazdığı təsdisində hərflər öz panteist ifadəsini belə tapır:

*Hər "hüvəllahü"ylə, "ha", "he", "hü"ylə şükranə qıl,*

*Son səsi "He"ylə nəfəs gəldikcə "ah!"ə lanə qıl,*
*Orda Allahı yəqin et, taətin mərdanə qıl;*
*"Gec ananiyyət sözündən könlünü viranə qıl,*
*Neçəsi tezcik bilürsən güntə-gənzüllahı gör!"* [205, s. 131]

Məlumdur ki, hürufiliyin əsasını Fəzlullah Nəimi qoymuşdur. Eyni təsdisində Mirhaşım Talışlı Nəsimi ilə yanaşı onun müəllimi Fəzlullah Nəimini də xatırlayaraq dolayısıyla onları öz həkimi adlandırmışdır:

*Çox Müsafirə yetirdin şövq ilə əl, ey həkim,*
*Haqq səni aləmdə heç qoymaz məhəttəl, ey həkim,*
*Xəstələr yordu səni, bir azca dincəl, ey həkim;*
*"Elmi-hikmətdən bilirsən, bir bəri gəl, ey həkim,*
*Sən Nəsimi məntiqindən dinlə Fəzlullahı gör!."* [203, s.132]

Mirhaşım Talışlı klassik ruhlu şair olsa da aparılan araşdırmalar zamanı onun yaradıcılığında şifahi xalq ədəbiyyatından bəhrələnərək yaratdığı nümunələr ilə də qarşılaşırıq. Xüsusilə bayatı janrı ədibin heca vəznli şeirlər içərisində daha çox müraciət etdiyidir:

*Əzizinəm, Ay-ulduz*
*İşıqlanır ay, ulduz;*
*Bəxt ulduzum, səslərəm:*
*Hayandasan, ay ulduz ?* [203, s.261]

Ədib bayatılarının bir qisminə "sarı bayatılar" adı vermişdir. Maraqlı məqam ondan ibarətdir ki, "sarı bayatılar"ının hamısında ədib sarı sözündən istifadə etmişdir. Azərbaycan ədəbiyyatında belə başlıqlı bayatılar silsiləsi ilə demək olar ki, qarşılaşmamışıq. Bu ədəbiyyatımız üçün yeni və həm də maraqlıdır, şairin yüksək sənətkarlıq keyfiyyətindən xəbər verir:

*Əzizim sarı bülbül,*
*Saymadın sarı bülbül;*
*Xilqətdən saralmısan,*
*Ya dərddən sarı bülbül?!* [203, s.264]

Hətta “sarı bayatılar”ının bir qismində Müsafir Sarı aşığın adını çəkməyi də unutmur:

*Barı, aşiqdən deyin,*
*Varı aşıqdan deyin;*
*Sarıya bir neçə gün*
*Sarı aşıqdan deyin* [203, s.264].

Tədqiqat zamanı Mirhaşım Talışlının yaradıcılığında təcnislə də qarşılaşırıq. Cinas sözlərdən məharətlə istifadə etməyi bacaran şair burada da qələmini çox gözəl sınamağı bacarmışdır:

*İlham ilə qələm versən əl-ələ,*
*Sözə “can” deyərəm, qələmə “lələ”,*
*Söz sinəyə dolsa qələm al ələ,*
*İlhamlan sənətin hər bir irsindən* [203, s.264].

Mirhaşım Talışlının heca vəznli şeirləri içərisində qoşmalar da özünəməxsus yer tutur. Klassik tərzdə yazdığı şeirlərindən-qəzəllərindən fərqli olaraq qoşmalarında Mirhaşım Talışlı ilahi eşqi deyil, insani duyğulardan, real məhəbbətdən bəhs edir. Müsafir təxəllüsü ilə yazdığı məhəbbət motivli qoşmaların bir qismində şair sevgilisinə xitab edir:

*Müsafirin sözü hədyan deyildir,*
*Ürəyin söyləyir, böhtan deyildir,*
*Sevgilim, qəlb evim viran deyildir,*
*Mən də bir xəzinə durdanəsiyəm* [203, s.137].

Mirhaşım Talışlının yaradıcılığında əsasən Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Qasım bəy Zakir yaradıcılığında gördüyümüz “Durnalar” qoşması da yer alır. Mirhaşım Talışlının “Durnalar” qoşması nə Molla Pənah Vaqifdə olduğu kimi nikbin, nə də Molla Vəli Vidadidə olduğu kimi tam nisgilli deyildir. Onun qoşmasında təsvir etdiyi durnalar real boyalarla öz əksini tapmışdır və daha çox durnaları vəsf etmək xarakteri daşıyır. Ancaq buna baxmayaraq hər üç sənətkarın yaradıcılıq tərzi Mirhaşım Talışlının “Durnalar” qoşmasında duyulur. Konkret ədibin bu söz

ustalarından hansından bəhrələndiyini müəyyənləşdirmək olmasa da, birindən bəhrələndiyi danılmazdı:

*Bu gün yenə qanadlanıb uçuram,*
*Haray salıb Savalandan keçirəm,*
*Səsinizlə yenidən dil açıram,*
*Durnalar, ay durnalar, ay durnalar,*
*Könlüm quşu sürbənizlə dolanar!* [203, s.310]

Mirhaşım Talışlı ədəbiyyatşünas alim kimi mütəmadi tədqiqatlar aparan, bəzən hətta elmi araşdırmalarını belə poeziya dilinə köçürməyi bacaran nadir istedadlardan biridir. O, Səməd Vurğunun Lənkəranda keçirilən yubileyi haqqında öz xatirələrində deyir: *"... 28 sentyabr 1996-ci ildə şair Səməd Vurğunun anadan olmasının 90 illiyi Lənkəran Dram Teatrında qeyd edildi. Məruzəçi mən idim. Həmin mərasimdə şairin ömür-gün yoldaşı Xavər xanım, qızı Aybəniz və nəvəsi də iştirak edirdilər. Aybəniz xanım bir məruzəçi kimi mənə razılığını bildirdi. O görüşdə Səməd Vurğuna əruz ölçüsündə həsr etdiyim bir şeiri də məndən istədi. Şeir belədir:*

*Əsrin sözü cismində bir candı Səməd Vurğun,*
*Şeirə, sənətə tazə mizandı Səməd Vurğun...*
*Yurduma Müsafirlər hər vaxt gəlib getmiş,*
*Həm indi, həm sonra-hər andı Səməd Vurğun!"* [208]

Mirhaşım Talışlının çoxşaxəli, zəngin yaradıcılığı kimi eyni zamanda malik olduğu şəxsi keyfiyyətləri, dərin zəkası da onun qələm dostlarının hər zaman diqqət mərkəzində olmuş, onun haqqında bir çox məqalələr, şeirlər yazılmış, fikirlər söylənilmişdir.

Əjdər Ağayev "Şərəfli ömür yolu" adlı məqaləsində böyük zəka sahibi olan Mirhaşım Talışlı haqqında yazır: *"Şair dostları Mirhaşım Talışlının geniş erudisiyasından, yüksək əxlaqi-mənəvi keyfiyyətlərindən, sənət yanğısından, yurd məhəbbətindən vəcdə gələrək ona bədii parçalar həsr etmişlər. Şair Qabil yazır:*

*Nə qədər ki, səninləyəm Mirhaşım,*

*Talış dağları tək ucalır başım.*

*Yaxud:*

*Ürfəanın Fərhadı,*
*Şeirin ustadı Mirhaşım.*
*Qabilin köhnə dostu-*
*Qol - qanadı Mirhaşım"* [4].

Həmçinin Lənkəran ədəbi mühitində yaşayıb - yaradan yazarlardan Aliyə Seyidqızı Mirhaşım Talışlını nəhəng bir dağa bənzədərək onun haqqında yazdığı şeirində deyir:

*Siz elə Mirhaşım Müsafirsiniz!*
*Hacı, Kərbalayi, Məşədi Ağa!*
*Kimi hansı dağa bənzətmişəmsə,*
*Onların hamısı Sizə sadağa!* [175, s.273]

Etibar Əhədov da Mirhaşım Talışlıya həsr etdiyi "Mirhaşım Talışlı-85 ədəbiyyatımızın ağsaqqalı" adlı məqaləsində onun haqqında yazır: *"O, xalqın qəlbində öz əzəmətli heykəlini çoxdan ucaltmışdır. Mirhaşım müəllim həqiqətən çox zəngin yaradıcılığı ilə gələcəyə işıq tutur. Yaradıcılığının əsas ilham mənbəyi Azərbaycandır, onun bir parçası olan Lənkərandır. Doğma diyar belə müdrik insanlarla, gördükləri işlərlə tanınır. Hacı Mirhaşım Talışlı kimi müdrik el ağsaqqalı olan xalq fəxr etməyə haqlıdır"* [42].

Onu da xüsusilə vurğulamaq lazımdır ki, ədəbiyyata, şeirə böyük dəyər verən Heydər Əliyev bölgədə yazıb-yaradan ədibləri hər zaman diqqət mərkəzində saxlamış və onların yaradıcılığını mütəmadi izləyərək dəyərləndirmişdir. Bunu dahi rəhbərin Mirhaşım Talışlı ilə 1998-ci il oktyabrın 5-də prezident seçkiləri zamanı Lənkəranda təşkil olunan görüşü zamanı söylədiyi nitqindən də açıq-aşkar görürük: *"Bizim dostumuz, Lənkəranın, ən böyük ziyalılarından biri Mirhaşım Talışlının burada oxuduğu şeir məni çox heyran etdi. Buna görə də ona xüsusi təşəkkür edirəm. Lənkəranın həmişə böyük, yüksək ziyalı insanları olubdur. Mən bir dəfə televizora baxırdım. Lənkərandan veriliş gedirdi. Mirhaşım Talışlı Lənkəranın tarixi-keçmişi*

*haqqında danışır, söhbət aparırdı. Siz bunu yaxşı bilirsiniz. Amma mən sizə deyim, bu verilişə axıra qədər baxdım. Nə qədər ağıllı, nə qədər zəkalı bir insandır. Mən sizə təşəkkür edirəm. Bu gün oxuduğunuz şeir adi şeir deyildir. Bu həm də şeir sənətinin ən yüksək nümunəsidir. Azərbaycanın son beş ildə keçirdiyi yolu əks edən bir əsərdir"* [32, s.53].

### 2.2. Elşad Səfərlinin poeziyası və sonet janrının inkişafı

Müstəqillik dövrü Lənkəran ədəbi mühitinin özünəməxsus üslubu, fərqli yaradıcılıq metodu ilə seçilən söz sənətkarlarından biri də Elşad Səfərlidir. Onun yaradıcılığı poetik predmetə özünəməxsus baxışı ilə seçilir, fəlsəfi və obrazlı düşüncə tərzinin nümunəsi kimi diqqəti cəlb edir. O, poeziyamızda az təsadüf edilən sonet janrına müraciət edərək bu janrın ədəbiyyatımızda işlənməmiş bir sıra növlərindən məharətlə bəhrələnmişdir. Həmçinin yapon şeirinin ən işlək və ən qədim janrı olan xokku janrında da qələmini sınamış və nəinki bölgə ədəbi mühiti üçün bütövlükdə Azərbaycan ədəbiyyatı üçün onun uğurlu nümunələrini yaratmışdır.

Həm məzmunca, həm də formaca zənginliyi ilə seçilən Elşad Səfərlinin lirikası müxtəlif aspektlərdən bir çox tədqiqatların predmeti ola bilər. Onun fərqli koloritlərə malik mövzu, forma-üslub axtarışları yaradıcılığına ayrıca bir yön qatır. Ədibin fərqli yaradıcılıq metoduna malik olması çox güman ki, eyni zamanda tədqiqatçı alim olmasından qaynaqlanır. Onun elmi tədqiqatları, araşdırmaları bədii yaradıcılığında da əks olunub. Bunu biz daha çox Elşad Səfərlinin sonet və xokku yaradıcılığında müşahidə edirik. Belə ki, Elşad Səfərli Azərbayacan ədəbiyyatında çox az tədqiq olunan Avropa mənşəli sonetin təkamülü, poeziyamızda təşəkkül tapması, inkişaf mərhələləri, ilk, eyni zamanda çağdaş dövrdə yaradıcıları, sənətkarlıq xüsusiyyətləri və digər elmi-nəzəri məsələlərin tədqiqini aparmışdır. Məhz bu tədqiqatlar şairin sonet yaradıcılığını daha da zənginləşdirmişdir. O, Azərbaycan poeziyasında sonetin işlənməmiş on beşə yaxın növündə nümunələr yaratmışdır. Elşad Səfərlinin sonet yaradıcılığı o qədər dərindir ki, bu özlüyündə ayrıca bir tədqiqat predmeti ola bilər.

Elşad Səfərlinin yaradıcılığında "xokku" lar daha çox diqqət çəkir. Hətta

ədəbiyyatşünas – alim yapon ədəbiyyatına məxsus olan xokku janrının nə olduğunu, onun forma xüsusiyyətlərini, nəzəri aspektlərini elə xokku janrı ilə oxucuya çatdırmağa çalışır:

*Xokku*
*On yeddi hecalı deyilsə,*
*Xokku yox, hoqqadır* [187 s.154 ].

Xokku janrının ilk dəfə olaraq Elşad Səfərli yaradıcılığında təsadüf olunması Əlirza Əliyev və Musa Babayevin tədqiqatlarında öz əksini tapmışdır. Onlar apardığı araşdırmalarında qeyd edir: *"Azərbaycan ədəbiyyatında xokku janrında əsər yaradan ilk şair, yanılmırıqsa Elşad Səfərlidir. Bu baxımdan xokku Elşad poeziyasının (o cümlədən, Azərbaycan poeziyasının) məhsulu, yeni uğuru, estetik prinsipi, poetik kəşfidir. Xokku yapon ədəbiyyatının üç misralı lirik janrıdır, misraları qafiyələnmir lakin olar məzmundan doğan daxili bir ritminə, musiqiyə malikdir... Janr yaponların olsa da, fikir, hiss, duyğu, düşüncə, assosiativ duyum millidir, milli olduğu qədər də bəşəridir*" [16].

Elşad Səfərlinin xokku yaradıcılığında bəzən biz atalar sözü, məsəllərdən qaynaqlanan fikirlərin xokku janrına sığışdırıldığını da müşahidə edirik. Uzaq Şərq janrı ilə Yaxın Şərqin düşüncə tərzi on yeddi hecada qovuşur. Atalar sözü kimi tez-tez istifadə etdiyimiz "Yıxılan bir saman çöpünə bənd olan" ifadəsi Elşad Səfərlinin xokkusunda öz ifadəsini belə tapmışdır:

*Ən nikbindir,*
*Boğulanda*
*Saman çöpündən tutan adam....* [187, s.157]

Və yaxud dillər əzbəri olan aşağıdakı bayatılarımızda əks olunan:

*Gün gələr yaxar gedər,*
*Su gələr axar gedər,*
*Dünya bir pəncərədir,*
*Hər gələn baxar gedər.*

Fikri Elşad Səfərli yaradıcılığında formasını dəyişib xokku janrına düşsə də, məzmununu itirməmişdir:

*Dünyanın*
*Bir səhnə olduğunu*
*Pəncərədən görürəm* [187, s.160].

Şairin xokku yaradıcılığının əsas mövzusunu demək olar ki, gündəlik həyatında qarşılaşdığı hadisələr, yaşadıqları, keçirdiyi hiss və həyəcanlar təşkil edir. Cəmi on yeddi hecaya sığmağı bacaran bu hissləri Elşad Səfərli aşağıdakı xokkusunda belə izah edir:

*Gündəliyimdə*
*Poetikləşən*
*Qeydlərdir xokkular* [187, s.158]

Elşad Səfərlinin yaradıcılığında eyni motivlərə təkcə xokkularda deyil, sərbəst formada yazılmış bir neçə misradan ibarət adsız qısa şeirlərində də rast gəlirik. İlk baxışdan formaca xokku təəssüratı yaradan bu şeirlərdə daha çox şairin dünya, insan, təbiət, zamanla bağlı fəlsəfi baxışları öz əksini tapmşdır:

*Hamı deyir:*
*Vaxtı bildirmək üçündür saat.*
*Mənsə deyirəm:*
*Vaxtı öldürmək üçündür saat* [187, s.64].

Və yaxud da aşağıdakı misralarda şairin insan və zamanla bağlı düşüncələri daha qabarıq formada ifadə olunmuşdur:

*Keçir anlar, saatlar,*
*Aylar, illər.*
*Bir-birini dəyişir*
*Fəsillər.*
*Vaxt ötür,*
*Zaman durmur.*
*Bu axan zamanda,*

*Əriyən insan ömrünə,*
*Allah da  zamin durmur* [187, s. 65].

Elşad Səfərlinin lirikası o qədər  zəngindir ki, şairin toxunduğu mövzular bəzən müxtəlif forma biçimlərində qarşımıza çıxır. Onun lirik yaradıcılığı təkcə sonet və xokkulardan ibarət deyil. Şairin  heca vəznli və  sərbəst formalı şeirləri, həmçinin bu formalara sıxışdırdığı müxtəlif məzmunu lirik şeirləri  həm bölgə ədəbi mühiti, həm də Azərbaycan ədəbiyyatı üçün çox böyük əhəmiyyət kəsb edir. Yazıçı Cəmil Əliyarov onun lirikasının mövzu əlvanlığının və bu mövzuları doğuran başlıca səbəblər  haqqında yazır: *" İstedadlı Azərbaycan şairi Elşad Səfərlinin ... şeirlərini siyasi lirika, məhəbbət lirikası boyları ilə cərgələsək, Elşadın siyasi lirikası zabitlik zəhmində - zabitəsində, məhəbbət lirikası sıravı əsgər taleyində örnəklər yaradır: təbiətə həsr etdiyi misralar, ilk məhəbbət duyğuları,  ana-ata məftunluğu - bunlar şair həyatının gülşən bucaqlarıdır, doğrudur, öz poetik vüsəti ilə heç də axırıncı sırada dayanmır. Elşad bunların hamısını adi insanın gördüyündən duyduğundan, həzz aldığından artıq isti rənglərlə, dadlı kəlmələrlə, ətirli çalarlarla təqdim edir. Həm də bunlar elə deyilir ki, sənə keçən günləri elə xatırladır ki, onların nisgilini çəkib qəmlənirsən, qürurlanırsan ki, sən belə gözəl, xürrəmşad, qayğısız... günlər yaşamısan: bulaqların çaldığı saza qulaq asmısan; qarı ovcunda sıxıb, qaynaqlara həyat verən bənövşəli qüzeyləri seyr etmisən. Başına bəyaz buludlar çökən meşəni "ağbirçək ana" qiyafəsində görmüsən və ilahi məhəbbət pıçıltılarına qulaq vermisən. Təəssüf ki, o zaman bunları qiymətləndirə bilməmisən, indi təzə baxışla ürəyinə yığırsan bu gözəllikləri"* [60]. Elşad Səfərli lirikası məhz sadalanılan bütün bu özəlliklərə görə daha çox  diqqət çəkir. O, hər mövzuda yazır. Hətta  dostluq haqqında yazdığı şeirlərində bəzən böyük səmimiyyətlə yaxın dostlarının adını belə çəkməyi unutmur:

*Allahverdi  Emin və Şahin Fazil,*
*Mənim qəlb dostlarım, ülfət dostlarım.*
*Mən yaxşı dostları unutmuramsa,*
*Məni də unutmur, əlbət, dostlarım*  [187,  s.45].

Şair bəzi şeirlərində oxucuya özü haqqında qısa da olsa, məlumat verməyi də unutmur. Onun "Bu Elşad Səfərlidir" şeir bir növ şairin lirik yaradıcılığının bioqrafiyasını təşkil edir. Elşad Səfərli bu şeirində oxucusunu bir neçə misra ilə də olsa, səmimiyyətindən qaynaqlanan duyğularının ifadəsi ilə həqiqətən də, özü ilə tanış etməyi bacarır:

*Mənim Vətən naminə*
*hələ qalır söz borcum,*
*Əgər maraqlı gəlsə*
*bu söz qalam, söz bürcüm*
*Onda kitabımı aç,*
*tanış olaq, oxucum:*
*Bu, Elşad Səfərlidir* [180, s.17].

Elşad Səfərli özünəməxsus üslubu olan sənətkarlardan biridir. Oxucu onu sətirlərindən tanımağı bacarır. Ümumiyyətlə, Lənkəran ədəbi mühitinə nəzər saldığımız zaman bölgədə klassiklərin yaradıcılığından xüsusilə Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabirdən bəhrələnən, onlara nəzirə yazan sənətkarlarla çox qarşılaşırıq. Əsasən də klassiklərdən bəhrələnən yazarlar daha çox elə məhz klassik tərzdə - əruz vəznində yazmağa üstünlük verir. Elşad Səfərli yaradıcılığında isə biz tamamilə fərqli ab–hava müşahidə edirik. Belə ki, o klassiklərdən bəhrələnərək müasir formada, müasir tərzdə yazmağı bacarır. Təbii ki, bu çətin olduğu qədər də məsuliyyətli işdir. Onun Məhəmməd Füzulinin "Söz" qəzəlindən bəhrələnərək yazdığı "Allaha şərik söz" şeiri buna nümunə ola bilər. Klassik tərzdə, əruz vəznində yazılmış bir nümunədən bəhrələnərək sərbəst formada şeir yaratmaq demək olar ki, ədəbiyyatımızda qarşılaşmadığımız məqamlardan biridir:

*... "Yoxdan var etmək" sirrini verib,*
*Allah sözü özünə şərik qoşdu,* -
*Çünki bilirdi nədi söz.*
*"Yoxdan var edəndi " söz-*

*Allahla bir mərtəbədi söz* [179, s. 67].

Həmçinin Elşad Səfərinin söz haqqında eyni fəlsəfi yönlü fikirlərini Nizami Gəncəvinin misralarından bəhrələnərək yazdığı digər bir şeirində də müşahidə edə bilirik:

*Sözü genişliyə çapdı Nizami:*
*- "Gərək söz meydanı gen olsun müdam".*
*Sözün meydanını gen istədi ki,*
*"Atını dördnala səyirtsin ilham"* [179, s.97]

Elşad Səfərli bərli–bəzəkli sözləri sevmir. Onun üçün əsas olan sözün daşıdığı mənadır. Bəlkə elə buna görə o, istənilən məzmuna forma axtarmaq dərdində deyil. O, oxucusuna çatdırmaq istədiyi fikri əruzun qəliz qəliblərinə salaraq, oxucusuna aydın olmayan ibarələrdən istifadə edərək çatdırmır. Özünün də dediyi kimi: *"Bəziləri sözə süni bəzək verməyi, ibarəçiliyi obrazlılıq kimi başa düşür. Füzulinin "Əsl məsələ mənadadır, kəlmələri bəzəmək deyil" deyimini isə unudur"* [179, s.162]. Ədəbiyyatşünas şair bu fikirlərində tamamilə haqlıdır. Həqiqətən də, bərli-bəzəkli, mənası aydın olmayan sözlər poeziyaya ağırlıq gətirir. Elşad Səfərlinin dili isə oxucusunun başa düşdüyü tərzdədir. Elə buna görə də o öz sözü ilə oxucu qəlbinə yol tapmağı bacarır:

*Əslində sözdə məna,*
*Apaydındır - bunu bil.*
*Sözə giriş, izahat,*
*Dibaçə lazım deyil.*
*Bir yol deyilən fikir*
*Dübarə lazım deyil.*
*Bir sözlə aydın danış,*
*İbarə lazım deyil* [179, s.162].

Elşad Səfərli təkcə ibarəbaz sözləri deyil, həmçinin tərifləri də qəbul edə bilmir. O, yeri gələndə şeirlərində istedadsız insanların yerli-yersiz tərifinə qarşı gəlir. Hətta bəzən buna görə özünü də qınayaraq deyir: "*Bəzən belə şeirlər yazdığıma görə*

*özümü danlayıram. Çünki lovğanı tənqid edəndə özün də həmin lovğadan betər görünürsən. Lakin gözü kor, qulağı kar diletant tənqidçinin istedad sahiblərini görməməzliyə vurub, istedadsız adamlar haqqında qəzet –jurnal həcminə sığmayan əndazədən kənar tariflərini görəndə tariflənənə və tarifləyənə yerini qandırmaq zorunda qalırsan, belə şeirlər yazmağa haqlı olaraq məcbur olursan...”* [179,s. 95]. Hətta şair heç bir istedadı olmayan şairləri yerli-yersiz tərif etməyə çalışan tənqidçilərə dolayısıyla rüşvətxor damğası vurur:

*Cənubdan gələn*
*Balıq payına,*
*Lənkəran çayına,*
*Aldığının nisyəsinə,*
*Müftəsinə*
*Tərif yazan tənqidçi var,-*
*Əslində tərifçi var* [180, s.83].

Ümumiyyətlə, Elşad Səfərlinin yaradıcılığına nəzər saldığımız zaman öz işini peşəkarcasına görməyi bacarmayan tənqidçilərin tənqid hədəfinə tuş gəldiyinin şahidi oluruq. Hətta şair dolayısıyla şeirlərində belə “ikiüzlü” tənqidçilərə ehtiyacı olmadığını da vurğulayır. Xüsusən də “Mənim Belinskim” şeirində bunu asanıqla müşahidə etmək mümkündü:

*Puşkini tanıdan Belinski oldu,*
*Bu bir həqiqətdir- bilməyən kimdir?*
*Mənim Belinskiyə ehtiyacım yox,*
*Mənim Belinskim –öz şeirimdir* [180, s.60].

Şahin Fazil Elşad Səfərli haqqında yazır: *“Mənim diqqətimi ilk növbədə Elşada xas olan mövzu müxtəlifliyi cəlb edir. O, hansı şeirini yazır-yazsın ürəkdən yazır. Ürəyi ağrıya-ağrıya ağrıdan yazır, ulduz yağışından yazır, kəsilən ağaclardan yazır, divar saatından yazır, ağ qoçdan, qara qoçdan yazır, edam kötüyündən yazır, günbatana doğru uçan quşlardan yazır, üçrəngli bayraqdan yazır, quzuyla otlayan qurddan yazır...”* [187, s. 228] başqa bir yazısında isə davam edir: *“Şair Eşad Səfərli*

*şeir yazmaqdan ötrü bəzi şaircığazlar kimi gecə-gündüz rədif-qafiyə axtarışına düşmür, mövzu tapmaqdan ötrü onun-bunun kitabını ələk-vələk etmir, söz oğurluğuna girişmir. Qısaca desək, Elşad mövzunu yox, mövzu Elşadı tapır. "Qısaboylu armud kolundan bitən cır armud" da, "Yorğan sırıyan qadının yörğan-döşəyə yun yerinə pambıq sırıması da, "Modernist şeir oğruları" da, "Ağlayan timsaha oxşayan balta" da, "Vəzifə daşı olub başa dəyən" əlhəd daşı da, "Ələ baxan tulalar" da "Baramadan çıxan kəpənək" də Elşadın mövzu obyektləridir"* [191]. Elşad Səfərlinin yaradıcılığını tədqiq edərkən həqiqətən də, mövzu rəngarəngliyi, maraqlı məqamlar diqqət çəkir. "Cır armud" şeirində cır armudun diqqət çəkdiyi kimi:

*İstidən qaçanda, həyatimizdə*
*Bir armud ağacı dadıma yetib.*
*Qızmar bir yay çağı kölgəsi altda,*
*Gördüm ki, nə qədər cır armud bitib* [187, s.76].

Əslində şairin bu tipi şeirlərində gizlənən əsl məna son bəndə daha çox qabarıq formada açılır. İlk bəndlərdə oxucuda cır armudun vəsf olunduğu təəssüratı yaradan bu tipli şeirlərin sonluğunda əslində tənqid dayandığının şahidi oluruq:

*Bugünkü sənətə cır məhsul qatan*
*Şairlər bilirəm duyar fikrimi:*
*Bu gün şeirimizin kölgə altda,*
*Beləlari bitib cır armud kimi* [187, s.60].

Elşad Səfərli həm də incə ruhlu məhəbbət şairidir. Onun tənqidi şeirlərinin dili kəskin olduğu kimi məhəbbət lirikası əksinə, olduqca yumşaq və ürəyə yatımlıdır. Yaradıcılığının müəyyən bir qismini məhəbbət lirikası təşkil edən şairin sevgi şeirləri bəzən uğursuz, nakam məhəbbəti tərənnüm etdiyi halda bəzən də, uğurlu, nikbin, vüsala yetən sevgini təsvir edir. Məsələn, Elşad Səfərlinin "Unut məni" şeirinə nəzər salaq:

*Unut məni, elə bil ki, yoxam mən,*
*Çətin bir də qabağına çıxam mən.*

*O qədər qəm udmuşam ki, - toxam mən,*
*Daha sənli qəmim mənə sərf etməz* [179, s. 164].

Şairin bu şeirində sevgidən küskünlük, nakamlıq sezilir. Qəm-kədər motivli bu sevgi şeirində saxta, qəlp məhəbbət birbaşa ifşa olunduğu halda "Səni sevdiyimi yaxşı bilirsən" şeirində sevgiyə olan sonsuz inam hissi, sədaqət hissi tərənnüm olunub:

*Yoxdur yanında elə bir sirrim,*
*Sirrimi bilənə mən nə sirr verim?*
*Gəl, sənə ömrümü mən nəzir verim,*
*Səni sevdiyimi yaxşı bilirsən* [187, s.141]

Onun məhəbbət motivli şeirlərinə nəzər saldığımız zaman görürük ki, həqiqətən də *"Elşad Səfərlinin lirikasına məhəbbət sızıltı ilə yoldaşlıq etmir, amma hicran – ayrılıq - tənhalıq leytmotivinə çevrilir. "Unut məni", "Qış soyuqluğu", "Harasa getmisən", "Səni sevdiyimi yaxşı bilirsən" şeirləri sakit, ümidli bir şairin poetik yarpaqlarıdır: yaşılı da var, sarısı da, amma bu yarpaqlar hansısa fəsildə ömürlərini yaşamışlar"* [34, s.117]. Onu da qeyd etmək, lazımdır ki, şairin lirik yaradıcılığında məhəbbət motivləri onun sonet yaradıcılığında da, xokku yaradıcılığında da, sərbəst və heca vəznli şeirlərində də aparıcı mövzulardan biridir. Bəzən iri həcmli janrların əsas mövzusu olan məhəbbət, onun xokku yaradıcılığında on yeddi hecaya sığaraq böyük bir məna ifadə edir:

*Tək səni sevməkdə*
*İsrarlıyam.*
*Məcnundan fərqim nədir?* [179, s.156]

Elşad Səfərli həm də keçmiş ədəbi ənənələri müasir dona salmağı bacarır. Buna xüsusilə onun "Alması düşməyən nağıllar" kitabında şahid olmaq olur. Məlumdur ki, klassik divanlarda şair sözə Allahın tərifi ilə başlayır. Eşad Səfərli də bu ənənəni özünəməxsus tərzdə davam etdirir. Belə ki, şair bu kitabında sözə "Ya İlahi, ya Məhəmməd, ya Əli" şeiri ilə başlayır. Şairin bu kitabını sözün əsl mənasında "müasir divan" adlandırmaq olar:

*Bir işə başlayan kimi, dilimdə*
*Səslənib: Allah, Məhəmməd, ya Əli.*
*İlahinin, Məhəmmədin, Əlinin,*
*Bir gün yetər bizlərə kömək əli* [179,s.17].

Araşdırmalar zamanı Elşad Səfərlinin yaradıcılığında balladalarla da qarşılaşırıq. Tədqiqatçı alim Nizaməddin Şəmsizadənin araşdırmalarından məlumdur ki, *"lüğəti mənası "rəqs etmək olan" ballada Avropa mənşəli qədim janrlardandır. Orta əsrlərdə Fransada rəqslə ifadə olunan nəğmə kimi yaranmış "İtaliyada Dante və Petrarkanın poeziyasında yeni keyfiyyətlər alıb rəqs xüsusiyyətlərini itirmişdir". Balladanı sentimentalizm və romantizmin janrı hesab etmək olar"* [196, s.208]. Lənkəran ədəbi mühitində ballada janrına təkcə Elşad Səfərlinin yaradıcılığında qarşılaşırıq. Onun balladaları da digər şeirləri kimi mövzu baxımından əlvandır. Məsələn, "Sol əlin balladası" nda:

*...Kasıbın tikəyə həsrətli vaxtı,*
*Kiminsə sandığı bac-xəraclıdı.*
*Deyirəm bu dünya düzəlsin deyə,*
*Yüngülcə sol ələ ehtiyaclıdı* [184, s.108].

- sol ələ özünəməxsus tərzdə tarixçə yaradan şair "Gərmətük balladası" nda isə öz doğma kəndinin bütün gözəlliklərini vəsf edir:

*Elə ki, yaz qışın dizin qatlayır,*
*Tumurcuqlar qönçəsindən çatlayır.*
*Daş-qayanda nərgizlərin çırtlayar,*
*Torpağında pöhrələyər lap kötük,*
*Gərmətük* [180, s.125].

Şairin bəzi balladaları nağılvari xarakter daşıyır. "Yorğan sırıyan qadın və tənqidçi haqqında ballada" buna bariz nümunə ola bilər. Belə ki, balladanın ilk bəndlərindən:

*Qonşuda bir yorğan sırıyan vardı,*
*İşi düşən üçün kara gələrdi.*

*Elə mahir idi yun sırımaqda,*

*Görənlər bəlkə də həsəd çəkərdi* [180, s.125].

- oxucunun gözündə yorğan sırıyan qadının həyatı canlanır. Ballada oxucuda qadının başına gələcək hadisələrin davamı kimi təəssürat oyatsa da, sonluqda ədib yalan danışan tənqidçiləri hədəfə alır:

*Yalan qatanda sən şerə, tənqidçi,*

*Belədə gözümdən tez adın düşür;*

*Yadıma yorğana yun əvəzinə,*

*Pambığı sırıyan o qadın düşür ...* [180, s.126]

Elşad Səfərlinin sonu bu cür gözlənilməz sonluqla bitən şeirləri çoxdur. Hətta şair bu tip şeirlərini bilərəkdən novella adlandırır. Məlumdur ki, novella sonu gözlənilməz sonluqla bitən hekayədir. Əslində şairin nəzmlə yazılan bir nümunəyə bu tip yanaşması da yenidir. Onun bu tip şeirlərində oxucu sonluğun fərqli bitdiyinin şahidi olur. Şairin "Uğursuz eşq novellası" adlandırdığı şeirində olduğu kimi:

*Kibrit çəkdin elə bil,*

*Məni alışdırdın bu sevgiyə.*

*Yanğısı çox olsa da,*

*Məni alışdırdın bu sevgiyə* [179, s.174].

İlk başdan oxucuda sevgilisinə sitəm edən aşiq obrazı göz önündə canlansa da, sonuncu bənddə mövzunun əsas obrazlarının şam və onun başında dolanan pərvanə olduğu aydın olur:

*... Şamın ürəyi yanıb-yanıb*

*Şamın əriyən qatına düşdü.*

*Pərvanənin şama qarışan başı,*

*O eşqin ayaq altına düşdü* [179, s.175].

Elşad Səfərli yaradıcılığı təkcə lirik şeirlərlə yekunlaşmır. O, poema janrı ilə də qələmini sınamışdır. Onun "Əlvida, kirli Rusiya", "Vadim" [180], "Astiaq", "Görkəmli şair, yaxud Sviftin "Çəllək"ləri" [179], "Böyük qardaş" [187, s.203] kimi

poemaları buna bariz nümunədir. Lirik şeirlərində olduğu kimi Elşad Səfərli poemalarında da yeniliyə can atır. Poemalarındakı yenilik forma baxımından deyil daha çox obraz baxımından diqqət çəkir. Onun həyatdan vaxtsız köçən qardaşına ithafən yazdığı "Böyük qardaş" poemasında yaratdığı bayquş mistik obrazı buna misal ola bilər. Allahverdi Eminov bu haqda yazır: *"şeirimizdə ilk dəfədir Bayquş mistik obrazı yaradılmışdır. O, şairlə hər gecə söhbətə gəlir, baxmayaraq verəcəyi bəd xəbərdir, amma bu quş yalnız şairin görüşünə gəlmişdir. Elşad məhz bu obrazla ilahi ilə şairlərin ruhi yaxınlığına işarə vurmuşdur. Evdə yalnız o, bu səsi eşidir, halbuki ucadan "danışır". "Bir gecə yenə Bayquşun səsinə oyandım. Səsi həyəti götürmüşdü. Çoxdan gözlədiyim adamı görürmüş kimi sevincək pəncərənin qabağına gəldim. Səsini kəsdi...". Diqqət yetirsək, Bayquş şəxsləşir, subyekt rolunu oynayır. Qara xəbəri çatdırmaq üçün gecələr gəlir ki, ətraf bilib pərişan olmasınlar. Gecənin bəyazlığına ah-nalə, nisgil əhvalı qatmasın. Axı bayquşlar, adətən gündüzlər gözə dəyirlər. Elşad Bayquşla simvolik görüşündə fəhmə, intuisiyaya da işarə vurur. Bu, "ürəyədamma" dır, qürbətdə xəstə olan böyük qardaşın başına dolanan ölüm kabusudur"* [34,s. 97]. Düzdür, el içində tez-tez eşitdiyimiz *"Bayquş xarabalıq sevər", Bayquş xarabalığı gülüstana çevirməz"* [9, s.52] və s. kimi atalar sözləri bayquşun heç də xeyir xəbər gətirəcəyinə işarə vurmur. Biz bayquşun bu xislətini Nizami Gəncəvinin ilk iri həcmli əsəri olan "Sirlər Xəzinəsi" ndə [65] "Nuşirəvanla vəziri və bayquşların söhbəti" məqalətindən də müşahidə edirik. Lakin obraz olaraq bayquşun şəxslədirilərək mistik don geyindiyini və insanla bu formada danışmağa cəhd göstərdiyini yalnız "Böyük qardaş" poemasında görürük. Poemada şair bayquşa xitabən, ona təlatüm dolu sual verərək, ondan cavab gözləyirmiş kimi deyir:

*Gecəyarı ... ulayırsan,*
*Yenə nə xəbərdi, bayquş?*
*Ürcah edib, qapımıza*
*Səni kim göndərdi, bayquş?* [187, s.215]

Elşad Səfərlinin maraq doğuran poemaları içərisində "Əlvida, kirli Rusiya " da

özünə xüsusi yer tutur. Poemanın ana xəttini Böyük rus şairi Lermantovun dövründə baş verən siyasi-sosial hadisələr, kübar cəmiyyətin aurası təşkil edir. Poemada Lermantovun həbsi, duel faciəsi poetiki ustalıqla qələmə alınıb. Həmçinin poemada Lermantovun Qafqaz günləri də xüsusi olaraq tərənnümünü tapmışdır. Onu da qeyd etmək lazımdır ki, poemada şairin xitabı daha da orijinal səslənir və bu demək olar ki, həm məqam, həm də poetik səciyyə baxımından yenilikdir:

*Çalışdım ki, sözü əziz olanın,*
*Hamı əziz tutsun xətrini də.*
*Kimsə Lermantovdan danışsa, yəqin*
*Xatırlayar Elşad Səfərlini də* [180, s. 257].

Allahverdi Eminov Elşad Səfərlinin poemaları haqqında daha konkret olaraq deyir: *"Elşad Səfərlinin poemaları poetik istedadın yaradıcılıq közərtisindən alova çevrilən oddur-atəşdir; bu sonuncu sözü xoş gəlişi demirəm: poemaların leytmotivində işıqla kölgənin harmoniyası duyulur, çünki bir yandan insan dünyadan köçür. O yandan dünyaya səsiylə gəlir, hər ikisi ölümdür. Fərq ondadır – hər iki madiyyatda ruh yaşayır"* [180, s.10].

Şair özü ilə polemikasında isə öz yaradıcılığını belə dəyərləndirərək deyir: *"Böyük ədəbiyyat üçün bir sətrim qalıb-qalmayacağı haqda düşünmürəm. Bu zaman işidir... şeirlərim quş kimi qanadlanıb yüzlərlə diyarda, neçə-neçə dodaqda, ürəkdə yuvalansın, uçub qonduqları yerlərdə, keçdikləri yollarda təki adımı və imzamı itirməsin"* [179, s.15].

Aparılan araşdırmalar zamanı şahid oluruq ki, Elşad Səfərli yaradıcılığı istər mövzuca, istərsə də formaca olduqca zəngindir. Onun yaradıcılığı bir çox aspektlərdən - istər sonetləri, istər xokku, istər poema, istər sərbəst və heca vəznli şeirləri ayrı-ayrılıqda tədqiq oluna bilər.

Lənkəran ədəbi mühitinin özünəməxsus cəhətlərindən biri də Avropa ədəbiyyatının ən geniş yayılmış sonet janrından bəhrələnərək maraqlı nümunələri ilə seçilməsidir. Diqqət çəkən məqamlardan bir odur ki, bölgədə yazıb-yaradan ədiblərin demək olar ki, əksəriyyətinin yaradıcılığında sonet janrında yazılan

nümunələrlə qarşılaşırıq. Sonet janrı bölgənin bir növ vizit kartına çevrilib.

Sonet haqqında danışarkən ilk növbədə onun nəzəri xüsusiyyətlərini diqqətə çatdırmaq lazımdır. Belə ki, *"sonetin klassik (İtaliya) növü 4 hissəyə bölünür. Birinci və ikinci hissələrin hərəsi 4 misra (katren), üçüncü və dördüncü hissələrin isə hərəsi 3 misradan (terset) ibarət olur. Beləliklə, sonet zahiri quruluşu etibarı ilə iki katren (buna "baş" da deyilir) və iki terset (buna "ayaq" və ya "quyruq" da deyilir ) əsasında qurulmuş şeir formasıdır "* [63, s.4].

*"Sonet janrının XIV əsrin əvvəllərində İtaliyada yarandığı Azərbaycan oxucusuna yaxşı məlumdur. Sonralar bu janr bütün Qərbi Avropa ölkələrinə yayılmışdır. Sonet janrına qədər Avropa ölkələrində iri həcmli ballada janrı geniş yayılmışdır. Cəmi on dörd misralıq poetik nümunə olan sonetin bu və ya digər fikrə çevik münasibəti şairləri özünə cəlb edirdi ki, V.Şekspir də həmin cazibədən kənarda qala bilməmişdir"* [192, s.4]. *"Bir sıra araşdırmalara əsasən, Azərbaycan poeziyasında sonet janrına müraciət edən ilk şairimiz Mikayıl Müşfiq olmuşdur. O, 1928-37-ci illər arasında 12 sonet yazmışdır. Beləliklə, sonet janrının milli ədəbiyyatımıza gəlişi təxminən üç yüz əlli iki illik vaxt aparmışdır. Nisbətən sonralar yaşamış şair Əliağa Kürçaylının da qələmindən üç sonet çıxmışdır. Lakin nə M.Müşfiq, nə də Ə.Kürçaylı öz qələm məhsullarını sonet adlandırmamışlar"* [192,s.5].

*"Sonet janrının respublikamızda xüsusi cazibəsi keçən əsrin 50-ci illərinin ortalarından başlayır. 1955- ci ildə V.Şeksprin sonetləri tanınmış şair və mütərcim Tələt Əyyubovun tərcüməsində çapdan çıxmışdır. Ümumiyyətlə, Şekspir irsinin oxucularımıza çatdırılmasında T.Əyyubovun xidmətləri danılmazdır. Həmin sonetlər 1962-ci ildə təkrar çap ediləndən sonra şair Adil Babayev ardıcıl olaraq öz sonetlərini dərc etdirməyə başlamışdı"* [192, s.6] Lakin bütövlükdə Azərbaycan ədəbiyyatında onun çox az nümunələri ilə qarşılarışırıq.

Araşdırmalar zamanı aydın olur ki, sonet bir janr kimi Lənkəran ədəbi mühitində təkcə müstəqillik dövründə deyil, ondan əvvəlki dönəmlərdə də öz aktuallığı ilə seçilən janrlarıdan biri olmuşdur. Belə ki, bölgə ədəbi mühitində onun

ilk nümunələrinə Vaqif Hüseynovun və Şəkər Aslanın yaradıcılığında qarşılaşırıq. Onların yaradıcılığında qarşılaşdığımız sonet janrı daha çox mövzu baxımından təbiət və məhəbbət motivlərini ehtiva etdiyindən diqqət çəkir. Belə ki, araşdırmalar zamanı müstəqillik dövründən öncə ilk olaraq Şəkər Aslanın yaradıcılığında sonetlər çələngi ilə qarşılaşırıq. Onun "Azərbaycan" adlı 15 hissədən ibarət sonetlər çələngi doğma vətənin təbiət gözəlliklərini, "Ömrün yayında" [193] adlı 15 hissədən ibarət olan sonetlər çələngi isə məhəbbət motivlərini ehtiva edir:

*Bu yerdə nə qədər güllər bitəcək,*
*Söz açar gül kimi işlərimizdən.*
*Güllü bağçalarda qızlar itəcək,*
*Keçərək ən təzə cığırdan, izdən* [54, s.98]

Eləcə də Vaqif Hüseynovun yaradıcılığında Şəkər Aslana ifhafən yazdığı "Lənkəran" adlı 15 hissədən ibarət sonetlər çələngi Lənkəranın təbiət təsvirlərinə həsr olunmuşdur.

*Yaşa, al bayraqlı şəhərim, yaşa!*
*Yaşa Lənkəranım, yaşa Vətənim!*
*Sənin büsatından gərək danışa,*
*Gərək söhbət aça hər misram mənim* [82, s.105].

Vaqif Hüseynovun oğluna ithaf etdiyi "İnsan" [82, s.60] sonetlər çələngi isə nəsihətnamə xarakteri daşıyır. Belə ki, "İnsan" sonetlər çələngində XX əsr insanının duyğu və düşüncələri, əsrin həyəcanları və bu həyəcanlar içərisində yaşayan bir şairin öz oğluna yazdığı vəsiyyətnamə xarakteri daşıyır:

*Başın günəşdədir, gücün torpaqda,*
*Sabahın həqiqət, keçmişin nağıl,*
*Oğluma danışdım, hünərin haqda,*
*-Sən də hünərli ol, - dedim, - ay oğul* [82, s. 66].

Bundan başqa ədibin yaradıcılığında məhəbbət motivlərini özündə ehtiva edən "Məhəbbət əyləncə deyil" [84, s.297] adlı sonetlər çələngi də diqqət çəkir. Şairin ülvi

məhəbbət, saf sevgi haqqında olan düşüncələri bu çələngdə özünəməxsus inikasını tapmışdır.

Azərbaycan ədəbiyyatında sonetlər çələnginin yaranması da məhz Lənkəran ədəbi mühiti ilə bağlıdır. Şəkər Aslan və Vaqif Hüseynovun yaratdıqları sonetlər çələngi məhz ədəbiyyatımızda yeni bir poetik hadisədir. Tədqiqatçı alim Elşad Səfərli də öz araşdırımalarında qeyd edir *"... sonetlər çələngi janr xüsusiyyətlərinə görə daha mürəkkəb struktura, daha mürəkkəb poetik kanonlara, gözlənilməsi mütləq və vacib olan prinsiplərə malikdir. Ayrı-ayrı müstəqil sonetlər yazmadan, təkmilləşmədən, müəyyən qədər təcrübə toplamadan, janrın ilkin, sadə növlərində heç bir nümunəyə malik olmadan, sonet nəzəriyyəsindən, poetikasından bixəbər ola-ola belə bir mürəkkəb, ciddi sahədə qələm sınamaq böyük bir poetik hünərin, cəsarətin göstəricisi deyilmi?"* [186, s.248] Birbaşa sonetlər çələngi yazmaq hünər və eyni zamanda ədəbiyyatımız üçün yenilik olsa da, araşdırmalar zamanı istər Vaqif Hüseynovun, istərsə də Şəkər Aslanın sonetlər çələngində nəzəri cəhətdən bir çox çatışmayan cəhətlərlə də qarşılaşırıq. Bunun əsas səbəblərindən biri kimi XX əsrin sonlarında qədər sonetin nəzəri xüsusiyyətləri, strukturu haqqında ədəbiyyatımızda geniş məlumatın olmaması ilə əlaqələndirmək olar. Nəzəri çatışmazlıqlara baxmayaraq Seyfulla Əsədullayev öz tədqiqatlarında yazır: "*Şəkər Aslan Azərbaycan poeziyasında sonetlər çələngi janrının ilk yaradıcısıdır, onun pioneri, novatorudur. İlk poetik nailiyyətlərlə yanaşı müəyyən çatışmazlığın olması təbiidir*" [63, s.53].

Lakin müstəqillik dövrü Lənkəran ədəbi mühitində yaranan sonetlərdə sonet janrının özünəməxsus bütün incəlikləri qorunub saxlanılmaqdadır.

Müstəqillik illərində Əli Nasirin yaradıcılığında da kifayət qədər sonet janrında yazılmış nümunələrə rast gəlirik. Hətta şair sonetə "Sonet bir kəkliyin son qəhqəhəsi, Bir körpə bülbülün ilk cəh-cəh səsi" deyərək çox gözəl təşbeh yaratmışdır. Onun "Çinar və salxım söyüd" [52, s.285] başlıqlı soneti klassik sonet tərzində yazılsa da şair sonetlər çələngində fərqli sonet formasından istifadə etmişdir. Əli Nasirin "Yağış altda duran dəli" [52, s.286] adlı mini çələngi buna misal ola bilər. Bundan başqa

şairin “Güllələnən gülüşlər”, “Vida nəğməsi” [52] adlı klassik sonet tərzində yazılmış sonetlər çələngi də vardır.

Lənkəran ədəbi mühitində Mirhaşım Talışlının yaradıcılığında sonetlər çələnginin əruz vəznində yazılmış forması ilə də qarşılaşırıq. Ədibin Həcc ziyarətində olduğu zaman 14-lükdə yazdığı və “Minacat” adını verdiyi sonetlər çələngi əruz vəzninin həcəz bəhrində yazılmışdır və bu yenilik ədəbiyyatımız üçün novatorluq hesab olunmalıdır. Əslində qafiyə quruluşu qəzəllə eyni olan qəsidənin janr formalarında biri olan minacatı Mirhaşım Talışlı sonet qafiyə sisteminə uyğun olaraq yaratmışdır. Tədqiqatçı Seyfulla Əsədullayev öz araşdırmalarında bu haqda yazır: *“Zahiri forması və qafiyə sistemi cəhətdən, əlbəttə, bu novatorluqdur. Şair Azərbaycan poeziyasına yeni bir janr formasını gətirmişdir. Bu eksperiment səviyyəsində olsa da, yenilikdir”* [63, s.550.] Mirhaşım Talışlı ziyarətdə olduğu zaman yazdığı “Minacat” adlı sonetlər çələngini onun Azərbaycan poeziyasında ilk yaradıcıları olan Şəkər Aslana və Vaqif Hüseynova ithaf edib. O, bu ithafın səbəbini belə izah edir: “*Bu yerdə düşündüm, əgər rəhmətlik Şəkər Aslan və Vaqif Hüseynov bu 250 nəfər zəvvarla Məkkə şəhərində olsaydılar, yəqin ki, heca ölçüsündə çox maraqlı şeirlər yazardılar. Mən onlara Allah rəhmət eləsin, deyib ruhlarına fatihə oxudum. Son vaxtlar onların xoşladığı qədim italyan şeir forması olan, sonralar ingilis ədəbiyyatında Şekspir, rus ədəbiyyatında Puşkin tərəfindən dəbə düşmüş sonet (Bu forma Azərbaycanda Adil Babayevin xoşladığı, Şəkər Aslanın isə ilk dəfə sonetlər çələngi kimi işətdiyi şeir üsubu olmuşdur) formasında yazardılar. Mən də onların ruhu şad olsun, deyə sonetlər çələngi üslubunda, lakin əruz ölçülü mənzuməni qələmə aldım”* [204, IIc., s.154].

“Minacat” sonetlər çələnginin mövzusu da diqqət çəkicidir. Əsasən dini motivləri özündə ehtiva edən çələngdə şair xalqımızın Qarabağ dərdini də ön plana çəkir:

*Yağdıqca fələkdən nə qədər fitnəli daşlar,*
*Dəydi Laçına, Şuşanı sındırdı, dağıtdı.*
*Axdı gözümüzdən yenə də qan dolu yaşlar,*

*Xalqın yenə ahı ucalıb göylərə çatdı* [204, IIc., s.160].

Sonet janrı Azərbaycan ədəbiyyatında öz yaşamını bir çox yeniliklərlə məhz Lənkəran ədəbi mühiti sahəsində tapmışdır. Burada istər Şəkər Aslan və Vaqif Hüseynovun yaratdığı sonetlər çələngi, istərsə də Mirhaşım Talışlının əruz vəznində yaratdığı sonetlər çələngi buna bariz nümunədir. Lakin müstəqillik dövrü Lənkəran ədəbi mühitində sonet janrının ən mükəmməl formalarına Elşad Səfərlinin yaradıcılığında qarşılaşırıq. O, sonet janrının ədəbiyyatımızda bu günə qədər işlənməmiş 15-ə yaxın formasını gətirmişdir. Şairin sonetləri bölgədə qələmini bu sahədə sınayanlardan fərqli olaraq öz professionallığı ilə seçilir. Ədibin sonet janrını mükəmməl bilməsi və eyni zamanda bu janrın tədqiqi ilə məşğul olması onun poetik uğurlarından biridir. Belə ki, *"sonet təkcə italyan və ingilis tipli şeir şəkli və sonetlər çələngi kimi poetik forma ilə bitmir. Sonrakı inkişaf mərhələsində daxili arxitektonikasında, strofik bənd və qafiyə quruluşunda, həmçinin katren və tersetlərin mətndə ənənəvi düzülüş mövqelərindən fərqli mövqe qazanmaları, yəni onların düzülmə ardıcıllığının pozulması, mətnə əlavə katren, tersetərin daxil edilməsi, yaxud əksinə, katren və tersetlərdən birinin mətndən götürülməsi və s. digər xüsusiyyətlər nəticəsində sonet janrı müəyyən dəyişikliklərə məruz qalmışdır. Buraya janra yeniliklər baxımından müəyyən poetik cəhətlərin daxil edilməsini də əlavə etmək mümkündür. Nəticədə, janra edilən dəyişikliklərə görə sonetin yeni növləri, yaxud şəkilləri meydana gəlmişdir*" [186, s.314]. Biz bu şəkillərin əksəriyyətini Elşad Səfərinin sonet yaradıcılığında müşahidə edə bilirik.

Onun sonet yaradıcılığında Şekspir ab-havası da bir qədər duyulmaqdadır Hətta ədib akrostix sonetlərinin birini məhz dahi söz ustadına həsr etmişdir. Qeyd etmək lazımdır ki, akrostix sonet baş hərflərinin yuxarıdan aşağıya doğru oxunması ilə müəyyən bir sözün alınması nəticəsində meydana çıxır:

***V****əsf etdin gözəlliyi hurilər surətində,*
***İ****lham aldın könlünün yaratmaq arzusuyla.*
***L****ətif, qəlbinin ədalət duyğusuyla,*
***Y****alnız haqqa tapındı şairlik qüdrətin də.*

*__A__çıldı sirr qatları sənin həqiqətində,*
*__M__ətləblər üzə çıxdı öz ülvi mənasıyla.*
*__Ş__aqraq nəğmələrində intibah ziyasıyla,*
*__E__cazkar sehrə döndü min dürlü hikmətin də.*

*__K__öləliyə, kütlüyə daim meydan oxudun*
*__S__evgini yüksəkliyə qaldırıb hər sətrində,*
*__P__etrarkatək sonetin qalxıb fövqündə oldun.*

*__İ__draka çağırışdır yazdıqların büsbütün,*
*__R__uhunu yaşatmaqla mahir söz sənətində,*
*__Ə__bədilik qazandın bütün zamanlar üçün* [184, s.47].

Sonetə yuxarıdan aşağıya doğru baxdığımız zaman Vilayam Şekspirin adı və soyadı yazıldığını görürük. Eşad Səfərlinin akrostik sonetləri içərisində Çeçenistanın azadlıq və müstəqillik mücahidi mərhum prezident "Cövhər Dudayevə" və Aslan Məshədova" [184] yazdığı sonetləri də vardır. Eyni zamanda ədibin B.Pastenaka və ədəbiyyatşünas alim Hüseyn Həşimliyə yazdığı kodalı akrostix sonet də ədəbiyyatımızda ilk dəfə olaraq istifadə olunmuşdur. Kodalı akrostik sonetdə mətnə 15-ci misra əlavə edilir:

*__H__əqiqətə söykənən, alim dost, alqış sənə!*
*__Ü__rəyinlə qaranlıq mətləblərə nur saçdın.*
*__S__onetin baş vuraraq açılmaz sirlərinə,*
*__E__cazkar bir sənətin Qordi düyünün açdın.*

*__Y__ox, elmin cəfaları yük olmadı sinənə,*
*__N__ə də bezib, bu yolun çətinliyindən qaçdın.*
*__H__aqq odunu qoymadın qəlbində bitib sönə,*
*__Ə__dalət olan yerdə daim səsləndi adın.*

*Şərəfin uca tutdun sözün başdan – binədən,*
*İdrakın qiymətlidir ləl dolu xəzinədən,*
*Millətə xidmətindir sənin dövlətin, varın.*

*Ləyaqət adamları olmurlar ki, nəf gündən,*
*İstedad sahibləri xeyir ummaz heç nədən,*
*Ya da şöhrətçün deyil, yazıb- yaratdıqların.*

*Ən yüksək təriflərdən üstündür yazdıqların* [184, s.53].

Elşad Səfərlinin yaradıcılığında miniatür sonetlərə də rast gəlirik. Bu tip soneti yaratmaq şairdən böyük ustalıq tələb edir. Çünki monostix yaxud broxokolon adı verilən bu tip sonetlər 14 sətirdən və hər sətri 1 hecadan ibarət olur. 1 heca ilə müəyyən bir fikri ifadə etmək əlbəttə ki, çox çətindir. Lakin Elşad Səfərli bu çətinliyin öhdəsindən asanlıqla gəlməyi bacarmışdır:

*Yar*
*Ol*
*Ey,*
*Hürr!* [184, s.37].

Göründüyü kimi 1 hecadan ibarət bəndə şair öz hislərini aydın formada ifadə etməyi bacarmışdır. Şair bəzən sonetin öz şəkillərini belə klassik şeir şəkilləri ilə sintez edir. Bunu onun məsnəvi formasında yazdığı sonetlərindən də görə bilirik. Çünki sonet janrının məsnəvi formasında qafiyələnmə sisteminə daha öncə heç bir yerdə qarşılamırıq. Bu da özü-özlüyündə həm Azərbaycan ədəbiyyatı üçün , həm də sonet janrının öz inkişaf tarixi baxımından bir yenilikdir:

*Saçına dən düşüb, alının qırışıb,*
*Üzündə cizgilər tamam qarışıb.*
*Gənclik deyilən şey qapından köçüb,*
*İllər də quş kimi üstündən uçub* [184, s.46].

Apardığımız araşdırmalar zamanı Elşad Səfərlinin yaradıcılığında 1 katren və 1 tersetdən ibarət olan yarımçıq sonetlərə də qarşılaşırıq:

*Çox da inciməsinlər qarabəniz xanımlar,-*
*Bəxtdən təsəlli üçün barı bir an olacaq.*
*Nə vaxt ki, verdiyini illər geri alacaq?*
*Tək əsmərüz qızların önündə aciz qalar.*

*Gözəllərin  hüsnünə iz salanda qırışlar,*
*Qarabəniz bir xanım dillənəcək həmin an:*
-*"Mənə nə vermişdi ki, nəyi də alsın zaman?!"* [184, s.70].

Yarımçıq sonetlərlə yanaşı Elşad Səfərlinin yaradıcılığında başsız sonetlərlə də qarşılaşırıq. Yarımçıq sonetlərdən fərqli olaraq başsız sonetlərdə 1 katren və 2 terset olur. İlk katren olmadığına görə sonet başsız sonet olaraq adandırılır. Bu tip sonetlərin əvvəlində 3 nöqtə  qoyulması ilk bəndin-katrenin buraxıldığına dəlalət edir:

*... Guya ki, - "nəğməsi çoxdan oxunub,*
*Yaramır bugünkü şerə-sənətə;*
*Atdığı oxları daşa toxunub" –*
*Deyib şər atan var hələ sonetə.*

*Vurduğu hədyanları qulaqardına,*
*Şaqraq söz eşqinə düşdüm ardına*
*Başda Petrarkalı söz ordusunun* [184, s.71].

Eyni zamanda ədibin yaradıcılığında çevrilmiş sonetlərlə də qarşılaşırıq. Adından da göründüyü kimi normal sonetlərdən fərqli olaraq çevrilmiş sonetlərdə əvvəl 2 terset, sonra isə 2 katren gəlir.  Elşad Səfərlinin yaradıcılığında sonet-verlibr da diqqət çəkir. Bu tip sonetlərin katren və tersetləri sərbəst  şeir şəklində yazılır. Aşağıdakı sonetin ilk katrenində olduğu kimi:

*"Tənqidçi, sonetə nifrət bəsləmə"!*

*O ki, bir bəzəkdir*
*Sözə-sənətə*
*Baş qatmaqdansa him-cimə*
*Qılınc çalmaqdansa kölgəmə,*
*Səs verəydin səsimə*
*Havadar çıxaydın barı, sonetə* [184, s.73].

Apardığımız araşdırmalar zamanı ədibin rəngarəng sonet yaradıcılığında axsaq sonetlə də qarşılaşırıq. Axsaq sonetdəki katrenlərdəki sonuncu yəni dördüncü misra əvvəlkilərdən ya uzun, ya da qısa olur. Elşad Səfərli axsaq sonetində katrenlərin sonuncu sətrini digərlərindən qısa formada yazmışdır:

*Hamı münəccimdi özü biləsi,*
*Hətta ətəyində namaz qılası.*
*Hanı bəs içində zülmü yenəsi*
*Bir hürr balası!* [184, s.75]

Ədibin sonet yaradıcılığında ikiqat sonet növündən də məharətlə istifadə etmişdir. Axsaq sonetdən fərqli olaraq ikiqat sonetdə katrenin hər tək misrasından, yaxud tersetin cəm misrasından sonra qısa sətir əlavə olunur. Məsələn, ikiqat sonetin katreni nəzərdən keçirək:

*Ürək bir kəpənək qanadı imiş,-*
*Zərif və incə.*
*Yaşamağa eşqlə həvəs tapdıqca,*
*Zamanla ağanı güc, səs tapdıqca, -*
*Nəfəs dərincə*
*Görürsən ki, həyat çək-çevirmiş* [184, s.78].

Göründüyü kimi katrenin birinci misrasından sonra bir qısa, iki və üçüncü misrasından sonra yenə bir qısa sonra isə dördüncü misra verilmişdir. İkiqat sonetin tersetləri də bu formada davam edir. Həmin ikiqat sonetin sonuncu tertesinə diqqət yetirək:

*Düz qırx il butamın dalınca getdim,*

*Yolları ağartdım... aldanıb itdim,-*
*Hər şey bir yana,*
*Yollarda bildim ki, məhəbbət nəymiş ...* [184, s.78].

Tersetdən də gördüyümüz kimi iki misradan sonra bir qısa misra ardınca isə üçüncü misra işlədilmişdir.

Elşad Səfərlinin yaradıcılığında birbaşa sonet növü ilə də qarşılaşırıq. Birbaşa sonet katren və tersetləri yalnız iki qafiyə üzərində qurulan sonet növüdür. Belə bir sonet yaratmaq ədibdən böyük ustalıq tələb edir. Elşad Səfərlinin birbaşa sonetində bu ustalığı görə bilirik:

*Feb yeni bir şeir yaratdı, - onda*
*"Qəfəs" kanonuna vermişdi zinət.*
*"Təzə nəfəs" ilə "dar məkanda ",*
*Dirildi, canlandı bir azda sənət* [184, s.76].

Göründüyü kimi sonetin ilk katreni onda, məkanda və zinət, sənət qafiyələri üzərində qurulmuşdur. Sonetin digər katren və tersetləri də məhz bu sözlərə qafiyə olaraq seçilmişdir. Aparılan araşdırma zamanı Elşad Səfərlinin sonet yaradıcılığında quyruqlu sonetlə də qarşılaşırıq. Quyruqlu sonet 2 katren, 3 bəzən də 4 tersetdən ibarət olan sonet növüdür. Ədəbiyyatımızda Elşad Səfərlinin 2 katren və 3 tersetdən ibarət olan növünə rast gəlirik.

Ədəbiyyatşünas alim Hüseyn Həşimli öz araşdırmalarında Elşad Səfərlinin sonetləri haqqında yazır: *"Çağdaş mərhələdə sonet yazanlar sırasında Lənkəranda yaşayan şair Elşad Səfərlinin də adı çəkilməlidir. Təqdirəlayiq haldır ki, o, həm ingilis, həm də italyan sonet formasında şeirlər qələmə alır. Elşad Səfərlinin şeirlərində diqqəti cəlb edən cəhət, hər şeydən öncə, şairin sonet janrının inkişaf yoluna, dünya eləcə də, Azərbaycan poeziyasında məşhur yaradıcılarının irsinə bələdliyi, yeri gəldikdə onlara uğurlu istinadıdır"* [78, s. 152].

Aparılan araşdırmalardan görürük ki, müstəqillik dövrü Lənkəran ədəbi mühitində sonetin ən çox növü məhz Elşad Səfərlinin yaradıcılığında öz əksini tapıb. Digər sonet yazan ədiblərdən fərqli olaraq Elşad Səfərinin sonetləri sonetin bütün

nəzəri tələblərinə cavab verir. Eyni zamanda onun sonetləri mövzu baxımından da Lənkəran ədəbi mühitində yazıb-yaradan digər ədiblərdən fərqlənir. Belə ki, digər yazarların sonetlərində ancaq təbiət və məhəbbət motivli sonetlərlə qarşılaşırıqsa, Elşad Səfərlinin sonetlərində mövzu əlvanlığı müşahidə edirik. Hətta ədəbiyyatşünas alim öz sonetlərində mütəmadi olaraq sonet janrının özünü belə vəsf edərək onu yüksək, təmtəraqlı zövq nümunəsi hesab edərək Azərbaycan şeirinə vurulan bəzək hesab edir:

*Mən forma xətirinə yazmadım qəti ...*
*Azəri şeirinin yaxasına bir*
*Bəzək zinətitək taxtım soneti* [184, s.59].

Onun sonetlərində sonet janrının təşəkkülündə böyük xidmətləri olan Şekspir, Dante, Petrarka kimi dühalarında adı çəkilir. Hətta şair onlardan ilham aldığını da öz sonetlərində vurğulamağı unutmur:

*Bu gün mənə ruh verir, ilhamıma güc verən,*
*Şekspir dühasından könlümə yatan sonet;-*
*Dantenin qələmində ilk tumları göyərən,*
*Petrarknın eşqində kamala çatan sonet* [184, s.30].

Elşad Səfərli öz sonetlərində Şekspir, Dante, Petrarka kimi dühaların fonunda sonetin Azərbaycanda formalaşmasında xidmətləri olan Adil Babayevin, ilk dəfə sonetlər çələngi yaradan həmyerliləri Şəkər Aslan, Vaqif Hüseynovun adlarını da çəkir:

*Adil Babayev, Şəkər Aslan, Vaqif Hüseynov,*
*Şeirinizdə siz tez-tez yer verdiniz sonetə.*
*Gördünüz könlünüzü qarsan o od, o alov,*
*Yeni rəng, yeni çalar verir, şeirə, sənətə* [184, s.26].

Sonetin bir çox növlərində qələmini sınayan Elşad Səfərli sonetlər çələngi də yaratmışdır. Maraqlı məqam ondan ibarətdir ki, Elşad Səfərli də Şəkər Aslan və Vaqif Hüseynov kimi ayrı-ayrılıqda sonet yazmadan öncə birbaşa sonetlər çələngi yaratmışdır. Lakin Elşad Səfərlinin sonetlər çələngi daha bitkin, daha dolğun və

sonetin bütün tələblərinə cavab verdiyi üçün daha sanballıdır. "Qisas himnləri" adlanan sonetlər çələnginə müəllif sonet-poema adını vermişdir. Çələngi oxuduğumuz zaman həqiqətən də, oxucuda poema təəssüratı oyanır. Çünki bütövlükdə Azərbaycanın başına gətirilən tarixi faciələr, Qarabağ dərdi bütün ağrı-acıları ilə çələngdə öz əksini tapmışdır. Şair bütün bu ağrılar fonunda xalqı artıq intiqam almağa çağırır. Bu baxımdan çələngin "Qisas himnləri" adlanması da olduqca təqdirə layiq və eyni zamanda poetikdir. Çələngə daxil olan sonuncu, 15-ci sonetdə bütün bu hislər daha qabarıq formada öz əksini tapmışdır. Xüsusilə sonuncu tersetlər bu baxımdan daha çox diqqət çəkir:

*Düşməni niyyətində zərbinlə peşman elə,*
*Öndə zəfər döyüşün qalıbdır düşmən ilə,*
*Sən dur, səfərbər elə bu arzuya hər kimi.*

*Şeirim səslənsin bu döyüşə cəngitək,*
*Öndəki qələbənə, qələbə çələngitək*
*Həsr etdim, Azərbaycan, sonetlər çələngimi!* [184, s.90]

Aparılan araşdırmalardan da göründüyü kimi sonet janrı Lənkəran ədəbi mühitində xüsusilə də müstəqillik dövründə öz yaşamının ən parlaq səhifələrini yazmışdır. Azərbaycan ədəbiyyatında ilk dəfə yaranan sonetlər çələngi, sonetin bu günə qədər ədəbiyyatımızda işlənməyən 15-ə yaxın növü məhz Lənkəran ədəbi mühitində yaradılmışdır. Həm öz klassik tərzinə sadiq qalan, həm də yeniliklərə can atan, eyni zamanda klassik janrlarla yeni janrları sintez edərək özünəməxsus forma əldə edən mühitin yetirdiyi ədiblərin yaradıcılığı bütövlükdə Azərbaycan ədəbiyyatı üçün yenilikdir.

### 2.3. Məsudi Dövran yaradıcılığında qürbət motivləri və xalq ruhuna yaxınlıq

Lənkəran ədəbi mühitində özünəməxsus fərdi üslubu, dəst-xətti, rəngarəng mövzu dairəsi ilə seçilən söz ustadlarından biri də Məsudi Dövrandır. Elmi araşdırmaları kimi poetik irsi də zəngin olan Məsudi Dövranın yaradıcılığı mövzu

dairəsinə görə zəngin və genişdir. O, yaradıcılığında bir çox mövzulara toxunur, bir çox mövzular onun lirikasının aparıcı leytmotivinə çevrilə bilir. Amma şairin yaradıcılığında daha çox toxunduğu məqamları, şeirlərinin başlıca mövzularını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Qürbət motivləri və Vətən mövzusu
2. Ana mövzusu
3. Təbiət lirikası

Azərbaycan ədəbiyyatında qürbət motivləri ömrünü vətəndən kənarda keçirən ədiblərin yaradıcılığında həmişə üstünlük təşkil etmişdir. Adətən qürbət motivləri dedikdə gözümüzün önündə ilk növbədə mühacirət ədəbiyyatı dayanır. Çünki daha çox biz mühacirət poeziyasında qürbət nisgili, vətən həsrətli şeirlərlə qarşılaşırıq. Məsudi Dövran yaradıcılığında da biz eyni ab-havanı müşahidə edirik. Ədibin yaradıcılığın əhatə edən əksər şeirlərin məhz bu mövzunu əhatə etməsi heç də təsadüfi bir hal deyil. Belə ki, ömrünün bir hissəsini vətəndən kənarda-Özbəkistanda, Orta Asiyada keçirən şairin vətən üçün alışıb yanması onun misralarına da sirayət etmişdir. Vətən həsrəti, qəribliyin gətirdiyi hüzn Məsudi Dövran yaradıcılığında əksər şeirlərin aparıcı ahəngini təşkil edə bilmişdir. Şairin yaşantıları, keçirdiyi hislər təbii olduğu kimi misralarında da bu təbiilik bütün çalarları ilə özünü büruzə verir. Qürbət həsrəti Məsudi Dövran yaradıcılığının baş mövzusu kimi təbii ki, Vətənə söykənir. Belə ki, onun yaradıcılığında qürbət həsrəti Vətən dərdi ilə qovuşur. Şairin qürbət, qəriblik həsrətli şeirlərində birbaşa Vətənlə qarşılaşır oxucu. Əlbəttə ki, Vətənsiz qürbət həsrətli şeirlərin olması mümkünsüzdür:

*Eldən ayrı könül qərib, göz qərib.*
*Baxış qərib, gülüş qərib, söz qərib.*
*Ayağından yerə düşən iz qərib.*
*Belə günün aqibətin kim bilir?* [137, s.12]

Məsudi Dövran "Sən olmadınmı?" şeirində qürbətdə yaşadıqlarını, keçirdiyi hiss və həyəcanları, küskünlüyünü, incik düşdüyünü, bir sözlə, həyatının bir çox səhifəsini oxucuya çatdırmağa çalışır. Təsadüfi deyil ki, şair bu şeirini həm də

“Məsudnamə” adlandırır:

*... Qərib elə həsrət çəkən kim oldu?*
*Öz yurdunda gülas əkən kim oldu?*
*Məzlumlara bina tikən kim oldu?*
*Məsud, söylə görüm, sən olmadınmı?* [137, s.31]

Məsudi Dövran qürbət həsrətli şeirlərində vətənə dönmək arzusunu dönə-dönə dilə gətirir. Şairin “Oyan” şeirində bu hiss daha dolğun formada ifadə olunub:

*Mən haqq carçısıyam xoşbəxtdir adım,*
*Xalqı talayanlar olubdur yadım.*
*Tanrıdan istəyim arzumda budur.*
*Vətən çörəyini vətəndə dadım* [137, s.208].

Şeirin son misrası sanki bir epoxadır. Burada şairin bütün arzuları deyil - bir arzusu məhz onun qürbət həsrətli şeirlərinin nidası kimi səslənir. Artıq bu həsrətin, bu nisgilin bitməsi üçün Məsudi Dövran həqiqətən də haqq səsi ilə çar çəkir. Bu səsi biz onun “Gəl sahillərə”, “Niyə mən”, “Yadam”, “Qalmış”, “Neynim”, “Görmədim”, “Astara” [137] kimi qürbət həsrəti daha qabarıq formada əks olunmuş şeirlərində də duyuruq.

Uzun sürən həsrətdən, intizardan sonra vətənə, elinə, obasına dönən şairin Vətən motivləri sonrakı yaradıcılığında da əsas mövzularıdan biri olaraq qalmışdır. Hətta şair vətənə döndüyü zaman dönüşünün sevincini, “Lənkərana gəlmişəm” adlı şeiri ilə ifadə etməyə çalışmışdır:

*Qardaş ellər məni əziz tutsa da,*
*Qayıtmışam, Lənkərana gəlmişəm.*
*Ürəyimdə dövr eləyib həsrətim*
*Od tutmuşam, yana-yana gəlmişəm*
*Qayıtmışam, Lənkərana gəlmişəm* [135, s. 3].

Hüseyn Kürdoğlu Məsudi Dövran haqqında yazır: *“Məsud müəllim doğma respublikadan aralansa da, Vətən həsrəti, torpağa bağlılıq duyğusu qəlbindən silinmədi. İndi budur haqq yolunu tapmışdır. O vaxt azərbaycanlı alimin ürəyində*

*dolaşan arzular, dilində səslənən söhbətlər həqiqətə çevrilmiş, bu günün haqq işinə dönmüş, hər yanda populyar mövzu olmuşdur. Dəyişməyən isə eloğlumuzun vüqar və iradəsidir. Həqiqəti ürəyində çıraq edən elm və sənət mübarizi yenidən öz vətəninə qayıtmışdır. O, qardaş diyardan özü ilə "Dövran" təxəllüsünü, Vətən həsrəti, torpaq yanğısı ilə çırpınan ürəyinin döyüntülərini –şeirlərini, oradakı elmi axtarışlarının məhsulu olan tədqiqat əsərlərini ərməğan gətirmişdir"* [137, s.11].

Məsudi Dövran yaradıcılığında vətən mövzusu qürbətdən qayıtdıqdan sonra da əsas mövzulardan biri olaraq qalır. Çünki Vətən mövzusu bədii ədəbiyyatın əzəli və əbədi mövzularından biridir. Elə buna görə də hər bir qələm əhlinin öz doğma məkanını məhəbbətlə vəsf - tərənnüm etməsi, onun ağrı-acılarına münasibətini bildirməsi təbii haldır. Bu baxımdan Məsudi Dövranın Vətənə döndükdən sonrakı yaradıcılığında bu mövzunu davam etdirməsi normaldır. Lakin bu dəfə Məsudi Dövranın yaradıcılığında qürbət həsrəti vətəndə ola-ola davam edir. Bu dəfə Məsudi Dövran qəlbində Qarabağ dərdini daşıyır. Azərbaycan ədəbiyyatında bir çox ədiblərin yaralı olaraq toxunduğu Qarabağ mövzusu Məsudi Dövranın yaradıcılığında da eyni yanğı ilə ifadəsini tapmışdır. İllərlə vətəndən uzaqda, qürbətdə qalması onun vətənə olan məhəbbətini unutdurmamışdır. Vətənin dərdini öz dərdi kimi qəlbində daşımağı bacaran şair onun heç bir acısına biganə yanaşmamışdır:

*Qarabağın gözü yolda.*
*Ağlayır hər daş kəsəyi.*
*Kor çeşmələr izi yolda*
*Qan bağlayır hər bəbəyi* [137, s.91].

Vətənpərvərlik motivləri təkcə Vətənə xitabən yazılan şeirlərdən ibarət deyildir. Bura həmçinin ana dilinin təbliğatına yönələn şeirlər də daxildir. Çünki vətən təkcə üzərinə ayaq basdığımız torpaqdan ibarət deyildir. Vətən geniş anlayışdır hansı ki, özündə bizim keçmişimizi, gələcəyimizi, bu günümüzü hətta milli kimliyimizi belə özündə ehtiva edir. Milli kimliyimizin başlıca göstəricilərindən biri də təbii ki, ana dilimizdir. Çünki dil millətin varlığının əsas şərtlərindən, göstəricilərindən biridir. Azərbaycan xalqının varlığını yaşadan Azərbaycan dili neçə

yüz illərdir ki, onun milli, mənəvi varlığını, mövcudluğunu qoruyub saxlayır. Ona görə də ana dili hər bir xalqın qürur mənbəyidir. Bu qürur mənbəyi Məsudi Dövran yaradıcılığından təbii ki, yan keçə bilməzdi. Dilçi alim ömrünün bir çox hissəsini Vətəndən uzağda yaşamasına baxmayaraq öz doğma dilini heç vaxt unutmamış, öz ana dilinə olan vurğunluğunu dəfələrlə dilə gətirmişdir. Biz şairin "Ana dili" şeirindən də bunu açıq-aydın görürük:

*Mən bu dildə doğulmuşam,*
*Bu dildə dilə gəlmişəm.*
*Dirilik bulağı budur,*
*Bağında gülə gəlmişəm* [135, s.5].

Əsrlər, qərinələrdir ki, xalqımızın əbədiyaşarlığına xidmət edən ana dilimiz qədim tarixə malik olan, min illərin müxtəlif burulğanlarından alnıaçıq, üzüağ çıxaraq müasir dövrə gəlib çatmış ən böyük mənəvi sərvətimizdir. Dil elə bir varlıqdır ki, onun hər aspektdən tədqiqi bütün dövrlərdə aktual olmuş və olmaqdadır. Məsudi Dövran yaradıcılığında təkcə ana dilinə bağlılıq deyil, hətta dilin fəlsəfi anlamını, funksiyalarını, işlənmə məqamlarını, əsas xüsusiyyətlərini, tarixini, bu gününü, hətta gələcəyini dərindən bildiyindən yeri gələndə dilçiliyə dair görüşlərini belə bədii dildə ifadə edir. Dilçi alimin ümumi türk etnosların yaranma tarixini və etimologiyasını poetik dildə, böyük elmi izahatla verdiyi aşağıdakı şeirində olduğu kimi:

*Qədim soyum, qədim suyum,*
*durum - durum.*
*Bu dünyada izlər qoyan,*
*qurum - qurum.*
*Tayfa adı, Ulu türküm,*
*bu kağıza, sancaq vurum.*
*İrtiş, Sabir, Avar, Tatar.*
*Uyğur, Qar - qar.*
*Son hecalar: ir, ur,*

*dur, vur.*

*Hamısının mənası bir ...* [137, s.15]

Bu şeirində dilçi alim Məsud Məmmədov ana dili fonunda türk dili, onun tarixi inkişafı haqqında elmi görüşlərini poetik dildə dolğun formada ifadə etmişdir. Həmçinin şair aşağıdakı misralarında da ortaq türk dilinin tarixən qədimliyini, geniş əhatə alanını, bütövlükdə mənsub olduğu xalqın tarixinin nə qədər qədim olduğunu, diqqətə çatdırmışdır:

*Alim, şair qurd oğlusan qur belin,*

*Urmiyədən Dərbəndəcən yurd elin.*

*Ortaq dildir Şərqdə ana bu dilin.*

*Xalq tarixin çox dərindir Məsudum!* [137, s.150]

Əsl vətənpərvərlik əslində elə tarixini bilmək, ona sahib çıxmağı bacarmaqdan ibarətdir. Çünki tarixini bilməyən bir xalqın çox güman ki, gələcəyi də yoxdur. Məsudi Dövran da tarixini unutmayan şairlərdəndir. Hətta o, şeirlərində tez-tez qədim Azərbaycan torpaqlarının adını çəkir. Təbii ki, bunun əsl səbəbi elinin, obasının qədimliyini diqqətə çatdırmaqdan ibarətdir. Hətta bəzən şair eramızdan çox-çox əvvələ gedir e.ə. 728-ci ildən e.ə. 549-cu ilədək mövcud olmuş, şərqdə ilk imperiya hesab olunan və Azərbaycan ərazisində yaranaraq təşəkkül tapan daha sonra genişlənib Ön Asiyanın ən güclü dövlətinə çevrilmiş Midiya torpaqlarını belə öz poeziyasının əsas obyektinə çevirə bilir:

*Midiya torpağında doğuldum erkən,*

*Buluddan qurmuşam özümə yelkən.*

*Boransız qışım var, yağmurlu yayım,*

*Yapıncım dağlardır, köynəyim Hirkən* [134, s.206].

Onun yaradıcılığında Azərbaycanın başına gətirilmiş tarixi müsibətlər, həmçinin bu müsibətlər fonunda Gülüstan və Türkmənçay müqavilələri zamanı Azərbaycanın tarixi torpaqlarının bölünməsi mütəmadi diqqət mərkəzində saxlanılır. Həmçinin şair həmin torpaqları Azərbaycandan ayrı bilmir:

*Bir yurddaş oldum ki, Vətənim candır.*

*Kökümdə birləşən Azərbaycandır.*

*Urmiyə, Marağa, Təbriz, Dərbəndim*

*Qərbim İrəvandır, cənubum candır* [134, s.55].

Məsudi Dövran yaradıcılığının bir qismini ana mövzusu təşkil edir. Onun yaradıcılığında anaya olan sonsuz məhəbbət, qayğı, ehtiram bütün dolğunluğu ilə seçilir:

*Payızın sapsarı ləçəklərindən,*

*Bükülmüş bələyəm anacan, ana.*

*Heç nə sığışmayır qəlbimə inan,*

*Verdiyin canı da vermişəm cana.*

*Ana, ay ana!* [136, s.95]

Maraqlı məqamlardan biri də odur ki, ədib bir çox şeirlərində sonluqda "Ana, ay ana!" müraciətini işlədərək şeirlərinin emosional təsir gücünü daha da artırır. Şairin bu tip şeirlərinin əsas mövzusu bəzən ana olmasa da, ədibin bu tip müraciəti bu şeirləri məhz ana motivli şeirlər silsiləsinə daxil edir:

*Neynyərdim bu dünyanı,*

*Niyə verdin mənə qanı.*

*Gah saralır, gah qaralır,*

*Qiyməti yox bu cahanın* [136, s.46].

Bəzi şeirlərində isə anasının itkisi ilə barışa bilmədiyi daha qabarıq duyğulara hiss olunur:

*Məzarın üstünə daş qoydum, ana,*

*Əyildim, üzüldüm, baş qoydum ana.*

*Sitəmli göz yaşım axdı sel təkin,*

*Yanında özümə qaş qoydum, ana.*

*Dərdimə dərd axdı, yaş qoydum ana* [139, s.37].

Məsudi Dövran "Ay insanlar" şeirinin əvvəlində ana mövzusuna toxunmağının əsl səbəblərini belə izah edir: *"Bu yazdığım hadisədən 25 il keçmişdir. İndi yaş gəlib yaşımın üstə, heç kimə ana, baba, dədə, nənə, bibi deyə bilmirəm. Bu vəziyyətimə*

*görə karıxıram və darıxıram. Demək olar ki, hər gün şəhərə çıxanda yaşlı xanımlar içində anamı axtarıram, heç olmasa anama oxşarını görmək istəyirəm, atamı yox, çünki eynilə özüm atama oxşayıram, hər üz qırxanda özümü və atamı güzgüdə görürəm. Bu səbəbdən də Ana haqqında yazılmış və dərc olunmuş şeirlərim çoxdur, hələ bu yaxınlarda yazdığım şeirdə anamı axtarır, bəlkə səsimə səs verə bilər. Mən anamı axtarıram, ay insanlar anamı! "* [137, s.216].

*Bu dövranda Dövran kimi dövran görüb sevindim.*
*Torpaq ömrün yaşar Məsud – anamla mən öyündüm.*
*Əməllərin doğru-dürüst ürəklərdə döyündüm.*
*Mən anamı axtarıram hər yazımda, qışımda*
*Mən anamı axtarıram ay insanlar, anamı !*
*Həyatımın sönməyən o, həm işığı, həm tamı* [137, s.217].

Nəcibə Anarqızı Məsudi Dövran haqqında yazır: *"O, Özbəkistanda olduğu illərdə də "Ana" mövzusunda şeir və poemalar yazmış və ümumiyyətlə, ondan asılı olmayaraq, anaya olan hörmət və məhəbbət zərurətindən bu nəğməkar şair "Ana" nəğmələrini tez-tez yazır"* [135, s.12]. Bunu biz Məsudi Dövranın Özbəkistanda olduğu illərdə yazdığı "Çağırsın anamı" şeirində də müşahidə edə bilirik. Bu şeirdə şairin həsrətini, dərdini, anaya olan sonsuz məhəbbətini açıq-aşkar görə bilirik:

*Burnumun ucu göynədi,*
*Külək çağırsın anamı.*
*Enib tanrı dərgahından,*
*Mələk çağırsın anamı* [135, s.13].

Ən maraqlı məqam odur ki, Məsudi Dövranın şeirləri o qədər ürəyə yatımlı və heca vəzninin gətirdiyi bir ahəngdarlığa malikdir ki, onu həqiqətən də nəğməkar şair adlandırmaq olar.

Məsudi Dövranın yaradıcılığını tədqiq edərkən təbiət təsvirli şeirlərlə də daha çox qarşılaşırıq. O, doğma yurdunun gözəlliklərini böyük ustalıqla qələmə almağı bacarmışdır. Onun mavi Xəzəri vəsf etdiyi "Xəzərim", doğulub boya-başa çatdığı Astaranın gözəlliklərini vəsf etdiyi "Astara", "Astaraçay", doğma Talış dağlarını

vəsf etdiyi “Dağlar”, “Lerik” [135], “Mistandır dağların yenilməz tacı” [137, s.235] və s. şeirləri bu qəbildən olanlardır. Şair Azərbaycan haqqında yazdığı ayrı-ayrı şeirlərində də təbiət təsvirlərini vəsf etməyi unutmur:

*Azərbaycan can dərmanı.*

*Cənnət - məkandır hər yanı*

*Ayrılan bu əzəl yeri*

*Gəlib tanrıdan fərmanı* [135, s.99].

Məsudi Dövranın yaradıcılığını tədqiq edərkən qarşılaşdığımız əsas məqamlardan biri də onun xalq ruhuna yaxın tərzdə yazılmasıdır. Onun misralarında ana dilimizin bütün şirinliyi qorunub saxlanılmaqdadır. Yaradıcılığında daha çox heca vəznli şeirlər üstünlük təşkil edən Məsudi Dövranın şeirlərində qəliz ibarələrlə, mənası anlaşılmayan sözlərlə qarşılaşmırıq. Dilçi-alim ana dilimizin bütün saflığını öz şeirlərində qoruyub saxlamağı bacarmışdır. Onun yaradıcılığında şahid olduğumuz xalq təfəkküründən süzülüb gələn deyimlər - atalar sözləri, bayatılar, ağılar oxşamalardan kifayət qədər bəhrələndiyi ədibin xalq ruhuna yaxın edən ən mühüm cəhətlərdən biridir.

Məlumdur ki, bayatı folklorumuzun ən qədim janrlarından biridir. Tədqiqatçı alim Abbas Hacıyev bayatı haqqında yazır: *“Qəribliyin, həsrət və nigarançılığın təsviri bayatılarda əsas motivdir. Bu duyğu ümumiləşir, zülmə və haqsızlığa qarşı mübarizə, mənəvi qüdrət, təmkin və dözüm haqqında təsəvvür genişlənir. Etibar, sədaqət, humanist duyğular, iztirab, tale və güzarından şikayət təbii verilir. Çox hallarda bayatıları hislər, həyəcan, daxili iztirab, düşüncə və arzular mənalandırır. Çünki bayatı xalqa və vətənə, insana, təbiətə və düşüncələr aləminə müraciətlə deyilir. Fərdi psixoloji hiss və fikirlər, sevinc, kədər və iztirablar ümumi istək səviyyəsindən mənalandırılır”* [68, s.251]. Bayatının bu xüsusiyyətlərini araşdırmalarımız zamanı Məsudi Dövranın yaradıcılığında qarşılaşdığımız şeirlərində də görürük. Maraqlı məqam ondan ibarətdir ki, ədib bayatı strukturunda yazdığı şeirlərini özü bayatı adlandırmır. Onun bu tip şeirlərində ayrı-ayrı bəndlər birləşərək bütövlükdə şeirə xas bitkinlik əmələ gətirir. Ancaq bəndlər forma etibarı ilə bayatıdan

təşkil olunmuşdur. Məsələn şairin "Yol gedir " şeiri bu qəbildəndir:

*Ay paradır, göy para.*
*Xəbər verin o yara.*
*Məsud vaxtsız yol gedir,*
*Dərdinə tapsın çara* [136, s.25].

Və yaxud da "Üstə" adlı şeirində eyni ilə bayatılara xas xüsusiyyətləri müşahidə etmək olur:

*Sözüm var bəmim üstə,*
*Əsirəm qəmim üstə.*
*Məsudun özü qalıb*
*Torpağın ləmi üstə* [136, s.8s].

Yaradıcılığında daha çox qürbət motivləri sezilən Məsudi Dövran bayatı tipli şeirlərində qəribliyini dönə-dönə dilə gətirir. Bəzən onun bu şeirlərində şair əgər öz təxəllüsünü və yaxud da adını işlətməsə folklorumuzda işlənən bayatılardan ayırd etmək çox çətin olur:

*Atma qul oldum helə,*
*Oğul oldum qərib elə.*
*Biri deməz Məsud Dövran,*
*Can alır o gülə - gülə* [136, s.28].

Apardığımız araşdırmalar zamanı Məsudi Dövranın yaradıcılığında strukturca bayatıya, məzmunca isə ağıya bənzəyən şeirlərlə də qarşılaşırıq. Məlumdur ki, *"ağılar folklorun ən qədim janrlarındandır. Bu janrı bayatılardan məzmun spesifikliyi fərqləndirir. Ağılarda həm kədər, ələm və fəryad, həm də ictimai-siyasi quruluşun və zülmün doğurduğu qüssə və şikayət təsvir olunur; fəryadın, hiss və duyğuların kədərə bürünməsi görünür, fikir və düşüncələr ümumiləşir"* [68, s.251]. Məsudi Dövranın ağılardan təşkil olunmuş şeirlərində ağıların sadalanan bütün xüsusiyyətləri tamlığı ilə seçilir. Bayatılardan qaynaqlanan şeirlərində olduğu kimi, şair ağılardan ibarət şeirlərini də heç də ağı adlandırmır. Ancaq bu şeirlər məzmunca ağıdır. Şairin "Dərdə salıbdır" şeiri buna nümunədir:

*Buludlar qan ağlayır,*
*Üfüqdə dan ağlayır.*
*Yerdəyəm mən biçarə,*
*İçimdə qan ağlayır* [136, s.62].

Maraqlı məqam ondan ibarətdir ki, şair məzmun və formaca istər bayatı, istərsə də ağılardan ibarət şeirlərin son bəndində öz adını çəkir:

*Məsudə nə qalıbdır?*
*Onu dövran alıbdır.*
*Həyatda torpaq ömrü,*
*Onu dərdə salıbdır* [136, s.62].

Əsasən, qoşma və onun növləri, gəraylı, qəzəl janrlarında qaşılaşdığımız möhürbəndi şair bayatı formatına uyğunlaşdırmaqla yenilik etmişdir. Düzdür, istər aşıq ədəbiyyatında, istərsə də yazılı ədəbiyyatda bayatı janrı ilə tez-tez üzləşirik və araşdırma zamanı müstəqillik dövrü Lənkəran ədəbi mühitində də bayatı janrında qələmini sınayan bir çox ədiblərlə qarşılaşırıq. Lakin bütün bəndləri bayatıdan ibarət, istər mövzuca, istərsə də sırf struktur baxımdan bayatıya bənzəyən və sonda şairin öz adını və yaxud təxəllüsünü çəkdiyi şeirlərlə demək olar ki, qarşılaşmırıq. Bu şairin ədəbiyyatımıza gətirmiş olduğu yeniliklərdən biridir və müasir dövrümüzdə də folklor ənənələrini yazılı ədəbiyyatda qoruyub saxlamaq baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

Məsudi Dövranın bayatıya bənzər şeirləri bəzən məzmun ziddiyyəti baxımından da diqqət çəkir. Əslində bu məzmun ziddiyyətinin özü belə yenilikdir. Belə ki, o bəzi şeirlərində bəzi bəndlərdə ağıya xas xüsusiyyət əks olunduğu təqdirdə eyni şeirin digər bəndlərində bayatıya xas nikbinlik müşahidə olunur. Şairin "Qalıb" şeirində olduğu kimi. Belə ki, şeirin ilk bəndində:

*Ağacım yox, ağım yox,*
*Həyatda heç bağım yox.*
*Tabağım var, tavam var,*
*Qızartmağa yağım yox*

əks olunan ağıya xas qəm-kədər motivləri duyulduğu halda, şeirin digər ikinci bəndində:

*Evim var, eşiyim var,*

*Yurdumda beşiyim var.*

*Nə qəmim var, dərd çəkim?*

*Tanrıdan keşiyim var.*

bayatılarda müşahidə etdiyimiz nikbinlik öz əksini tapmışdır. Eyni şeirin son bəndində isə şair öz adını çəkir. Bu bəndə isə yenə də ağıya xas olan küskünlük, dərd-qəm ifadə olunmuşdur:

*Məsudi Dövran alıb,*

*Min dərddə, qəmə salıb.*

*Kainat onun yurdu*

*Məzarda evi qalıb* [136, s.32].

Tədqiqat zamanı Məsudi Dövranın yaradıcılığında elə şeirlərlə də qarşılaşırıq ki, onlar məzmunca və qafiyəcə bayatıya bənzəyir ancaq bayatıdan fərqli olaraq cəmi dörd hecadan ibarətdir. Bu tip şeirlər də həm məzmunca, həm də formaca ədəbiyyatımız üçün yenidir. Düzdür, ədəbiyyatımızda dörd hecalı şeir formalarına həm şifahi, həm də yazılı ədəbiyyatımızda kifayət qədər rast gəlirik. Lakin yazılı ədəbiyyatımızda onun bayatıya yaxın formalarını biz Məsudi Dövranın yaradıcılığında görürük:

*Budur zaman*

*Yoxdur aman*

*Dost dostuna*

*Olub yaman* [136, s.9].

Apardığımız araşdırma zamanı Məsudi Dövranın yaradıcılığında nazlamalara da rast gəlirik. Məlumdur ki, *"... nazlamalarda ritm daha çox misra arası yaranır, fikir şən, oynaq arzularla dolu əhvali – ruhiyyə ilə söylənilir. Körpələrin əlamətləri sadalanmır. Nurani bir insan onu oxşayır arzularını ifadə edir..."* [68, s.253] Maraqlı məqam ondan ibarətdir ki, şifahi xalq ədəbiyyatının geniş yayılmış bu janrına yazılı

ədəbiyyatda qarşılaşmırıq. Məsudi Dövranın yaradıcılığında bu janrdan yararlanması da yazılı ədəbiyyatımız üçün bir yenilikdir. Düzdür, ədəbiyyatımızda uşaqları vəsf edən kifayət qədər şeirlər vardır. Hətta müstəqillik dövrü Lənkəran ədəbi mühitində biz uşaq ədəbiyyatının kifayət qədər inkişaf etdiyinin şahidi də oluruq. Lakin onların struktur baxımından, sırf oxşamalara xas xüsusiyyətə malik olan nümunələrini yazılı ədəbiyyatımızda görmürük. Bu baxımdan Məsudi Dövranın qələmə aldığı nazlamalar daha çox diqqət çəkir:

*Sən ana qızım,*
*Gül hana qızım,*
*Xoş gəldin bizə,*
*Baharım, yazım* [139, s.81].

Məsudi Dövranın yaradıcılığını tədqiq edərkən onun yaradıcılığında kifayət qədər ibrətamiz ifadələrlə qarşılaşırıq. Bu ədibin atalar sözlərindən öz şeirlərində məharətlə istifadə etmək bacarığından xəbər verir. Xüsusilə, atalar sözlərində qarşımıza çıxan "Dil adamı bəyan edər", "Dil var – bal gətirər, dil var - bəla gətirər", "Dil yarası, il yarası", "Dilini saxlayan başını saxlar" [9] ifadələrini ədibin "Dil nədir? " şeirində fərqli formada lakin eyni məzmunda müşahidə edə bilirik:

*Dil nədir? – Bir dilbərdir,*
*Aqilə bərabərdir.*
*Ağadır, həm nökərdir,*
*Yük çəkən dil bərədir* [135, s.161].

Apardığımız araşdırmalardan belə qənaətə gəlmək olur ki, müstəqillik dövrü Lənkəran ədəbi mühitində Məsudi Dövran yaradıcılığı xalq ruhuna yaxınlığı ilə daha çox seçilir.

### 2.4. İltifat Salehin sərbəst şeir yaradıcılığı

Lənkəran ədəbi mühitinə nəzər yetirdiyimiz zaman İltifat Salehin yaradıcılığı da daha çox diqqət çəkir. Özünəməxsus tərzi ilə seçilən şairin yaradıcılığı təkcə bölgə ədəbi mühiti üçün deyil, bütövlükdə Azərbaycan ədəbiyyatı üçün yenilik hesab

edilə bilər. Uzun illər Azərbaycan Yazıçılar birliyinin Lənkəran bölməsinin rəhbəri olan şair bölgədə fəaliyyət göstərən ədiblərin bir araya gələrək bir çox ədəbi – bədii layihələr təşkil edərək həyata keçirməsinə nail ola bilmişdir. Bölgədə belə bir birliyin mövcud olması təbii haldır ki, ədəbi mühitin inkişafına olduqca güclü təkan vermişdir. İltifat Saleh ömrünün sonuna qədər bu birliyini sədri olaraq işinin öhdəsindən layiqincə gəlməyi bacarmışdır.

İltifat Saleh yaradıcılığı demək olar ki, başdan-başa sərbəst şeirlərdən ibarətdir. Bu ədibin yaradıcılığına, üslubuna, fərqli metoduna rəng qatır. Çünki bölgə ədəbi mühitində əruz və heca vəzninin hökmranlığı fonunda nisbətən bölgə ruhuna tam uyğun olmayan, bölgə yazarların dilinə hələ tam oturmayan sərbəst şeirdə bütün poetik düşüncələri ifadə etmək həm çox çətin, həm də bir şair üçün nisbətən riskli amillərdəndir. Şairə bu yolda stimul verən isə müəllimi Rəsul Rzadır. Belə ki, zamanında Rəsul Rza İltifat Salehin bir neçə şeirini təhlil etdikdən sonra ona yazmışdır: *“Mən istəyirəm sən biləsən ki, kənardan hamar görünən sənət yolunun enişi-yoxuşu, çuxurları vardır. Bu yolu sənətə sədaqətlə getmək, inadla zəhmətə qatlaşmaq, səndən əvvəl yaşayıb-yaratmış sənətkarların həyat yoluna, yaradıcılığına bələd olmaq lazımdır. Ancaq o zaman yaz ki, xalqa deməyə sözün var. Fikirlər duyğular səni rahat qoymur. Kiçik olsa belə, bir kəşfin var. Yoxsa yüz məlum şeirə bir məlum şeir də əlavə etmək nəyə gərəkdir?...Tanış olduğum şeirlərin səndə istedad olduğun göstərir. Bu istedad fitridirmi, onun qida aldığı çeşmə həyatdırmı- hələlik bunu deyə bilmərəm. Həyatda elə olur ki, bir neçə yaxşı şeir, ya hekayə yazmış adam get-gedə yaradıcılıqdan soyuyur, özünə başqa sənət seçir. Bu nə cinayət, nə qəbahətdir. Həyat yolunu doğru seçmək üçün müəyyən bir zaman lazımdır. Kim həqiqi yolunu tez tapırsa, daha artıq müvəffəq olur, insanlara onun faydası daha çox dəyir. Qəlbinlə baş-başa qalmaqdan qorxma. Lakin istək və arzularını, məqsədini həyatda insanlarla ünsiyyətdə də yoxla, görsən ki, şeir həvəsi, yaradıcılıq eşqinə üstün gəlir . Yaz, yarat. Unutma ki, sənətin şərəfli və çətin yolları, ciddi imtahanları vardır”* [158, s.724].

İltifat Saleh öz yaradıcılığında Rəsul Rza ədəbi məktəbindən çox şeylər

öyrənmiş və bu yolda ona inam, "yaz, yarat!" xeyir-duası verən bir insanın xatirəsini dönə-dönə yad etmişdir. Şairin Rəsul Rzaya olan sonsuz sevgisini onun yaradıcılığında bir çox şeirlərdə görürük. Hətta onun "Ustad Rəsul Rzaya sonetlər çələngi" ndə bu sevgini daha qabarıq forma da müşahidə etmək olar:

*Yolçu, uğur olsun, getsən bu yana,*
*Unutma Rəsulun qeyrət yolunu.*
*Sehrli nağıltək danış hər kəsə*
*Görəndə Rəsulun ömür yolunu.*

*Kəlmələr bahara döndü dilində,*
*Qəmli ürəyində saf məhəbbəti.*
*Qələbə çələngi tutdu əlində,*
*Qaldırdı göylərə büllur sənəti.*

*Yolçu, yığ heybənə dəftər-kitabı,*
*Özünü ələ al itirmə tabı.*
*Şeirlə ürəyin gələr vəcdəyə.*

*Hələ görməmişəm Rəsul Rzanı,*
*Ustadı sözüylə, şeirlə tanı*
*Onun söz məbədin əyil səcdəyə!* [158, s.724]

Apardığımız araşdırmalar zamanı onun yaradıcılığında bütünlüklə Rəsul Rza ruhunu hiss edirik. Hətta ədibin "Poetik testlər" [94] kitabında yazmış olduğu ümumi 29 testində aparılan araşdırma zamanı Rəsul Rzanın "Rənglər" silsiləsinin təsiri hiss olunur. Xüsusilə "Poetik testlərin" 6-cı "Xoşbəxtlik testi" ndə bu təsir özünü daha qabarıq formada əks etdirmişdir. Hətta bu test birbaşa Rəsul Rzanın adı ilə başlayır:

*Rəsul Rza süzgəcindən keçən şair.*

*Dərdi duya bilən ürək.*
*Ağırlığı çiyinlərində*
*daşıya bilən insan.*
*Həyatın zərbələrinə*
*sözlərin acısına*
*dözə bilən İnsan* [94, s.107]

Aparılan araşdırmalardan da məlum olduğu kimi, Lənkəran ədəbi mühitində lirika daha çox klassik ab havası ilə seçilir. Müstəqillik dövrünə qədər isə bölgədə əruz vəzni aparıcı mövqelərdən birini tutur. Lakin, İltifat Saleh yaradıcılığında isə biz tamamilə fərqli bir tərz görürük. Daha çox sərbəst şeirdə qələmini sınayan ədib onu oxucularına sevdirməyi bacara bilmişdir. Şairin özünün də dediyi kimi *"Buradakı hər fikir qəlbimdən qopan səsdir, haraydır, dünyaya, insanlara məhəbbətdir. Bu kövrək, bəzən uzun, bəzən qısa misralardan ibarət fikirləri, ağrıları duymaq üçün yazanda onların ruhuna özümü kökləməyə çalışmışam. Köklənmək insanı fikrə, hadisəyə doğmalaşdırır, o fikri özününkü edir. Mən bu fikirlərə köklənə bilməsəydim, onları dərk edə bilməzdim, yaza bilməzdim. Bu fikirlərdə yaşaya bilmişəmsə, buna görə yaradana həmişə səcdədəyəm"* [93, s.7].

Şairin bir-birindən dərin fəlsəfi düşüncələrə malik olan poetik deyimləri də yaradıcılığında xüsusi yer tutur. İlk baxışdan xokkulara bənzəyən bu deyimlər nəzəri baxımdan heç bir ədəbi janrın xüsusiyyətlərini öz üzərində daşımır. Sadəcə bir misradan ibarət olan bu deyimlər aforizm xarakteri daşısa da, şair elə öz şairanə dili ilə bu misralara poetik deyimlər adını verməklə kifayətlənir: *"Yüksək ideyalar adamı ucaldır, yeni-yeni zirvələr fəth etməyə ruhlandırır", "Ölməzlik ölməklə və ya özünü öldürməklə qazanılmır", "Öləndən sonra yaşayanlar ömrünü xalq üçün, həqiqət yolunda qurban verənlərdir", "Nağıl inandırmağı bacarmalıdır", "İnadkarlıq nadanlığın tərs üzüdür", "Naşı adam nadandan bir addım irəlidir"* [93, s.8]. Göründüyü kimi şairin bu deyimlərində həqiqətən də dərin bir fəlsəfə yatır. Bir misrada böyük bir epoxanı canlandıran bu deyimlər bəzən xalq ruhu ilə də səsləşir. Apardığımız araşdırmalar zamanı ədibin yaradıcılığında qarşılaşdığımız bu tip

deyimlərin bir qismində bunu müşahidə etmək olar. Məsələn, şifahi xalq ədəbiyyatımızda qarşılaşdığımız "Sözü bişir, sonra de" atalar sözü, ədibin yaradıcılığında "*Bir kəlmə ağıllı söz, torpağa əkilən toxuma bənzəyir", "Söz doldurulmuş tüfəng kimidir, ehtiyatla işlətsək xəta baş verməz"* [93, s.9] donunu geyinsə öz ideyasını dəyişməmişdir.

Ədibin yaradıcılığını tədqiq edərkən onun "Poetik deyimlər" kitabının başdan başa məhz elə bu tip düşündürücü deyimlərdən ibarət olduğunu müşahidə edirik. Təbii ki, bu tərz yazılar bölgə ədəbi mühiti üçün olduqca yeni bir hadisədir. İltifat Saleh isə öz deyimləri haqqında bunları qələmə almışdır*: "İllərlə ilahidən bu fikirlərin işığına yerimişəm. Qəlbimə düşən, məni sakitləşdirən, ovuda biləcək fikirləri sapa düzdükcə uşaq kimi sevinmişəm, kirimişəm. Hər fikrin işığını gördükcə qarşısında dayanmışam, xəyala dalmışam, bu işıqlardan ilham almışam, yeni – yeni fikirlər üçün söz dünyasını səyahətə çıxmışam. Bu fikirlərin işığında düşündükcə, günlərin necə gəlib keçdiyindən xəbərim olmayıb. Bir də başımı qaldırıb görmüşəm ki, ömür Günəşi qüruba enir. Qəlbim də isə yeni sözlər, yeni misralar dinir..."* [93, s.129] Göründüyü kimi bu deyimlər şairin poetik düşüncələrinin səmimi təzahürüdür. Heç bir qəlibə sığmayan bu düşüncələr öz təbiiliyi ilə oxucu qəlbinə yol tapmağı bacarır. Şairin özü haqqında olan bu düşüncələri şairlik haqqında olan düşüncələri ilə də üst-üstə düşür. Bunu onun "Poetik testlər" silsiləsinə daxil olan 25-ci "Şairlik testin də" müşahidə edə bilirik:

*Dəlisov günlər.*
*Cilovsuz küləklər.*
*Ürəyi qıdıqlayan kələklər.*
*Coşan çağlayan dəniz.*
*Günəşi içən təşnə dodaqlar.*
*Narahat insan,*
*narahat günlər.*
*Ayıq göz, şirin söz*
*Hamının ürəyincə deyən.*

*Əyninə kəfən geyən.*

*Üzü küləyə gedən.*

*Bütün ağrıları ürəyində daşıyan.*

*Ezopun dostu.*

*İsgəndərin qardaşı*

*Həmişə ağrıyan İnsan başı...* [94, s.26]

Müstəqillik dövrü Lənkəran ədəbi mühiti üçün İltifat Salehin yaradıcılığı xüsusi əhəmiyyət kəsb edir. Sərbəst şeirin bölgə ədəbi mühitində çiçəklənməsinə şərait yaradan ədib onu oxucularına sevdirməyi bacarmışdır. Düşünürük ki, şairin yaradıcılığı gələcəkdə fundamental şəkildə araşdırılacaqdır.

Tədqiqat işinin II fəslini əhatə edən əsas müddəalar ədəbiyyat siyahısının 118, 126, 127, 128, 129 nömrələrində göstərilən məqalə və tezislərdə dərc olunmuşdur.

# III FƏSİL

# MÜSTƏQİLLİK DÖVRÜ LƏNKƏRAN ƏDƏBİ MÜHİTİNDƏ KLASSİK MƏCLİS ƏNƏNƏLƏRİ

## 3.1. "Fövcül – füsəha" ədəbi məclisinin Lənkəran ədəbi mühitinə təsiri

Aparılan tədqiqatlardan məlumdur ki, XIX əsrdən başlayaraq Azərbaycan ərazisində bir çox ədəbi məclislər fəaliyyət göstərmişdir. Buna misal olaraq Tiflisdə yaranan "Divani-Hikmət", Qubada fəaliyyətə başlayan "Gülüstan", Ordubadda yaranan "Əncümənüş-şüəra", Şamaxıda yaranan "Beytüs-səfa" Bakıda yaranan "Məcməüş-şüəra", Şuşada fəaliyyət göstərən "Məclisi-üns" və "Məclisi fəramuşan", eləcə Lənkəranda fəaliyyət göstərən "Fövcül-füsəha" ədəbi məclislərini göstərə bilərik.

*"Lənkəranda şairlər məclisi ("Fövcül- füsəha" adlanmamışdan əvvəl) 1850-ci ildən mövcud olmuşdur. Bu vaxtlar məclisə M.F.Səhban və Usta Hüseynqulu rəhbərlik etmişlər. Təxminən 10 il sonra (1860-cı illərdə) M.İ.Qasir Lənkərana gəlir"* [212, s.25]. Lənkəranda fəaliyyət göstərən "Fövcül-füsəha" nın digər məclislərdən fərqli cəhətləri onun strukturu və fərdi tərkibi ilə bağlı idi: məclisin içində şeir ədəbiyyatından başı çıxan hər bir sənət sahibi iştirak edə bilərdi. Burada varlı və yoxsula fərq qoyulmur, əsas meyar məclis üzvünün ədəbi qabiliyyəti, şeirləşmə bacarığı, fərdi poeziyası və elmi müzakirələrdə iştirak etmək səviyyəsi sayılırdı. Ömründə şeir yazmayan müxtəlif peşə sahibləri də mənəviyyatca zənginləşmək, milli ədəbiyyatı öyrənmək, həmçinin ictimai-tarixi vəziyyətdən baş çıxarmaq üçün məclisin içində iştirak edə bilərdi. Güman etmək olar ki, *"Fövcül-füsəha"nın belə demokratikliyi onun yaradıcısı Mirzə İsmayıl Qasirin sayəsində təmin olunmuşdu"* [6, s.37]. Lənkəran ədəbi məclisi iki bölümdən ibarət olmuş, birinci bölümü ancaq şeir yazan, məclisdəki şeirləşmələrdə iştirak edən şəxslər, ikinci bölümü isə məclis

üzvlərinin şeirlərini dinləyən, ədəbi-elmi müzakirələrə qoşulan, öz bilik və təsəvvürlərini genişləndirməyə toplaşan şəxslər təşkil etmişlər.

"Mirzə İsmayıl Qasir ömrünün Lənkəran çağlarını başlıca olaraq "Fövcül-füsəha" ya həsr etmiş, onun dağılmaması, əksinə, bu məclisin təsiri ilə ölkənin başqa ərazilərində məclisçilik hərəkatının genişlənməsinə çalışmışdır " [6, s. 41].

Tədqiqatçı alim Mirhaşım Talışlının apardığı araşdırmalarından belə məlum olur ki, *"XIX əsr Azərbaycanın bütün poetik məclislərində olduğu kimi, Lənkərandakı "Fövcül- füsəha şairləri də klassik sənətkarlara, xüsusən Füzuli yaradıcılığına tez-tez müraciət edirlər. Şairlərin hamısı şeirlərində Leyli, Məcnun, Fərhad, Şirin, Yusif, Züleyxa kimi lirik qəhrəmanları bədii obraz seçirlər. Yeri gəlmişkən qeyd edək ki, bu obrazlara təkcə Füzuli yaradıcılığında deyil, onun sələflərindən bir çox fars, ərəb, özbək, tacik və Azərbaycan klassiklərinin əsərlərində də geniş yer verilmişdir. Lənkəran şairləri həm Azərbaycan, həm fars və ərəb, həm də çığatay dilində rastlaşdıqları gözəl əsərləri nəinki mütaliə edir və onlara nəzirələr və təxmislər yazır, hətta yeri gəldikcə həmin dillərdə əsərlər yazırdılar"* [204. Ic, s. 35].

"Lənkəran "Fövcül-füsəha" ədəbi irsi XX əsrin əvvəllərində bütün üslub xüsusiyyətləri, forması, mənası və məzmunu ilə davam etməkdə idi. Bunun başlıca səbəbi həmin ədəbi məclisin iştirakçılarının gənc ziyalılarının yaradıcılığına ürəkdən bağlanmaları idi" [204. Ic, s.157]. "Fövcül-füsəha" ya aid bir çox xüsusiyyətlər bu dönəmdə digər ədəbi məclislərdə də müşahidə olunurdu. Uzun zaman fasilədən sonra məclis 1991-ci ilin avqust ayından yenidən fəaliyyətə başlamışdır. Məclisin yenidən bərpa olunmasını Mirhaşım Talışlı belə izah edir: *"9 iyun 1980-ci ildə Mirsalam Müasir mənə:*

*Nə müddətdir didarına həsrətəm,*
*Gəl oturaq söhbət edək, Mirhaşım!*
*Vaxt gözləmir, artıq yaşa dolmuşuq,*
*Ömür olub yaman gödək, Mirhaşım!-*

*bəndi ilə bir qoşma göndərdi. Bu şeirlə o və mən xeyli müddət yazışdıq. Bir neçə il hərdən toplaşıb bir sıra şeirsevərlərlə birlikdə bədii söhbətlər keçirərdik. 1990-cı*

*ildə Bakı şəhərindən mərhum Rüstəm Samit Lənkərana – bizə qonaq gəlmişdi. O, bizə bildirdi ki, Bakıda XIX əsrdən "Məcməüş Şüəra"nı davam etdiririk. Bəs, Siz "Fövcül-füsəha" məclisini nə əcəb dirçəltmirsiniz? Bu xəbərdən sonra biz də keçmiş adı ilə məclisimizi bərpa etdik* [204, IIc.s.339]. Və beləliklə, 1992-ci il mart ayının 10-dan "Lənkəran" mətbəəsində 500 nüsxədən ibarət məclisin "Şəm" adlı bülleteni nəşr edilmişdir. Bülletenin hər sayının ilk səhifəsinin devizi belədir: *"Məclisdə şəm yandı, pərvanələr yığılsın!" "Şəm", bülleteninin 10 aprel 1992-ci ildə çıxan 2-ci sayından klassiklərimizin yaradıcılıq üslubunun öyrənilməsi və məclis üzvlərinin klassik üslubda şeir yazmalarını nəzərə alaraq şeirimizdə əruz vəzni barədə məlumatlar verilirdi"* [204, IIc. s.162].

"Fövcül-füsəha" məclisi Mirhaşım Talışlının sayəsində bərpa olunduqdan sonra onun əsas üzvləri Mirsalam Müasir, Ağamir Cavad, Ziyafət, Aliyə Seyidqızı, Məsudi Dövran, Yaşar Əkbərov, Əli Nasir və başqaları olmuşdur. Məclisin yenidən fəaliyyətə başlaması və onun bir qisim üzvləri haqda biz Ziyafətin "Çağır" rədifli qəzəlindən də görürük:

*"Asifa, "Fövcümüzə" cümlə müsəlmanı çağır,*
*Söz bilən məclisimə arifu urfanı çağır.*
*Şövq ilə yanmaqdadır "Fövcümüzün" "Şəmi" bu gün,*
*Səslə "Pərvanəmizi", birliyə mehmanı çağır* [224, s. 100].

Məclisin bərpa olunması müstəqillik dövrü Lənkəran ədəbi mühiti üçün çox böyük bir ədəbi-mədəni hadisə idi. Məclis bərpa olunduqdan sonra məclis üzvləri tez-tez Bakıdan, "Məcməüş-şüəra" dan gələn şair qonaqlarla görüşlər təşkil edirlər. Bəzən Lənkəran məclisi Bakıda şairlər məclisinə qonaq gedir və oradakı şairlərlə görüşürlər. Təbii ki, bu görüşlər təkcə ədəbi söhbətlərlə yekunlaşmır, həm də müxtəlif mövzuları əhatə edən və əruz vəzninin fərqli janrlarında yazılmış deyişmələr də təşkil edirdi. Buna misal olaraq 1992-ci ilin avqustun 5-də Bakı "Məcməüş-şuəra" və "Fövcül-füsəha" məclisləri şairlərinin Lənkəranda görüşü zamanı bədahətən beytləşmələrini göstərə bilərik:

*"Mirsalam Müasir:*

*Fövcül- Füsəha şadu xuraman olub, ey dil,*

*Məcməüş –şüəra ta ona mehman olub, ey dil.*

*Ələkbər Şahid:*

*Gül qönçə açıbdır üzünü səhni – çəməndə,*

*Əğyarlərin qəlbi qızıl qan olub, ey dil.*

*Ələmdar Mahir:*

*Bu məhfili-irfanidə bilməm nə səfa var?*

*Əşari- lətifanə numayan olub, ey dil.*

*Namiq Şəfai:*

*Bir vaxt ayırdı bizi bu zövqi səfadan,*

*Yəqin arada iblisi şeytan olub, ey dil.*

*Mirhaşım Müsafir:*

*Nə yaxşı təsadüfdü İlahi, qəm içində,*

*Könlüm açılıb, gör necə xəndan olub, ey dil.*

*Seyidqızı Aliyə :*

*Mən fəxr edirəm, gün ötüşüb, sübh yetəndə,*

*Seydqızı da onlara mehman olub, ey dil.*

*Yaşar Əkbərov :*

*Gül eşqi ilə fəsli-bahar baxçada bülbül*

*Fəryadı ilə didəsi giryan olub, ey dil.*

*Əli Nasir :*

*Gəlmiş bizə Məcməüş –şüəra, eldən eşitdim,*

*Əfsus ki, "Motel" onlara ünvan olub , ey dil.*

*Ziyafət :*

*Ol, məclisində olmamışdım, tut məni məzur,*

*Neylim ki, mənə indicə elan olub ey dil* [224, s.106].

Göründüyü kimi, hər iki məclis üzvləri klassik irsə sadiq qalaraq onu qoruyub saxlamağı bacarmışdır. "Fövcül-füsəha" ədəbi məclisinin üzvləri təkcə hər hansı ədəbi-bədii gecələrdə və ya hər hansısa görüş zamanı deyil, həmçinin asudə

vaxtlarında belə toplaşdıqları zaman bədahətən maraqlı deyişmələr söyləmiş və məclisin əvvəlki dönəmlərindəki klassik irsini qoruyub saxlamışlar. Bu görüşlərdən birini şair Ziyafət belə vurğulayır: *1996-cı ilin aprelin 13-də Lənkəran şairlərinin bir qrupu Camal kişinin çayxanasına gəldi, beytləşmə oldu:*

*Oktay Zəka:*

*Düşündükcə düşünməkdən düşüncəm lal olub getdi,*
*Fikir badə gedən yerdə, xəyal xal-xal olub getdi.*

*Ağamir Cavad:*

*Həyat zindan, ömür dustaq, yenə nə qeylu-qal etdin,*
*Nədən dostum, bu zindanda saçın da çal olub getdi.*

*Ziyafət:*

*Ötüb getdi o xoş günlər, qalıb illər sorağında,*
*Bu həsrətlə keçən ömrüm, dodaqda bal olub getdi* [224, s.109].

Həmçinin, məclis üzvləri ara-sıra Lənkəran batalyonunun əsgərləri ilə, Cəfər Cabbarlı adına 1 nömrəli musiqi məktəbinin müəllim və tələbələri ilə də vaxtaşırı görüşlər təşkil edirdi. Bu görüşlərdən birini biz Ziyafətin Lənkəran şəhər 1 N-li musiqi məktəbinin pedaqoji kollektivi ilə "Fövcul-Füsəha" nın görüşünə ithaf etdiyi qəzəlindən də müşahidə edə bilirik:

*Qəlbimi eylədi şad, könlümü heyran bu görüş,*
*Eləyibdi nə gözəl – "Fövcünü" mehman bu görüş* [224, s.105].

Məclis bərpa olunduqdan sonra, məclis üzvlərinin bu sevinci misralarına da yansımışdır. Mirsalam Müasirin "Fövcül-füsəha" ədəbi məclisi bərpa olunduqdan sonra, onun yeni üzvlərinə ithaf etdiyi "Peymanə-peymanə" qəzəli bu baxımdan diqqətçəkicidir:

*...Sözə qiymət verənlər sözdə öz rüxsarını gördü,*
*Tikib söz mülkünü şaxlar necə insanə, cananə.*
*Müasir, muğri – dil pərvaz edər, sözdür qalan, dərk et,*
*Bu məclis əhlinə sən olmadın biganə, biganə* [ 152, s. 45].

Nadir Müzəffər "Fövcül-füsəha" ədəbi məclisinin Füzuli ruhunda Mirhaşım Talışlının yenidən bərpa etməsini, Mirsalam Müasirin də ona bu işdə kömək etdiyini öz qəzəlində belə tərənnüm etmişdir:

*Füzuli ruhuna bir tövhədir "Fövcül-füsəha".*
*Onu Qasirlə Musafir belə xeyrat elədi.*
*Bu təşəbbüsdə Müsafirə Muasirdi kömək.*
*Bu seyidlər bu səvabı demə asand elədi...* [160, s.6]

"Fövcül-füsəha" ədəbi məclisinin bərpası, Qasir ənənələrinə sadiqliyi Əli Nasirin yaradıcılığında da duyulur. Onun "Fövcül-füsəha" adlı qəzəlində bunu müşahidə edə bilirik:

*Sanki qayıdıb Qasir, gəldi dilə məstanə,*
*Xoş gəlmisən, ey Nasir, bu xaneyi-Yəzdanə* [52, s. 245].

"Fövcül-füsəha" məclisi tarixi keçmişimizi yaşatmağı bacaran, onu gələcək nəsillərə məxsus olduğu ab-havada ötürməyə çalışan, bugünkü nəsillərə olduğu kimi göstərməyin öhdəsindən gələn qiymətli daş-qaşlarla zəngin olan xəzinədir. Bu məclisi yenidən həyata qaytaran Mirhaşım Talışlının bu yolda xidmətləri misilsizdir. Araşdırmalar zamanı "Fövcül-füsəha"nın həyata ikinci qayıdışından sonra Mirzə İsmayıl Qasir dönəmindəki mövcudluğu arasında kifayət qədər fərqlər müşahidə edə bilirik. Belə ki, müstəqillik dövrü Lənkəran ədəbi mühitində yenidən fəaliyyətə başlayan məclis üzvlərinin dili daha sadə, ərəb və fars mənşəli sözlərdən kifayət qədər arınmış, əruz vəzni ilə yanaşı məclisdə heca vəzninin də bərabər istifadə olunan bir vəzn olduğunun şahidi oluruq. Əvvəl klassiklərə daha çox nəzirə, təxmis yazılırdısa, müstəqillik dönəmində bu ənənənin bir qədər zəiflədiyinin şahidi oluruq. Bu ənənə məclisin digər üzvlərindən fərqli olaraq Mirhaşım Talışlı yaradıcılığında daha çox müşahidə olunur. Mirzə İsmayıl Qasirin rəhbərliyi ilə yaradılan "Fövcül - füsəha" ədəbi məclisi iki hissədən ibarət idi, birincidə şüəralar – yəni şairlər, ikinci də isə füsəhalar – yəni natiqlər sayılan şəhərin digər ziyalıları. Hər ikisi birlikdə "Fövcül – füsəha" adlandırılsa da, müstəqillik dövründə ad olduğu kimi qalsa da, məclisdə yalnız şairlərin üzv olduğunun şahidi oluruq.

Məclisin əvvəlki dönəmləri ilə ortaq cəhət odur ki, istər Mirzə İsmayıl Qasir, istərsə də Mirhaşım Talışlının rəhbərliyi dövründə məclisdə Füzuli ənənələrinin təsiri daha çox müşahidə olunur. Düzdür, Mirzə İsmayıl Qasirin rəhbərliyi dövründə məclis üzvləri sırf qələmlərini əruz da sınadıqlarından bu dönəmdə Füzuli ənənələri daha çox müşahidə olunur. Lakin buna baxmayaraq Mirhaşım Talışlının rəhbərliyi altında fəaliyyətini davam etdirən məclisdə də əruz vəznində yazan şairlərin yaradıcılıqlarında Füzuli ənənələri müşahidə olunmaqdadır.

"Fövcül-Füsəha" ədəbi məclisinin yaranmasının 150 illik münasibəti ilə onu yenidən həyata qaytaran Mirhaşım Talışlı qəzəl yazaraq doğma yurdunda Mirzə İsmayıl Qasir ənənələrinə sadiq qalan ədəbi məclisin davamçılarının olduğunu göstərmişdir:

*"Fövcül –Füsəha" ömr eləyir, Lənkəranımda ,*
*Bənd eyləyib öz ardına zəncirləri vardır* [205, s. 70].

Müstəqillik dönəmində fəaliyyətə başlayan "Fövcül-füsəha" ədəbi məclisinin qurucusu Mirhaşım Talışlı ədəbi məclisə qonaq qismində gələnləri isti münasibətlə qarşılayaraq ədəbi söhbətlər apardığını müşahidə edirik. Ədibin bu xüsusiyyətlərini biz "Fövcül-Füsəha" ya qonaq gələn müxbirə yazmış olduğu aşağıdakı şeirindən də görürük:

*Xoş gəlmisən, əziz qonaq, gəl otur,*
*Bu məclisə gözəl əqidəylə gəl!*
*Natiqlərin məclisidir bu məclis,*
*Bura qoşma, qəzəl, qəsidəyə gəl* [205, s.84].

"Fövcül-Füsəha" ədəbi məclisinin bərpa olunması bölgə ədəbi mühitində hamının sevincinə səbəb olan hallardan biridir. Belə ki, bölgədə fəaliyyət ziyalılardan bir çoxu məclisin bərpa olunması münasibəti ilə öz təəssüratlarını məclisi təkrar bərpa edən Mirhaşım Müasirə məktub şəklində göndərmiş və minnətdarlığını bildirmişlər. Onlardan biri də Yaşar Rzayevdir. O "Fövcül-füsəha" ədəbi məclisi haqqında öz təəssüratlarında yazır: *"Möhtərəm Mirhaşım müəllim! "Fövcül – füsəha" ədəbi məclisinin bərpa olunması və "Şəm" ədəbi bülleteninin buraxılması*

*lənkəranlılar, söz xiridarlarının və qələm sahiblərinin pərəstişkarları kimi məni də çox sevindirdir... belə hesab edirəm ki, bərpa etdiyiniz "Fövcül-füsəha" məclisi tarixi keçmişimizi yaşadan, bu günkü nəslə göstərən bir qoruqdur. Bu qoruğu təşkil etmək, yaşatmaq isə böyük hünərdir, müqəddəs işdir, Mirhaşım müəllim! Siz bir daha xalqa keçmişimizin dəyərlərini göstərirsiniz. Göstərirsiniz ki, Lənkəran tarixən Azərbaycanın iqtisadi və sənətkarlıq mərkəzlərindən biri olduğu kimi, həm də mədəniyyət mərkəzlərindən, söz sənəti mərkəzlərindən biri olmuşdur... Mirhaşım müəllim, məclisi bərpa edənləri də, onun yandırdığı "Şəm" in ətrafına toplaşanları da mən böyük fədakar adlandırardım. Ağsaqqal təbibimiz Mirsalam Müasir, Xanəhməd, Vəlişah, Əlisəfa Həsənov, Ağamir Cavad, Məşədi Səmədağa və başqaları gərək bilsinlər ki, "Fövcül-Füsəha"nın "Şəm" ini yandırmaqla hər cür ehtirama və minnətdarlığa layiqdirlər* [172, s.290].

Həqiqətən də, müstəqillik dövrü Lənkəran ədəbi mühitində klassik ənənələri qoruyub saxlayan, varlığı ilə bölgə ədəbi mühitinə yeni rəng qatan "Fövcül-füsəha" ədəbi məclisinin təkrar fəaliyyətə başlaması təqdirə layiq haldır. Araşdırmalar zamanı görürük ki, belə bir məclisinin bölgədə mövcudluğu ədibləri klassik irsə daha da bağlayır.

### 3.2. "Ziya" ədəbi məclisi və gənc yazarlar

"Ziya" ədəbi məclisi 1998-ci ildə şair Ziyafət Əkbərov tərəfindən yaradılmışdı. "Fövcül-füsəha " ədəbi məclisinin, eləcə də Lənkəran ədəbi birliyinin istedadlı nümayəndələrindən biri olan Qasir, Nəccar, Şəhban ənənələrinin ləyaqətli davamçılarından biri Ziyafət Əkbərovun "Ziya" ədəbi məclisini yaratmaqda əsas məqsədi orta məktəbdə təhsil alan istedadlı uşaqların yaradıcılıq potensialını üzə çıxarmaq və Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölməsinin poeziya daşıyıcılarının imkanlarını ədəbi müstəvidə daha da genişləndirmək idi. Qısa bir vaxtda sözdən-sözə, misradan-misraya, şeirdən-şeirə inkişafda olan "Ziya" nın uğurları rayon İcra Hakimiyyətinin başçısı, yazıçı Yaşar Rzayevin də diqqətini özünə çəkdi və onun tapşırığı ilə 1999-ildə "Ziya" ədəbi məclisinin bir yaşı Lənkəran Dövlət

Dram Teatrında qeyd olunmuşdur. Yarandığı zaman çərçivəsində tez bir zamanda bölgədə öz nüfuzu ilə seçilən “Ziya” ədəbi məclisi bir çox istedadların yetişməsi üçün münbit ədəbi şərait yaratmışdır. Seçilən istedadlar da həmçinin müxtəlif tipli müsabiqələrdə qalib gələrək “Ziya”nın uğuruna uğur qatmaqda idi. Belə ki, 2001-ci ildə Təhsil Nazirliyinin Respublika ümumtəhsil orta məktəb şagirdləri arasında keçirdiyi “Dövlətimdə sülh olarsa” adlı şeir-baxış müsabiqəsinin üç qalibindən biri "Ziya" ədəbi məclisinin üzvü Ülfət Əkbərli olmuşdur. 2001-ci ildə Respublika Rabitə Nazirliyinin “Sevdiyin adama məktub” başlığı altında inşa yazıları üzrə keçirdiyi müsabiqədə isə “Ziya” ədəbi məclisinin daha bir üzvü Məlahət Əliyeva həmin müsabiqənin qalibi olmuşdur. Qazanılan bu uğurlar getdikcə bir çox şairlərin, tənqidçilərin diqqətini cəlb etmişdir. Tənqidçi Vaqif Yusifli, “Ulduz” jurnalının baş redaktoru şair Ələkbər Salahzadə və başqaları dəfələrlə Lənkəranda “Ziya” nın qonağı oldular.

Şair Ziyafətin “Ziya” ədəbi məclisini yaratması qələm dostlarının da diqqətini daha çox cəlb etmişdir. Hətta Vaqif Cavadov şairə ithafən yazdığı “Ziyafət” adlı şeirində onun yaratdığı məclisi, bağ özünü isə bağban adlandıraraq şairin ədibin bu işinə çox böyük dəyər vermişdir:

*İlhamını eldən aldın,*
*Təzəliklə bir bağ saldın.*
*Özün ona bağban qaldın,*
*Bəhrən olsun bol Ziyafət* [32, s.133].

Təbii ki, “Fövcül-füsəha” nın işığı ilə yaranan “Ziya” ədəbi məclisi müstəqillik dövrü Lənkəran ədəbi mühiti üçün böyük bir ədəbi hadisədir. Hələ də varlığını qısa fasilələrdən sonra sürdürməyi bacaran “Ziya” məclisinin gənc yetirmələri və onların fərqli yaradıcılıq yolu diqqət çəkicidir - ilk növbədə əlbəttə ki, məclisin fundamentini qoyan Ziyafət Əkbərovun öz yaradıcılıq yolu. “Ziya” ədəbi məclisinin qurucusu Ziyafət Əkbərovun yaradıcılığı həm zəngin, həm fərqliliyi ilə də seçilir. Yaradıcılığında həm klassik şeir ənənələrindən, həm də müasir biçimlərdən, yeri gələndə xalq şeri şəkillərindən istifadə etməyi bacaran şairin bədii irsi müstəqillik

dövrü Lənkəran ədəbi mühitində özünəməxsusuluğu ilə diqqət çəkir. “Ziya” ədəbi məclisini yaratmaq şairin “Fövcül-füsəha” ədəbi məclisinə olan sevgisindən, dərin bağlılığından irəli gəlib desək yanılmarıq. Belə ki, “Fövcül -füsəha” məclisinin üzvlərindən biri olan Ziyafət tez-tez qəzəllərində məclisin adını işıqlandıraraq həm sözə, həm də məclisə olan dərin sevgisini göstərməyə çalışmışdır. Apardığımız araşdırmalar zamanı bunu onun bir çox qəzəllərindən eləcə də, “Gətiribdir” rədifli qəzəlindən də görə bilirik:

*“Fövcümüz” indi bizim canımıza can gətirib,*
*Şükr olsun kişilər Tanrıya iman gətirib...*
*Bu Ziyafət dolaşıb çox belə urfanələri,*
*Ona bu məclisə həsrət dolu hicran gətirib* [224, s.68].

Məhz “Fövcul-füsəha”nın sözünün sehri ilə “Ziya” ədəbi məclisini yaradan şairin yaradıcılığında klassik şeir nümunələrinə, xüsusilə qəzəllərə daha çox rast gəlirik. Klassik irsə bağlı olan şairin “Sinəm beytul- həzəndir, ey könül, qəmxanə axtarma”, “Nə edim, yar, ilahi, məni giryan elədi”, “Ol gül üzlü yarı mən, xeyli zamandır, gözlərəm”, “Babam yurdu Azərbaycan, o bir “mən” dir o “mən” yanmaz”, “Gəl vida eyliyək, ey sevgili canan, gedirəm”, “Hicrindən hicranə yandım, neyləyim hicranə mən”, “Kimi qışdan bahar istər, kimi yoxdan da var istər” və yaxud M. Şəhriyarın eyni adlı qəzəlinə nəzirə olaraq yazılmış “Ulduz sayaraq gözləmişəm hər gecə yarı” [224] və s. bu kimi əruz vəzninin müxtəlif bəhrlərində yazılmış qəzəllərini nümunə göstərə bilərik.

Ziyafət Əkbərovun yaradıcılığı təkcə qəzəllərlə məhdudlaşmır. Bildiyimiz kimi “*Şifahi ədəbiyyat – qüdrətli söz sənəti misilsiz xəzinədir. Xalq müdrikliyini təcəssüm etdirən folklorda onu yaradanların adəti, mühiti, yenilməzliyi, dünyagörüşü, ürəkləri yandıran kədəri, qəmi, yadellilərə nifrəti, təbiətin kortəbii qüvvələrinə, xarici və daxili düşmənlərə qarşı mübarizəsi və s. əks olunur*” [1, s.7]. Həm də *“folklor yazılı ədəbiyyatda bir sıra növ və janrların yaranmasında ilkin mənbə kimi əhəmiyyətli rola malikdir*” [77, s.64]. Eləcə də biz bu fikirlərin doğruluğunu bir daha Ziyafətin yaradıcılığında da görürük . Belə ki, yaradıcılığında tez-tez bayatıya yer verən şair

bu dörd misralıq – folklorumuzun ən məşhur janrına bütün hiss və düşüncələrini sığdırmağı bacarmışdır. Şifahi xalq ədəbiyyatımıza nəzər salsaq görərik ki, *"ictimai-məzmunlu bayatılarının çoxunda vətən həsrəti, qürbət, qəriblik kimi səciyyəvi motivlər üstünlük təşkil edir. Bu qəbil nümunələrdə həm ayrı-ayrı tarixi kəsimin izləri, həm də ictimai-siyasi hadisələrin doğurduğu amillər ümumiləşdirmişdir*" [11, s.11]. Biz bu ab–havanı Ziyafət Əkbərovun bayatılarından da duyuruq. Araşdırmalar zamanı müşahidə edirik ki, onun bayatılarının əksəriyyətində Qarabağ və onun ağrısı, acısı, sızıltısı duyulmaqdadır. Şair ictimai-siyasi hadisələrdən doğan dağ boyda Qarabağ dərdini bayatı misralarına məharətlə sığdıraraq oxucuya bu qəm-qüssəni dolğunluğu ilə çatdıra bilir:

*Əzizim qara bağlar,*
*Yel əsdi qara bağlar.*
*Bu dərd ilə Qarabağ*
*Başına qara bağlar* [224, s. 60] .

Şairin yaradıcılığındakı vətənpərvərlik motivləri həmçinin onun heca vəznli şeirlərindən də duyulmaqda davam edir. Bu şeirlərə nümunə olaraq "Azərbaycan", "İstəmirəm", "Azərbaycan, dünyam mənim", "Öləydim", "Olmayaydı kaş" , "Bəsdi", "Bir də mən" i [224] göstərə bilərik. Ziyafət həm də incə ruhlu məhəbbət şairidir:

*Günəş olsaydım əgər,*
*Açılmaz səhərlərin*
*Yaxasını açardım,*
*Dan yerini sökərdim.*
*Üfüqlərdən boylanıb,*
*Ömrünü yollarına*
*Gülüm, işıq saçardım ...* [224 s.21]

Şairin yaradıcılığının əsas özəlliklərindən biri də mənsur şeirlərdir. Müstəqillik dövrü Lənkəran ədəbi mühiti üçün bəlkə də yeni sayılan bu janrdan "Fövcül – füsəha" davamçısı məharətlə istifadə edərək həm öz yaradıcılığına, həm də bölgə ədəbi mühitinə yeni rəng qatmışdır. Tədqiqatçı alim Nizaməddin Şəmsizədə mənsur

şeir haqqında yazır: *"mənsur şeir şair qəlbinin lirik-poetik bəyanatıdır"* [196, s.200]. Həqiqətən də, biz bunu Ziyafətin mənsur şeirlərindən hiss edirik. Şairin mənsur şeirlərinə nümunə olaraq "Əlvida dedi sevgilim", "Yandı, qurtardı şam", "Oxu ey sevgilim", "İlk məhəbbətim", "Düşüncələrim", "Qələmim mənim", "Gözlərini sevirəm", "Gülümsə", "Bilmirəm", "Bir gün" [224] göstərə bilərik.

"Ziya" ədəbi məclisinin qurucusu Ziyafətin yaradıcılığının özünəməxsusluğu məclisin üzvlərində- şairin yetirmələrinin yaradıcılığında da duyulur. Eləcə də "Ziya" ədəbi məclisinin ilk üzvlərindən biri olan Ülfət Ziyafətqızının yaradıcılığı da bu qəbildəndir. İlk dəfə 7 yaşında əlinə qələm alıb "Ey ana Vətən" adlı şeirini yazan balaca qızcığaz zaman keçdikcə daha da püxtələşirdi. Dünyagörüşünün və ədəbiyyata olan marağının formalaşmasını gənc yazar belə əsaslandırır: *"Atam şair olduğu üçün tez-tez bizim evdə ziyalı insanlar, şairlər qonaq olurdu. Bu mənim uşaq təfəkkürümdə böyük izlər saxlayırdı. Zaman keçdikcə şeir-poeziya damarlarımdakı qana qarışıb duyğulara qol açan ruhum boyu gedirdi. 1994-cü ildə dahi şairimiz M. Füzulinin 500 illik yubiley gecəsinin rayon üzrə tədbirinin bizim evdə qeyd olunması mənim həyatımda ən unudulmaz günlərdən biri oldu. Evimizə çoxlu şairlər, yaradıcı insanlar, ziyalılar gəlmişdi. Mən də o tədbirdə Füzulinin qəzəllərindən söylədim, ürəyimdə böyük fərəh və qürur hissi keçirirdim ki, Füzuli dənizində bir zərrə də mənə aid oldu*" [225, s. 4]. Təbii ki, gənc yazarın söylədiyi bu sözlər müstəqillik dövrü Lənkəran ədəbi mühitinin dinamikasını bir daha gözlər önünə sərgiləyir.

Ülfət Ziyafətqızının özünün qeyd etdiyi kimi *"şair Ziyafətin təşəbbüsü və rəhbərliyi ilə 1998-ci ildə yaranan "Ziya" ədəbi məclisinin rolu həyatımda əvəzedilməz oldu. Bu ədəbi məclisdə biz – məktəb yaşlı şagirdlər şeirin, ədəbiyyatın nəzəri cəhətlərini öyrənib Lənkəran ədəbi mühitində yazdığımız şeirlərlə çıxış etməyə başlamışdıq*" [225, s. 4]. "Ziya" ədəbi məclisinin ən fəal üzvlərindən olan Ülfətin "Müharibə olmasın" adlı şeiri 2001-ci ildə 15-25 yaşlı gənclər arasında keçirilmiş "Mənim Dövlətimdə sülh olarsa…" adlı Respublika baxış müsabiqəsində şeir nominasiyası üzrə qalib gəlir. Əlbəttə ki, bu uğur gənc yazarın özü ilə birlikdə "Ziya" ədəbi məclisinin də uğuru idi. Heca vəznində yazılan, zəngin qafiyə sisteminə malik

olan bu şerində balaca qızcığaz öz böyük düşüncələrini məharətlə qələmə almağı bacarmışdır:

*Anaların ahlarından*
*Vətən qara bağlamasın.*
*Oğulların itkisinə*
*Yana-yana ağlamasın…*
*Doğsun vətən göylərində*
*O günəş ki, adı sülhdür.*
*Azadlığın sorağında*
*O əllərdə bir silahdır* [225, s.8].

“Ziya” ədəbi məclisinin “Fövcul-füsəha” ənənələri əsasında formalaşması, bədii ruhu nəinki məclisə sirayət etmiş, hətta məclisin gənc üzvləri vaxtaşırı onun ustadlarını da yad etmişlər. Bunu biz Ülfət Ziyafətqıznın XIX əsr Lənkəran “Fövcül-füsəha” ədəbi məclisinə rəhbərlik etmiş ustad şair Mirzə İsmayıl Qasirin qəbrini ziyarət edərkən yazmış olduğu “Günəşi oldun” şeirindən də görürük:

*Ziyarətə gəldim, ey böyük ustad,*
*Durmuşam büsbütün önündə indi.*
*Ruhunu içdikcə mən damla-damla,*
*Qəlbimə qısılan sözlərin dindi….*
*Müəllimi oldun, ölməz sənətkar,*
*“Fövcül-füsəha” tək söz məktəbinin.*
*Şeiriyyat bağladı səni bu elə,*
*Sən günəşi oldun talış elinin* [225, s.21].

Gənc şairənin yaradıcılığında əruz vəznində yazılmış qəzəllər də diqqət çəkicidir. “Doğulan arzulara laylay dedi dərdin özü”, “Bir əmanətdir tənim, mən ölürəm can verirəm”, “Qışı məğlub edərək ömrümüzə gəldi bahar”, “Gəldi bahar, açdı gülüm, gördü gözüm qaş-gözünü” [225] kimi qəzəlləri Ülfət Ziyafətqızının gənc olmasına baxmayaraq əruza, klassik irsə bağlılığını sübut edən amillərdən biridir. O, həmçinin yaradıcılığında müəllimi Ziyafət Əkbərovun yaradıcılığında olduğu kimi

mənsur şeirlərə də yer verib. Araşdırmalardan məlumdur ki, *"mənsur şeirdə lirikanın, lirik ovqatın üstünlüyü, hər hansı predmetin, yaxud həyat anının müşahidənin, yaşantının oyatdığı, hissiyyatın həzini, kövrək, emosional tərzdə ifadəsi aşkar görünür* " [196, s.197]. Ülfət Ziyafətqızının "Tənhalığım " adlı mənsur şeirində olduğu kimi: *"Tənhalığım baş-başadır mənimlə... Ruhumu dilləndirir nəmli baxışım. Günahsızdır göz yaşım... Tənhalığım baş-başadır mənimlə... Həmdəmimdir yenə o dərdli qonaq... Bitsin bu kədər, tənha qoysun məni tənhalıq... Dərd böyüsün içimdə... Tənhalığım baş-başadır mənimlə... Duyğularım, hardasız? Qol uzadıb alın məni tənhalığın əlindən ... Sevgi istəyirəm... Sevgimlə baş-başa qalmaq istəyirəm... Tənhalığım baş-başadır mənimlə..."* [225, s.179]. Aparılan araşdırmalar zamanı əldə olunanlara əsasən Ülfətin bu tip mənsur şeirlərinə nümunə olaraq "Gözlərini sevirəm", "Gecədir", "Dəniz istəyirəm", "Düşüncələr", "Şair olsun", "Sevgi bulağı", "Təkcə", "Yuxu" , "Yağış" [225] göstərə bilərik.

"Ziya" ədəbi məclisinin gənc yazarlarından biri də Aysel Səfərlidir. Çox fərqli və poetik üstünlükləri ilə seçilən Aysel Səfərlinin yaradıcılığında müasir düşüncə tərzi və bu düşüncə tərzinin sığışdırıldığı forma biçimləri müstəqillik dövrü Lənkəran ədəbi mühiti üçün yenilikdir. Gənc yazarın şeirlərində poetik ovqat olduqca yerində və rəngarəng formadadır. Ana, vətən, sevgi hisslərinin aliliyi onun şeirlərində özünə xüsusi yer tutub. Müəllimi Ziyafət onun haqqında belə deyir: "*1998-ci ildə Lənkəran Yaradıcılıq Mərkəzində orta məktəb şagirdlərindən ibarət "Ziya" ədəbi məclisini yaratdım. Bu məclisdə Ayselin sətirlərində yanıb qovrulmaq arzusunu duyduqca hisslərim mənə bu qızın gələcəkdə istedadlı şairə olacağından xəbər verdi və yanılmadım... Şeirlərində dərddən-dərdə, sevincdən-sevincə asta-asta addımlayan kövrək qəlbli bu məktəbli qızın hadisələrə başqalarından daha fərqli yanaşması diqqətimi cəlb etməyə bilməzdi"* [178, s.38].

Aysel Səfərlinin yaradıcılığında daha çox rast gəlinən məqamlardan biri də gənc yazarın mütəmadi olaraq qələmini sərbəst şeir ilə sınamasıdır. Məlumdur ki, "*fikrin və məzmunun yaratdığı ritm sərbəst şeirdə müxtəlif yön və istiqamətdə poetik enmələr və yüksəlmələr şəklində olur. Sanki söz-sözə, fikir-fikirə hopur, misralar və*

*sözarası fasilələr təbii yaranır. Şeirdə bəndlərə, əlavə yükə və səciyyənləndirməyə ehtiyac qalmır. Ona görə ki, sərbəst şeirdə tərkiblər, söz və ifadələr, rəng, boya və mənzərələr hiss və duyğuların, fikir, düşüncə və arzuların tələbi ilə işlənir"* [68, s.229]. Gənc yazar sərbəst şeirin bütün ağırlıqlarını aşağıdakı misralardan da aydın olduğu kimi daşımağı bacarmışdır:

*Ümid yamadım qəlbimə,*
*Tikişlərim tutmadı.*
*Həyat iynəmi*
*Qara sapla sapladı.*
*Ağ günlərimin ağ sapı*
*Köhnəldi,*
*Söküldü...* [178, s.116]

Aysel Səfərlinin sərbəst şeirlərində olan fəlsəfi düşüncə tərzi heca vəznli şeirlərində də duyulmaqdadır:

*İtirdim gözümün fırçasını da,*
*Rəngli görəmmirəm ömrünü daha .*
*Bəxtimin yarımçıq tablolarını,*
*Dərddən satın alıb ruhum çox baha* [178, s. 135].

"Ziya " ədəbi məclisinin üzvləri arasında Mikayıl Müşfiqlə Rəsul Rza, Səməd Vurğunla Osman Sarıvəlli yaradıcılığından sezdiyimiz dostluq münasibətləri də olub, hansı ki, bu dostluq münasibətləri onların yaradıcılığına da yansıyıb. Bu dostluq münasibətlərini məclis üzvlərindən Ülfət Ziyafətqızı və Aysel Səfərlinin poeziyalarından duymaq olur. Ülfət Ziyafətqızının yaxın dostuna yazmış olduğu "Qaragiləm" [225, s.13] və yaxud Aysel Səfərlinin ona yazmış olduğu "Hardasan dostum" [178, s.78] adlı şeirləri gənc yazarların dostluğa verdiyi dəyərin bariz nümunəsidir. Həmçinin iki gənc yazar arasında olan deyişmələrdə də həm onların dostluğu, həm də poeziyaya vurğunluğu, eyni dildə danışmağı bacara bildikləri əks olunub. "Hardasan dostum" adlı deyişmədə olduğu kimi:

Aysel Səfərli:

*Qəlbim həsrətinin toy büsat yeri,*
*Sənlə paylaşmışdıq orda çox sirri;*
*Bu gecə oyadıb xatirələri,*
*Sənli günlərimə mən qurban kəsim,*
*Elə tənhayam ki, hardasan, dostum?* [178, s.77]

Aysel Səfərlinin qürbətdə - İspaniyada yaşadığı dönəmdə yazmış olduğu bu şeirə yaxın dostundan cavab gəlir:

Ülfət Ziyafətqızı:

*Zülmət qaranlıqdan səhər doğular,*
*Ayrılıq ömrümə vüsal çağırar,*
*Gözümdə xəyalın yatıb yuxular,*
*Sənsiz bu həyata, bu ömrə küsdüm,*
*Elə tənhayam ki, hardasan ,dostum*? [225, s.10]

"Ziya" ədəbi məclisinin üzvləri arasında öz dəst-xətti ilə seçilən gənc yazarlardan biri də Xaqani Muğamatoğludur. Saf sevgi duyğuları, insanlara məhəbbət hissi, müqəddəsliyə ehtiram, vətəndaşlıq ləyaqəti və digər bu kimi dəyərli hissləri yaradıcılığında əsas leytmotivə çevirməyi bacaran Xaqaninin şeirləri rəngarəngliyi ilə seçilir. Ağamir Cavad gənc şair haqqında deyir: "*İstedaddan söz düşərkən yadıma Xaqaninin hələ orta məktəbdə oxuduğu illərdə Lənkəran Şəhər Uşaq Yaradıcılıq mərkəzində fəaliyyət göstərən "Ziya" ədəbi məclisinə gəldiyi günlər yadıma düşdü. Burada şeir yazmaq həvəsində olan məktəblilər bu sənətin sirlərini öyrənməyə çalışırdılar. Həmin məktəblilər ara-sıra ən çox seçilən, təbii istedada malik uşaqlardan biri də Xaqani Bədəlov idi. Bu uşaqlardan çoxu: "Həvəsdi, bəsdi", - deyib özlərinə başqa bir sənət seçdilər. Xaqani isə özünün dediyi kimi, "bu zindanın ədəbi məhkumuna" çevrildi. Qismətini, taleyini sözə bağladı"* [156, s.4].

Xaqani Muğamatoğlunun yaradıcılığına diqqət yetirdiyimiz zaman onun həm əruz, həm heca, həm də sərbəst formada yazılmış şeirlərinə rast gəlirik. Ancaq yaradıcılığının dərinliyinə baş vurduqca gənc yazarın əruza, qəzəl yazmağa daha çox

meyilli olduğu hiss olunur.  Xüsusilə  gənc yazarın qəzəllərində Füzuli nəfəsi, Nəsimi ruhu duyulur:

*Can verib canıma canan, canımı can çağırır,*
*Şükr olsun Tanrıya, dərdimə dərman çağırır...*
*Bu Xəqani, şəmi – eşqin dəli pərvanəsidir,*
*Şəmi – eşqi də onu odlara gəl yan çağrır* [156, s.82].

Hətta Xaqani beytlərinin birində böyük Füzulini özünün söz şahı, qəzəli ilə təxtü-tacı adlandırır:

*Ey Xaqani, dikmə göz söz taxtının sultanına ,*
*Sözdə şahımdır Füzuli, taxtu – tacımdır qəzəl*  [156,s.111].

Qəzəllərində bəzən özünü hətta Nəsimiləşdirən yazar dahi ustada olan vurğunluğunu  sözün gücü ilə oxucuya çatdırmağa çalışır:

*Ey,  Xaqani, sən Nəsimisən, dönübsən aləmə,*
*Səndə mən kafərləri asmaqda cürət istərəm* [156, s.84]

Xaqaninin  klassik irsə bağlılığı təkcə onun qəzəllərindən deyil həmçinin satirik şeirlərindən də duyulur. Onun satiralarında Sabiranə ruh nəinki duyulmaqla məhdudlaşmır, hətta yeri gələndə gənc yazar böyük ustada nəzirə yazaraq çox ağır bir yükü çiyinlərinə almağı da bacarır. Buna misal olaraq Xaqani Muğamatoğlunun Mirzə Ələkbər Sabirin  "Ürəfa marşı" na   yazmış   olduğu  nəzirəni  göstərə bilərik:

*İntiligentik, tanır aləm bizi ,*
*Oğru, səfil, həm də əğli kəm bizi.*
*Olmasa pul, tutsa əgər qəm bizi,*
*Biz xamı, əvvamı tutub xamlarıq,*
*Ay bərəkallah, nə gözəl canlarıq* [156, s.119].

Müəllimi Ziyafət kimi yaradıcılığında bayatılara da yer verən Xaqani Muğamatoğlu ustadından fərqli olaraq bayatılarında daha çox məhəbbət motivlərini ön planda vermişdir:

*Çiçəyimsən, gülümsən,*
*Qəlbimi ov, gülüm sən,*

*Özgəyə vermərn səni,*

*Sən mənim öz gülümsən* [156, s.68].

"Ziya" ədəbi məclisinin üzvləri arasında təkcə qələmini nəzmdə deyil nəsrdə sınayanlarda olmuşdur. Onlardan biri də Gülüş Vahabovadır. Qələmini hekayə və povest janrında sınayan Gülüş gənc olmasına baxmayaraq bu işin öhdəsindən az da olsa gələ bilmişdir. Nəsrində diqqətə çəkilən Azərbaycan döyüşçülərinin qəhrəmanlığı, onların mənəvi dünyalarının zənginliyi, hadisələrin təbiiliyi, obrazların psixoloji planda təqdimi Gülüş Vahabovanın uğuru kimi qiymətləndirilə bilər. Gülüşün qəhrəmanları Vətəninin, torpağının təəssübünü çəkən, öz ailəsinin, ev-eşiyinin problemlərini Vətən adlı ümumi evin problemlərinin tərkib hissəsi kimi qavrayan, ən çətin məqamlarda öz dəyanətini itirməyən, lazım gəlsə amalı uğrunda canını belə əsirgəməyən gənc Azərbaycan oğullarıdır və müəllif onların daxili aləmlərini – təmənnasız məhəbbətlərini, arzularını, istəklərini, düşmənə bəslədikləri sonsuz nifrəti ifadə etmək üçün maraqlı detallar tapır.

Hekayə və povestlərində öz qəhrəmanlarını düşünüb-danışdıqları məqamda təsvir etməklə kifayətlənməyən, onları ən gərgin vəziyyətlərdə sınağa çəkən, xarakterlərini bilavasitə döyüş meydanında saf-çürük edən Gülüşün qəhrəmanları bu sınaqlardan həmişə alnıaçıq, üzüağ çıxır. "Uca dağlar qoynunda" hekayəsində Rövşən obrazı, "Kəşfiyyatçı" hekayəsində Məmməd, Azər, "İnsanları udan əjdaha" [215] hekayəsində Ağakərim, Teyyub obrazları şərəfli ölümü şərəfsiz yaşamaqdan üstün tutan ləyaqətli oğullar kimi oxucunun rəğbətini qazanır.

Gülüş Vahabova hekayələrini hər şeydən öncə real qəhrəmanlara ithaf edərək yazıb. "Uca dağlar qoynunda" hekayəsində canlandırmağa çalışdırdığı Rövşən obrazı özünün də qeyd etdiyi kimi "*199-ci il sentyabrın 12-də Şayıflı-Qazancı istiqamətində gedən döyüşdə qəhrəmancasına həlak olan Azərbaycanın Milli Qəhrəman leytenant Rövşən Abdullayevin əziz xatirəsinə həsr olunub"* [215, s.5]. Həmçinin gənc yazar "Kəşfiyyatçı" hekayəsində erməni təcavüzkarlarına qarşı döyüşdə qəhrəmancasına şəhid olmuş Məmməd Fərzullayevi - Məmməd obrazının simasında canlandırmağa çalışmışdır. Gənc yazarın vətənpərvərlik hissləri, torpağına, elinə, obasına bağlılığı

bütünlüklə yaradıcılığına hopmuşdur. Araşdırmalar zamanı Gülüş Vahabovanın mövzu seçiminin rəngarəngliyi, təbiiliyi diqqət çəksə də, yazı üslubunun bir qədər bəsitliyinin də şahidi oluruq. Ümumiyyətlə isə, "Ziya" ədəbi məclisinin üzvləri arasında nəzmin daha çox ön planda olduğunun şahidi oluruq. Elə buna görə də məclis üzvləri arasında nəsr bir qədər sönük qalır. Bunun əsas səbəblərindən biri kimi "Ziya" ədəbi məclisinin qurucusu Ziyafət Əkbərovun daha çox nəzmə önəm verməsi, eləcə də məclis üzvlərinin mütəmadi olaraq daha çox şeirin nəzəri cəhətləri, strukturu, yazılma texnikası, quruluşu və s. haqqında fikir mübadiləsi aparmalarını göstərmək olar.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində "Ziya" ədəbi-məclisi mühitdə ədəbi həyatın qaynar olduğuna dəlalət edən ən böyük dəyərlərdən biri kimi qiymətləndirilməlidir. Həm qaynar ədəbi mühitə, həm də bəzi məclis ənənələrinə sahib digər bölgələrə - Borçalı ədəbi mühitinə, Maştağa ədəbi mühitinə, Naxçıvan ədəbi mühitinə, Şamaxı ədəbi mühitinə, bütövlükdə yurdumuzun ayrı-ayrı yerlərində olan ədəbi həyata nəzər saldığımız zaman gənclərdən ibarət hər hansısa bir məclisə rast gəlinmir. "Ziya" ədəbi-məclisi "Fövcül-füsəha"nın təsiri ilə bu ənənələri qoruyan, sözə dəyər verməyi bacaran gənc nəsli onun sehri ilə yetişdirməyə çalışan qiymətli bir məktəbdir. Gənclərin poeziyaya, sözə vurğunluğunu ön plana çəkən "Ziya" ədəbi-məclisi hələ də varlığını sürdürərək mühitdə istedadlı gənclərin üzə çıxmasına şərait yaradır.

Tədqiqat işinin III fəslini əhatə edən əsas müddəalar ədəbiyyat siyahısının 124, 131 nömrələrində göstərilən məqalə və tezisdə əks olunmuşdur.

# NƏTİCƏ

“Müstəqillik dövrü Lənkəran ədəbi mühiti” adlı elmi tədqiqat işi zamanı əldə etdiyimiz nəticələr bir daha onu göstərir ki, bölgədə həqiqətən də çox böyük qaynar ədəbi mühit olmuş və hələ də bu qaynarlıq davam etməkdədir. Bunun əsas göstəriciləri kimi bölgədə hələ də varlığını qoruyub saxlayan ədəbi məclislərdir. İstər artıq qələmi ilə öz sözünü demiş və bölgədə tanınmış ədəbi simaların toplandığı “Fövcül-Füsəha” ədəbi məclisi, istərsə də qələmini yeni-yeni poeziyada sınamağa çalışan gənc yazarların toplandığı “Ziya” ədəbi məclisi bu qaynarlığı sübut edən əsas amillərdəndir.

Araşdırmadan belə qənaətə gəlmək olar ki, bölgədə lirik növdə yazılmış əsərlər daha çox üstünlük təşkil edir. İstər mövzu, istərsə də lirik növün janr müxtəlifliyi bu növün Lənkəran ədəbi mühitində aparıcı mövqe tutduğunu göstərir. Həmçinin lirik növün həm ənənəvi, həm də sonet, ballada kimi avropasayağı janrlardan istifadə olunması bölgə ədəbi mühitində poeziyaya verilən önəmin, üstünlüyün əsas göstəricilərindən biridir. Tədqiqat zamanı, lirik növdə yazılan nümunələr içərisində heca vəzninin daha çox üstünlük təşkil etdiyinin şahidi oluruq. Əruz vəzni bölgədə əvvəlki aktuallığını itirsə də, varlığını qoruyub saxlamağı bacarmışdır. Sərbəst şeir isə heca və əruz vəzni kimi bölgədə üstünük təşkil etməsə də, müstəqillik dönəmində kifayət qədər nümunələri ilə qarşılaşırıq.

Aparılan tədqiqat zamanı müstəqillik dövrü Lənkəran ədəbi mühitində bədii nəsrin də kifayət qədər inkişaf etdiyinin şahidi oluruq. Əvvəlki dövrlərdən fərqli olaraq bədii nəsr nümunələrinə müstəqillik dövründə daha çox üzləşirik. Tədqiqat zamanı aydın olur ki, nasirlər ən çox hekayə janrına müraciət edib. Ancaq povest və roman janrının da kifayət qədər nümunələri bu janrın bölgə ədəbi mühitində inkişafından xəbər verir.

Tədqiqat zamanı aydın olur ki, müstəqillik dövrü Lənkəran ədəbi mühitində publisistika da inkişaf edib. Bölgədə fəaliyyət göstərən qəzet və jurnallar bu sahənin inkişafına birbaşa təkan vermişdir. Bölgədə yazıb yaradan ədiblərin mütəmadi olaraq

bu mətbu orqanlarda dərc etdikləri müxtəlif məzmunlu yazıları bu inkişafın əsas göstəricilərindən biridir.

Lənkəran ədəbi mühitində eyni zamanda uşaq ədəbiyyatı da inkişaf etmişdir. Aparılan tədqiqat zamanı uşaq ədəbiyyatının bir-birindən maraqlı nümunələri ilə qarşılaşmağımız bu fikri səsləndirməyimizə şərait yaradır. Uşaqların təlim tərbiyəsində müstəsna əhəmiyyətə malik uşaq ədəbiyyatı əvvəlki dönəmlərdən fərqli olaraq daha çox müstəqillik dövründə inkişafı etmişdir.

Tədqiqat zamanı Lənkəran ədəbi mühitinin mövzuca rəngarəngliyi də diqqət çəkir. Əldə olunan nəticələrə uyğun olaraq qeyd etmək lazımdır ki, lirik növdə yazılan əsərlərdə daha çox toxunulan mövzular təbiət təsvirləri, ictimai-siyasi lirika, məhəbbət motivli şeirlər və dini- fəlsəfi şeirlərdir. Tədqiqatdan belə nəticəyə gəlmək olur ki, təbiət, ictimai-siyasi lirika və məhəbbət motivli şeirlər heca vəznli olduğu halda, dini-fəlsəfi şeirlər əruz vəznində yazılmışdır.

Aparılan araşdırma zamanı diqqət çəkən məqamlardan biri də bölgədə dramaturgiya sahəsinin inkişaf etməməsidir. Bölgədə Nəcəf bəy Vəzirov adına dram teatırı fəaliyyət göstərdiyi halda bu janrın inkişaf etməməsi heç də ürək açan bir hal deyil. Demək olar ki, araşdırmalarımız zamanı dramatik janrın bir neçə növünə çox az sayda rast gəlinir. Buna nümunə olaraq, Ağamir Cavadın Füzulinin həyatından bəhs edən "Aşiqi sadiq mənəm" [28, s.88] adlı iki pərdəli romantik faciəsi, Hacı Yaşar Əkbərovun Vüqar adlı gəncin Qarabağ döyüşünə yollandığı zaman başına gələn hadisələri əhatə edən "İnam" [48, s. 299] adlı iki hissəli melodraması, Hafiz Mirzənin "Ay lolo və ya Moskvalı gəlin" [71, s. 285] adlı cəmiyyətə çox ciddi mesaj verən, özünün milli-mənəvi dəyərlərini, həyat və yaşam tərzini nəzərə almadan öz xoşbəxtliyini öz elində, yurdunda, öz əzizlərində və yaxınlarında görmədən bunu kənarda, başqalarında və romantik düşüncələrdə axtaran şəxslərin yanıldığını və sonda həyat reallıqlarından uzaq, populist hislər və düşüncələrlə yaşayan gənclərin sonunda peşman olduğunu göstərən komediyasını göstərə bilərik. Lakin bu dramatik əsərləri müstəqillik dövrü Lənkəran ədəbi mühitində dramaturgiyanın inkişafı kimi göstərmək düzgün olmaz. Etiraf etmək lazımdır ki, adları sadalanılan əsərlər

sənətkarlıq baxımından o qədər də yüksək səviyyədə yazılmayıb. Obrazlarının dilinin süniliyi, hadisələrin gedişatının ləngliyi və kortəbiiliyi bizə bu qənaətə gəlməyimizə şərait yaradır.

Tədqiqat zamanı diqqətimizi çəkən əsas məqamlardan biri də bölgədə talış dilinin ikinci ana dili olmasına baxmayaraq müstəqillik dövründə bölgədə fəaliyyət göstərən ədiblərin bu dildə bədii nümunələr yaratmağa meyl göstərmədikləridir. Müstəqillik dövründən öncə Əli Nasirin, Oktay Zəkanın, Mirhafiz Bahadırının, Məsudi Dövranın yaradıcılığında kifayət qədər talış dilində yazılmış nümunələrə rast gəliriksə, müstəqillik dövründə sadəcə talış dilində yazılmış təbiət təsvirli bir neçə nümunə ilə qarşılaşırıq. Nə poeziyada, nə publisistikada, nə də dramaturgiyada talış dili heç bir aktual xarakter daşımır. Bunun əsas səbəblərindən biri bu dönəmdə ədəbiyyatda inikas olunan mövzuların, xüsusilə müstəqillik ideyalarının, Azərbaycan dilinin geniş təbliği eyni zamanda yazarların daha çox oxucu kütləsinə xitab etmək istədikləri göstərilə bilər.

Tədqiqat zamanı müstəqillik dövrü Lənkəran ədəbi mühitində bir-birindən maraqlı, fərqli dəst-xətti ilə seçilən söz ustaları ilə qarşılaşırıq. Lakin bunlardan dördü- öz klassik tərzi ilə seçilən Mirhaşım Talışlı, bölgə ədəbi mühitində bir çox yenilikləri ilə seçilən Elşad Səfərli, yaradıcılığında daha çox qürbət motivləri və xalq ruhuna yaxınlığı ilə seçilən Məsudi Dövran, sərbəst şeiri bölgə ədəbi mühitində sevdirməyi bacaran İltifat Salehin yaradıcılıqlarına ayrıca olaraq toxunulmuşdur.

Mirhaşım Talışlının yaradıcılığının tədqiqatı zamanı onun əruz vəzninin dərin bilicisi olduğunun şahidi oluruq. Bölgə ədəbi mühitinə öz klassik ruhu ilə ayrıca rəng qatan Mirhaşım Talışlının yaradıcılığı o qədər zəngindir ki, ayrıca bir tədqiqatın mövzusu ola bilər. Tədqiqat zamanı onun yaradıcılığında kifayət qədər maraqlı məqamlarla qarşılaşmaq olur. Müasir dövrümüzdə qəzəllərdən ibarət divan yaratması, ilk dəfə əruz vəznində sonet yazması bu məqamlardan başlıca olanlarıdır. Öz klassik irsi ilə müasir dövrümüzdə Məhəmməd Füzuliyə bağlılığı, ondan bəhrələnməsi, qəzəl janrının yaradıcılığında aparıcı mövqe tutması Mirhaşım Talışlı yaradıcılığından əldə etdiyimiz əsas nəticələrdəndir. Eyni zamanda müstəqillik

dövründə "Fövcül-füsəha" ədəbi məclisinin bərpa olunmasında və fəaliyyətində də Mirhaşım Talışlının xidmətləri danılmazdır. Tədqiqat zamanı belə nəticəyə gəlmək olur ki, müasir dövrümüzdə klassik məclis ənənələrinin qorunub saxlanılması Lənkəran ədəbi mühitində gənc yazarlardan ibarət olan "Ziya" ədəbi məclisinin yaranmasına da təkan vermişdir. "Fövcül-füsəha"nın təkrar bərpasını nəzərə almasaq, "Ziya" ədəbi məclisi müstəqilik illərində yaradılan, həm də gənclərdən ibarət olan ilk belə məclisdir.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində bir çox yenilikləri ilə seçilən Elşad Səfərlinin yaradıcılığı da ayrıca olaraq araşdırılmışdır. Elşad Səfərlinin yaradıcılığının tədqiqi zamanı əldə etdiyimiz nəticələrə əsasən qeyd etmək olar ki, xokku janrının ədəbiyyatımızda geniş şəkildə istifadə olunması ədəbin adı ilə bağlıdır. Eyni zamanda ədəbiyyatımızda az təsadüf olunan ballada janrından kifayət qədər istifadə etməsi Elşad Səfərli yaradıcılığını digərlərindən fərqləndirir. Onun poemalarında qarşılaşdığımız maraqlı obrazlar, özünəməxsus məzmun fərqi əldə olunan nəticələrə daxildir.

Lənkəran ədəbi mühitinin müstəqillik dönəminin tədqiqatı zamanı Məsudi Dövran yaradıcılığına da kifayət qədər toxunulub. Yaradıcılığında daha çox qürbət motivləri, vətən həsrəti geniş yer alan Məsudi Dövran həm də xalq ruhuna yaxınlığı ilə seçilir. Ədibin yaradıcılığının tədqiqi zamanı əldə etdiyimiz nəticələr bunu əminliklə vurğulamağa şərait yaradır.

Müstəqillik dövrü Lənkəran ədəbi mühitində bu ədiblərin yaradıcılığına xüsusi toxunmağımızın əsas səbəbi odur ki, bu sənətkarların yaradıcılığı öz dəst-xətti ilə seçilir, bölgədə bir növ klassik tərzdə yazanların yaradıcılığında Mirhaşım Talışlı təsiri, avropasayağı yazmağa cəhd edənlərin yaradıcılığında Elşad Səfərlinin təsiri, xalq ruhuna yaxın tərzdə yazanların yaradıcılığında Məsudi Dövranın, sərbəst şeir şəklində yazanların yaradıcılığında İltifat Salehin təsiri duyulmaqdadır.

Lənkəran ədəbi mühiti həm də digər ədəbi mühitlərdən fərqli olar sonet janrından daha çox istifadə etməsi ilə seçilir. Xüsusilə də müstəqillik illərində Lənkəran ədəbi mühitində bu janrın öz yaşamının pik həddinə çatdığının şahidi

oluruq. Düzdür, sonet janrına biz bölgə ədəbi mühitində ilk dəfə Vaqif Hüseynovun, Şəkər Aslanın yaradıcılıqlarında da təsadüf edirik. Hətta Azərbaycan ədəbiyyatında ilk sonetlər çələnginin yaranması da məhz onların adı ilə bağlıdır. Lakin tədqiqat zamanı əldə olunan nəticələrdən görürük ki, bu janrdan bölgədə professionalcasına istifadə edən və onun Azərbaycan ədəbiyyatında işlənməmiş on beşə yaxın formasında ilk dəfə qələmini sınayan Elşad Səfərlidir. Əldə olunan nəticələrə əsasən vurğulamaq lazımdır ki, sonet janrının bölgə ədəbi mühiti kontekstində ayrıca olaraq daha geniş şəkildə tədqiqi mütləqdir, olduqca vacibdir.

Apardığımız araşdırmalar zamanı əldə etdiyimiz nəticələrə əsasən qeyd etmək lazımdır ki, müstəqillik dövrü Lənkəran ədəbi mühiti Azərbaycan ədəbiyyatına bir çox töhfələr vermişdir. İstər mövzu baxımından, istərsə də forma baxımından qarşılaşdığımız yeniliklər bunu əminliklə vurğulamağa şərait yaradır. Düşünürük ki, tədqiqatdan əldə olunan nəticələr gələcəkdə Lənkəran ədəbi mühitinin müxtəlif aspektlərdə tədqiqatı üçün vacib mənbələrdən birinə çevriləcəkdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində:**


1. Abbaslı İ. Folklorşünaslıq axtarışlar: [2cilddə] /İ. Abbaslı.- Bakı: Elm,c.2.- 2003, -343 s.
2. Abdurəhmanova F. Lirikada psixologizm/F. Abdurəhmanova.-Bakı: “Nərgiz” N.P.M., -2014, -152 s.
3. Adişirinov K. XX əsr Şəki ədəbi –mədəni mühiti (1900-2000-ci illər) / K.Adişirinov. -Bakı: Elm və təhsil, -2015, -489
4. Ağayev Ə. Şərəfli ömür yolu // - Lənkəran: Söz jurnalı -2006. N° 3,- s.3.
5. Axundov M. Bir ömür yaşadım / M. Axundov.- Bakı: Hərbi nəşriyyat, -2004, -304 s.
6. Axundzadə M. İ.Q. 210 / M. İ.Q. Axundzadə.- Bakı: Şərq – Qərb,- 2015, -503 s.
7. Akimova E. Yeni təfəkkür və ədəbi tənqid / E. Akimova. -Bakı: “MBM”, - 2012, -280 s.
8. Allahverdiyev C. Lənkəran boks məktəbinin atası /-Lənkəran: Söz jurnalı -2007 N°1,- s. 32.
9. Atalar sözü / tərt.ed. B. Cəlal -Bakı: Öndər Nəşriyyatı,- 2004, -263 s.
10. Atəş. Azərbaycan –Türkiyə ədəbiyyat şöləni. /Bakı: Adiloğlu, -2016,- 249 s.
11. Azərbaycan bayatıları / tərt. ed. B. Abdulla -Bakı: XXI- Yeni Nəşrlər Evi, -2004, -304 s.
12. Azərbaycan folklor antologiyası / tərt.ed. İ. Hüseyn, Q. Ruziyə [7 cilddə ] Bakı, IV c,- 2000, -456 s.
13. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan yazıçılarının X qurultayında nitqi: [Elektron resurs] / -Bakı, 30 oktyabr 1997. URL: http://lib.aliyevheritage.org/az/9165216.html
14. Babayev B. Ədəbiyyat məsələləri / B. Babayev.- Bakı: “Müəllim” nəşriyyatı, -2015, -278 s.

15. Babayev  Q. Bitməyən sevda yolu / Q.  Babayev.-  Sumqayıt: Azəri Poliqrafiya, -2017,  -175 s.
16. Babayev M., Əliyev Ə. Zamanla müxalifətdə olan şair// Sənət -2004, 5 noyabr, -s.17.
17. Babazadə  B. Ədəbiyyatda lirik növ /  B Babazadə. -Bakı: "Bakı Universiteti" nəşriyyatı, -2008,- 193 s.
18. Bağırov M. Ömürdə izlər/ M Bağırov.- Bakı: Adiloğlu, -2004,9152 s.
19. Bayramoğlu A. Şamaxıda maarif və maarifçilik/ A. Bayramoğlu. Bakı: Maarif, -1997, -240 s.
20. Belinski V.Q. Seçilmiş məqalələr / V.Q. Belinski. – Bakı, 1-988, -s 234.
21. Bəşirova A. Oxucu və kitab //-Lənkəran: Məşəl  jurnalı, -2011.  N°  1, -s 31.
22. Bəylərova  A. Bədii dildə üslubi fiqurlar/ A. Bəylərova.- Bakı: Nurlan, -2008, -210 s.
23. Cavad A. Çəkdiyim şəkillərin ruhu/A. Cavad. -Bakı: Əbilov, Zeynalov və oğulları, -2002, -89 s.
24. Cavad A. Eşq işığı / A. Cavad. Bakı: Adiloğlu, -2007, -142 s.
25. Cavad A. İşıq adam / A. Cavad. Bakı: "VEKTOR" nəşrlər evi, -2009 , -144 s.
26. Cavad A. Qəlb evinin loğmanı// -Lənkəran: Söz jurnalı, -2009. N° 2,- s. 36.
27. Cavad A. Lənkəran səhiyyəsi etibarlı əllərdədir// -Lənkəran: Söz jurnalı, -2000. N°4, -s 29.
28. Cavad A. Ömrün eşq yolu/ A. Cavad. Bakı: 3 saylı Bakı Mətbəəsi, - 2018, -207s.
29. Cavad A. Ürəklərdə yaşayan ziyalı// -Lənkəran: Söz  jurnalı,- 2007 .N °2, -2 s.
30. Cavad  A.Yanmış budaq üstə oxuyan bülbül/ A. Cavad. Bakı: "Apasrtof" çap evi, -2013, -200 s.
31. Cavadov X. Lənkəran idmanının Zaur rekordu//-Lənkəran: Məşəl  jurnalı, -2016.  N °3,  s. 18.
32. Cavadov  V. Kədər pərdə çəkdi/ V.  Cavadov. Bakı: Adiloğlu, -2009, -204 s.
33. Cavanşir P. M. İkiüzlü dünya/ Cavanşir P. M.. Bakı:  -2009, -138 s.

34. Eminov A. Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr/ Eminov A. Bakı: Elm və təhsil, -2015, -214 s.
35. Ədilli Ş. Azərbaycan şeirində forma məsələləri / Ş. Ədilli. Bakı: Elm və təhsil, -2014, -158 s.
36. Ədilli Ş. Əruz vəzninin sadələşdirilmiş qəlibləri/ Ş. Ədilli. Bakı: Adiloğlu, -2010, -50 s.
37. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı/ P. Əfəndiyev. Bakı: Elm və təhsil, -2012, -594 s.
38. Əfsanə S. Xalqı səadətə aparan əldir: [Elektron resurs] / Lənkəran, 31 may 2021. URL: https://fb.watch/6cpsB7ZQzZ/
39. Əhməd T. Zahid kişinin qızları/ T. Əhməd. Lənkəran: LDU nəşriyyatı, -2017, -111 s.
40. Əhməd S.E. Müstəqillik dövrü Azərbaycan romanı/ S.E. Əhməd. Bakı: Nurlan, -2017, -192 s.
41. Əhədov H.E. Dəyərli ömrün Lənkəran səhifəsi/ H.E. Əhədov. Bakı: Gənclik, -2003, -300 s.
42. Əhədov H.E. Mirhaşım Talışlı-85 ədəbiyyatımızın ağsaqqalı/ -Lənkəran: Məşəl jurnalı, -2011. N°1, -s 21.
43. Əhədov H. E. Səni unutmarıq/ H. E. Əhədov. Bakı: Gənclik, -2004, -203 s.
44. Əhməd H. Gözün aydın vətənim Azərbaycan: [Elektron resurs] / Lənkəran, 31 may 2021. URL: https://fb.watch/6cpw7plWe_/
45. Əhmədova S. Hüseyn Nadim Naxçivaninin həyatə, mühiti və yaradıcılığı (monoqrafiya) / S.Əhmədova . -Bakı, “Ekoprint”, -2018, -270s.
46.Əhmədova S. Qarabağ ədəbi-mədəni mühiti (XIX əsrin ikinci yarısı XX əsrin əvvəlləri ) / S. Əhmədova. -Bakı: “Ecoprint”, -2020, -220s.
47. Əhmədova S. XIX əsrin axırlarə XX əsrin əvvəllərində Baki-Abşeron ədəbi mühiti // Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Azərbaycan ədəbiyyatşünaslığı, - 2019. N°1. -s. 252-256
48. Əkbərov H. Y. İnam / H. Y. Əkbərov. Bakı: Qanun, - 2001, - 64 s.

49. Əkbərov H. Y. Qəzəllər / H. Y. Əkbərov. Bakı: Qanun, -2001, -135 s.
50. Əli N. Dan ulduzu/ N. Əli. Bakı: Adiloğlu, -2002, -135 s.
51. Əli N. Dərs yaman uzandı/ N. Əli. Bakı: "Zəkioğlu" nəşriyyatı, -2005,-147 s.
52. Əli N. Oxuyuram alnımdakı yazını/ N. Əli. Bakı: Apostrof, -2015, -304 s.
53. Əliyev İ. Bu bütünlükdə bəşəriyyətə və insanlığa qarşı cinayət idi// Azərbaycan. -2010, 26 fevral.- s.2.
54. Əliyev İ. Vətən müharibəsində qazandığımız qələbə Azərbaycan tarixində əbədi qalacaqdır: [Elektron resurs] / -Salyan, 16 noyabr 2020.URL: http://salyan-ih.gov.az/news/965.html
55. Əliyev K. Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar/ Əliyev K. Bakı: Elm və təhsil,- 2013, -274 s.
56. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi / R. Əliyev. Bakı: Mütərcim, -2008, -360 s.
57. Əliyev R. Şifahi xalq ədəbiyyatı / R. Əliyev. Bakı: Mütərcim,- 2014, -348 s.
58. Əliyev Y. Ümumi mətnşünaslıq/ Y. Əliyev. Bakı: Elm və təhsil,- 2007, -248 s.
59. Əlibəyli S. Bəyaz gecənin qızlar/ S. Əlibəyli. Bakı: "Vətən "nəşriyyatı, -2010, -144 s.
60. Əliyarov C. Şeirin dərd qəm qatarı // Yeni era - 1993, 12-13 oktyabr. –s 3.
61. Əmənullayev İ. Bir ömrün işığında/ İ. Əmənullayev. Bakı: "CBS", - 2006, -147 s.
62. Ənvəroğlu. H. Azərbaycan dramaturgiyası: tarixilik və müasirlik/ H. Ənvəroğlu. Bakı: Nurlan, -2008, -256 s.
63. Əsədullayev S. Azərbaycan poeziyasında sonet janrı/ S. Əsədullayev. Bakı: Mütərcim, -2002, -67 s.
64. Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı/ F. Əsgərli. Bakı: ADU-nun nəşriyyatı, -2009, -431 s.
65. Gəncəvi N. Sirlər xəzinəsi/ N. Gəncəvi. Bakı : Lider nəşriyyatı, -- 2004 , 264 s.
66. Gənclərin Söz Birliyi. Ömür antologiyası //. Bakı: "CBS", -2013, -214 s.
67. Hacılı A. Bayatı poetikası / A. .Hacılı. Bakı: Elm, -2000, -154 s.
68. Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları/ A. Hacıyev. Bakı: ADPU nəşriyyatı, -2005, -367 s.

69. Hacıyev A. Tiflis ədəbi mühiti / A. Hacıyev/ - Bakı: “Yazıçı”, - 1980, -190 s,
70. Hafiz M. Ayın 32-ci günü/ M. Hafiz. Bakı: “Əbilov, Zeynalov və oğulları”,- 2005, -348 s.
71. Hafiz M. Hesabat / M. Hafiz. Bakı: “Apasrtof” çap evi, -2012, -130 s.
72. Hafiz M. İblisin xeyir-duası ilə / M. Hafiz. Bakı: “Ol”MMC, -2014, -112 s.
73. Hafiz M. Katok / M. Hafiz. Bakı : “OL” NPKT, - 2017, - 372 s.
74. Hafiz M. Qızmar yayın soyuq küləkləri / M. Hafiz. Bakı: “Əbilov, Zeynalov və oğulları”, -2007, -414 s.
75. Həbiboğlu A. Əlini qoy ürəyimin üstünə/ A. Həbiboğlu. Bakı: Nurlan, -2011, -161 s.
76. Həmzəqızı Ş. Sözdən başqa qalan yox/ Ş. Həmzəqızı. Bakı: Nurlan, -2007,-143 s.
77. Həsənqızı A. Folklorşünaslığa giriş/ A. Həsənqızı. Bakı : Elm və təhsil, -2015, -261 s.
78. Həşimli H. Azərbaycan poeziyasında sonet və terset/ H. Həşimli. Bakı: Elm, -2003, -312 s.
79. Hüseynbalaoğlu B.H. Lənkəran . / B.H. Hüseynbalaoğlu, M. Talışlı- Bakı : Maarif,-1990, -512 s.
80. Hüseynov H.S. Nur Məhəmməd Ə.S/ -/Lənkəran: “Məşəl” jurnalı, - 2011. N°1,- -s. 18.
81. Hüseynov M. Dil və poeziya/ M. Hüseynov. Bakı: Elm, -2008, -438 s.
82. Hüseynov V. Dəniz çağırır/ V. Hüseynov. Bakı: Yazıçı, -1983, -122 s.
83. Hüseynov V. Vətən, sənə borcum qaldı/ V. Hüseynov. Bakı: “Dünya ” nəşriyyatı, -1996, -75 s.
84. Hüseynov V. Mənə vaxt verin/ V. Hüseynov. Bakı : Nurlan, -2006, -347 s.
85. Xatirə X. Bu sevdadan nə qalacaq görəsən/ X. Xatirə. Bakı: Bayramoğlu nəşriyyat –poliqrafiya müəssisəsi, -2013, -143 s.
86. Xatirə X. Şəhid atası ilə söhbət: [Elektron resurs] / Lənkəran, 10 dekabr 2020. URL: https://www.facebook.com/xatire.rafail.qizi

87. Xəlilov B. Dil, Ədəbiyyat, Mədəniyyət/ B. Xəlilov. Bakı: “Bakı Çap Evi”, -2013, - 484 s.
88. Xəlilov P.İ. Mir C.Ədəbiyyatşünaslığın əsasları/ P.İ. Xəlilov. Bakı: Maarif, -1987, -280 s.
89. Xəlilov S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi/ S. Xəlilov. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, -2002, -232 s.
90. Xəlilzadə F. Cənub bölgəsinin ədəbi həyatı / /Azərbaycan . -2009 2 oktyabr,-s.2.
91. İbrahimov S. Divan ədəbiyyatının poetikası/ S. İbrahimov. Bakı: “Bakı Universiteti” nəşriyyatı,- 2015, -127 s.
92. İltifat S. Ay işığı/ S. İltifat. Bakı: Yazıçı, -1983, -100 s.
93. İltifat S. Fikir işığı/ S. İltifat. Bakı: Apastrof nəşriyyatı,-2013, -136 s.
94. İltifat S. Poetik testlər/ S. İltifat. Bakı: Apastrof nəşriyyatı, -2012, -120 s.
95. İltifat S. Səni görmək üçün/ S. İltifat. Bakı: Gənclik, -1978, -40 s.
96. İsmayılova S. Tarixə yazdırdı adını İlham: [Elektron resurs] / Lənkəran, 9 may 2021.URL:https://www.facebook.com/AYBlenkeran/videos/pcb.304599181114601/376347200337987
97. Kadusi Q. K. Mənim akademiyam / Q. K. Kadusi. Bakı: Adiloğlu, -2013, -256 s.
98. Kazımov K. Sözüm xalqımadır/ K. Kazımov. Bakı: Qərənfil, -2006, -187 s.
99. Kazımov K. XX əsr rus ədəbiyyatında Şərq problemi / Kazımov K. Bakı: Təhsil, -2012, -237 s.
100. Kərimov B. Əyyub müəllim//-Lənkəran: Yaşıl çay jurnalı, -2013. N°7,- s. 65.
101. Kəsəmənli N. Seçilmiş əsərlər/ N. Kəsəmənli. Bakı: Şərq- Qərb, -2004, -256 s.
102. Qafarlı R. Uşaq folklorunun janr sistemi və poetikası/ R. Qafarlı. Bakı: elm və təhsil, -2013, -539 s.
103. Qasımlı M. Ozan aşıq sənəti/ M. Qasımlı. Bakı: Uğur nəşriyyatı, -2011, -304 s.

104. Qulammirzə H.Y . Allahın elçisi/ H.Y. Qulammirzə. Bakı: Adiloğlu, -2011, -263 s.
105. Qulammirzə H.Y. Bu fani dünyadan məhşərə qədər/ H.Y. Qulammirzə. Bakı: Adiloğlu, -2010, -140 s.
106. Qulammirzə H.Y. Dünya belə dünyadı/ H.Y. Qulammirzə. Bakı: Adiloğlu, -2012, -385 s.
107. Qulammirzə H.Y. İlahidən gələn sevgi/ H.Y. Qulammirzə. Bakı: Adiloğlu, -2010, -184 s.
108. Qulammirzə H.Y. Rübailər/ H.Y. Qulammirzə. Bakı: Adiloğlu, -2014, -195 s.
109. Maqsud M. Çay dənizə tələsir/ M. Maqsud. Bakı: Mütərcim, -1997, -137 s.
110. Mehrəliyev M. İşimizi yenidən quraq/ Lənkəran.-1991-,17 fevral. - s. 3.
111. Mehrəliyev M. Sağlamlığa qayğı ümumxalq işidir // Lənkəran. -1993,-17 iyun. –s. 4.
112. Mehrəliyev M. Şəfqətli ürəklər// Lənkəran. -1991,15 iyun. –s.4
113. Məcidov T. Hər şeyə qadirdir o gözəl allah/ T. Məcidov. Bakı: MM-S, -2017, - 320 s.
114. Məmmədəli A. Elm məbədinin müdrik rəhbəri // Məşəl jurnalı, -2017. N° 2, -s. 4.
115. Məmmədli İ. XX əsr Kəlbəcər ədəbi mühiti / İ. Məmmədli. -Bakı, “Elm”, -2010, -180s.
116. Məmmədli Ş. Azərbaycan ədəbiyyatının Borçalı qolu/ Ş. Məmmədli. Tbilisi: Kolori, -2003,-363 s.
117. Məmmədova N. Azərbaycan müstəqillik qazandıqdan sonra Lənkəran ədəbi mühitinin inkişafı// “Müasir inkişaf mərhələsində elm, təhsil və istehsalatın vəhdəti” mövzusunda keçirilən respublika elmi-praktik konfransının materialları, -Lənkəran: - 7-8 may, -2018, -s. 89-90.
118. Məmmədova N. Elşad Səfərlinin lirikası // Dedicated to the 96 th Anniversary of the National leader of Azerbaijan, Heydar Aliyev, III İnternational Scientific

Conference of Young Researchers, Baku Engineering University, -Baku: -29-30, April, -2019, -s.1099-11035.
119. Məmmədova N. Heydər Əliyev və Lənkəran ədəbi mühiti// "Tədris prosesində elmi innovasiyaların tətbiqi yolları" mövzusunda Respubika Elmi –Praktik konfransının materialları, -Lənkəran: - 7-8 may 2019, - s.171-173.
120. Məmmədova N. Lənkəran ədəbi mühitində Qarabağ ağrılı motivlər//Müasir təlim texnologiyalarinin tətbiq olunmasının təhsilin keyfiyyətinə təsiri" mövzusunda gənc tədqiqatçilarin respublika elmi-praktik konfransının materialları, - Lənkəran: - 24 dekabr, -2019, -s. 143-145.
121. Məmmədova N. Lənkəran ədəbi mühitində nəsrin inkişafı// -Lənkəran: Lənkəran Dövlət Universiteti, Elmi xəbərlər, Humanitar elmlər seriyası, -2019 N°2, - s. 66-74.
122. Məmmədova N. Lənkəran ədəbi mühitində publisistikanın inkişafı //- Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, -2019, N° 2, -s. 170-172.
123. Məmmədova N. Lənkəran ədəbi mühitində təbiət lirikası// Bakı : Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, - 2019. N °6 -s.79-82.
124. Məmmədova N. Lənkəran ədəbi mühitində "Ziya" ədəbi məclisinin yeri// Bakı: Elm və təhsil, Filologiya məsələləri, -2018. N° 15, - s. 304-311.
125. Məmmədova N. Lənkəran ediblərinin yaradıcılığında uşaq ədəbiyyatından incilər// Bakı : Bakı Slavyan Universiteti, Elmi əsərlər, Dil və ədəbiyyat seriyası, -2019. N°2. -s. 203-207.
126. Məmmədova N. Məsudi Dövran yaradıcılığında qürbət motivləri// Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri respublika konfransının materialları, - Bakı: Azərbaycan Universiteti, -24 oktyabr,- 2019, -s. 90.
127. Məmmədova N. Məsudi Dövran yaradıcılığında qürbət motivləri və xalq ruhuna yaxınlıq //- Bakı: Elm və təhsil. Filologiya məsələləri, - 2019. N°13, - s. 415-422.

128. Məmmədova N. Məsudi Dövranın poemalarında folklor örnəkləri// Gənc tədqiqatçıların III respublika elmi – praktik konfransının materialları, -Bakı: Azərbaycan Universiteti, -13 mart , -2020, s.199-201.

129. Məmmədova N. Mirhaşım Talışlının klassik irsi // Gənc tədqiqatçıların II respublika elmi – praktik konfransının materialları,-Bakı: Azərbaycan Universiteti, -15 mart , -2019. - s. 251-253

130. Məmmədova N. Müstəqillik dövrü Lənkəran ədəbi mühitində Heydər Əliyev obrazı // Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər, Dil və ədəbiyyat seriyası., -2019. N°1. -s. 252-256.

131. Məmmədova N. Müstəqillik dövrü Lənkəran ədəbi mühiti klassik məclis ənənələri fonunda/ Dedicated to the 97 th Anniversary of the National leader of Azerbaijan, Heydar Aliyev IV İnternational Scientific Conference of Young Researchers, Baku Engineering University, -Baku, Azerbaijan, -28 aprel, -2020, -s. 1175- 1178.

132. Məmmədova N. Müstəqillik dövrü Lənkəran ədəbi mühitində şeir formaları // -Lənkəran: Lənkəran Dövlət Universiteti, Elmi xəbərlər, Humanitar elmlər seriyası, -2019. N°1, - s. 74-79.

133. Məmmədova N. Müstəqillik dövrü Lənkəran ədiblərinin yaradıcılığında uşaq ədəbiyyatı // "İnteqrasiya mühitində Azərbaycan elminin qarşısında duran vəzifələr” mövzusunda gənc tədqiqatçıların (magistrant və doktorant) Respubika Elmi Konfransının materialları, Lənkəran: - 21 dekabr, - 2018, -s. 132-134.

134. Məsudi D. Belə dünyadı bu dünya/ D. Məsudi. -Bakı: Şuşa nəşriyyatı, -1999, 55 s.

135. Məsudi D. Qəfildən gələn səda / D. Məsudi. - Bakı: Elm və təhsil, -2018, -280 s.

136. Məsudi D.Ömürdən bir damla / D. Məsudi. –Bakı: Nurlan, -2003,-168 s.

137. Məsud D. Ümidlə inama doğru gedən yol / D. Məsudi. -Bakı: Elm və Təhsil, -2011, - 289 s.

138. Məsudi D. Ümid, İnsan // Lənkəran: Məşəl jurnalı, -2004 , N° 3-4 , - s. 38-40.

139. Məsudi D. Yadına düşür // Lənkəran: Məşəl jurnalı, - 2006, N °3-4, - s. 12.
140. Məsudi D. Yetim Dünya / D. Məsudi. -Bakı: Şuşa nəşriyyatı, -2000, -88 s.
141. Mikayıl M. Seçilmiş əsərlər / M. Mikayıl. -Bakı: Şərq- Qərb, -2004, -351 s.
142. Mirhafiz B. Güllə atma qaranquşa / B. Mirhafiz. -Bakı: Təbriz nəşriyyatı, -1999, -28 s.
143. Mirhafiz B.O əllərin hərarəti /Mirhafiz B. -Bakı: Əbilov, Zeynalov və oğulları, - 2003,- 108 s.
144. Mirhafiz B. Şimşək parıltısı/ B. Mirhafiz. -Bakı: Əbilov, Zeynalov və oğulları, - 2004, -114 s.
145. Mirhüseyn A. Əzizənin səhvi / A. Mirhüseyn.- Bakı: Ecoprint, -2018,- 2018 s.
146. Mirhüseyn A. Həyatın acısı hekayəsi // Lənkəran: Məşəl jurnalı, -2013, N°1, -s. 30.
147. Mirhüseyn A. Qəniməti el istəyi olan Hacıməmməd // Lənkəran: Məşəl jurnalı, - 2013, N° 2, - s. 20.
148. Mirhüseyn A. Qırılan ömürlər /A. Mirhüseyn. Bakı: MBM nəşriyyatı, -2013, -376 s.
149. Mirhüseyn A . Soyuq ömrün nəşəsi / A. Mirhüseyn.. Bakı : Nurlan, -2002, -164 s.
150. Mirhüseyn A .Ürəyin kölgəsi / A. Mirhüseyn. Bakı: Kooperasiya nəşriyyatı, -2007, - 343 s.
151. Mirsalam M. Dürdanələr / M. Mirsalam . Bakı: MBM-R, - 2010, - 348 s.
152. Mirsalam M. Ürək təranələri / M. Mirsalam . Bakı: MBM-R, -1998,-78 s.
153. Mirsalam M. Qəzəllər / M. Mirsalam. Bakı: Ləman nəşriyyat poliqrafiya, -2006, -403 s.
154. Mirzə Ə. S. Hophopnamə: [2cilddə] / Ə. S. Mirzə.- Bakı, Şərq-Qərb, -c.2. – 2004, 350 s.
155. Mustafayeva X. B. Azərbaycan uşaq ədəbiyyatı / X. B. Mustafayeva. -Bakı: Elm, - 2011, -292 s.

156. Muğamatoğlu X. Qayıt, məni qaytar mənə / X. Muğamatoğlu. -Bakı: OL MMC, -2014, -136 s.
157. Müasir Azərbaycan ədəbiyyatı: [2cilddə] - Bakı: Bakı Universiteti nəşriyyatı, -c. 2. -2007, -561 s.
158. Müstəqillik Dövrü Azərbaycan Ədəbiyyatı: [2cilddə] -Bakı: Elm və təhsil, -c.1. -2016, -800 s.
159. Nadir M. Qəzəllər/ M. Nadir. -Bakı: Azadlıq, -1998,-100 s
160. Nadir M. Qəzəllər/ M. Nadir.- Bakı: Nurlan, -2001, -242 s
161. Nəğmələr, inanclar, alqışlar/ A. Nəbiyev. -Bakı: Yazıçı, -1986, - 213 s.
162. Oqtay Z . Cəftərəzə/ Z . Oqtay.- Bakı: Elm və təhsil, -2012, -227 s.
163. Oqtay Z. Təxəyyüldən doğan günəş/ Z. Oqtay.- Bakı: Qanun, -2005, -234 s.
164. Ömürdən yarpaqlar. Almanax /Bakı: Şirvannəşr, -2004, -300 s.
165. Paşayev M.C. Ədəbiyyatşünaslığın əsasları./ M.C. Paşayev, P. Xəlilov -Bakı: Maarif, -1988,- 280 s.
166. Pənah G. Azərbaycan ədəbiyyatı məsələləri / G. Pənah, S. Əhmədli- Bakı: UniPrint, -2014, -616 s.
167. Pirsultanlı S.P. Azərbaycan Aşıq poeziyasında və yazılı poeziyada təcnisin inkişaf tarixi/ S.P. Pirsultanlı. - Gəncə: GDU nəşriyyatı, -2010, -155 s.
168. Pirsultanlı S.P. Azərbaycan şifahi xalq şeiri və heca vəzninin inkişafı / S.P. Pirsultanlı. - Bakı: Təknur, - 2013, -481 s.
169. Pirsultanlı S.P. Heca vəzninin bayatı və qoşma möcüzələri / S.P. Pirsultanlı. - Bakı: Azərbaycan Respublikasının Təhsil mərkəzi, -2003, -293 s.
170. Rəsul R. Seçilmiş əsərlər/ R. Rəsul .- Bakı: Öndər nəşriyyatı, -2005, - 304 s.
171. Rufullayev Q. Mirhaşım Talışlı / Q. Rufullayev .- Bakı: Adiloğlu, -2008, -96 s.
172. Rzayev Y. Ömürdən səslər / Y. Rzayev. - Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, - 2001, - 468 s.
173. Salamoğlu T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri / T. Salamoğlu. - Bakı: "BQU" nəşriyyatı, -2008, -554 s.

174. Saraçlı M. Naxçıvan ədəbi mühitindən / M. Saraçlı. - Bak: Elm və təhsil, - 2007, - 80 s.
175. Seyidqızı A. Bir xəbər eşitdim qəflətən/ A. Seyidqızı. -Bakı: Çinar – Çap, - 2006, -72 s.
176. Seyidqızı A. Ömür qatarı / A. Seyidqızı. - Bakı: Apasrtof çap evi, - 2009, -- 576 s.
177. Sədaqətoğlu S. İtən vaxt/ S. Sədaqətoğlu.- Bakı: Adiloğlu nəşriyyat, - 2003, - 227 s.
178. Səfərli A. Yoxluğunun cazibə qüvvəsi/ A Səfərli. Bakı: Elm və təhsil, - 2018, -164 s.
179. Səfərli E. Alması düşməyən nağıllar / E. Səfərli. - Bakı: Elm və təhsil, -2016, -242 s.
180. Səfərli E. Bu, Elşad Səfərlidir / E. Səfərli. -Bakı: Gənclik, -2012, -312 s.
181. Səfərli E. Biblioqrafiya / E. Səfərli. - Bakı: Elm və təhsil, -2021, -106 s.
182. Səfərli E. Bir anın yuxusu / E. Səfərli. - Bakı: Gənclik, -2021, - 60 s.
183. Səfərli E. İki çiçəyin dastanı / E. Səfərli. -Bakı: Gənclik,- 2020, -356 s.
184. Səfərli E. Lənkəran sonetləri / E. Səfərli. -Bakı : Gənclik,- 2017, -125 s.
185. Səfərli E. Sabir Rüstəmxanlının fərdi yaradıcılıq üslubu/ E. Səfərli. -Bakı: Qanun, -2003, -200 s.
186. Səfərli E. Sonet janrı və Azərbaycan soneti / E. Səfərli. -Bakı: Elm və təhsil, - 2014, -380 s.
187. Səfərli E. Şair təkliyə məhkumdu/ E. Səfərli. - Bakı: Nurlan, -2004, -239 s.
188. Səməd V. Seçilmiş əsərlər/ V. Səməd. -Bakı: Şərq- Qərb, - 2005, -261 s.
189. Sona X . Maştağa ədəbi mühiti və Mir Cəlal / X .Sona.- Bakı: Nurlan, - 2007, - 79 s.
190. Sözlü – sehirli dünya – XIV/ Bakı : “MBM”, -2015, -208 s.
191. Şahin F. Bu, Elşad Səfərlidir //Palitra. -2013, - 25 aprel, -s.12.
192. Şekspir V. Seçilmiş əsərlər: [2cilddə] / V.Şekspir.- Bakı: Öndər Nəşriyyatı, c. 2. - 2004, - 303 s.

193. Şəkər A. Səni sevdiyim gündən/ A. Şəkər. -Bakı: Gənclik, -1980, -118 s.
194. Şəkər A. Payıma düşən ömür/ A. Şəkər. -Bakı: Avrasiya Press, -2012, -232 s.
195. Şəmil S.Ədəbiyyatla bütövləşmiş şəxsiyyətlər.- Bakı: Xan nəşriyyatı -2015, -184 s.
196. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi/ N . Şəmsizadə.- Bakı: Proqres, - 2012, - 433 s.
197. Şərifova S. Çağdaş Azərbaycan postmodern romanı / S. Şərifova. -Bakı: Elm və təhsil, -2015, - 104 s.
198. Şirvanlı M.U. "Salam Qoca". Ədəbi – bədii fəlsəfi düşüncələr / M.U. Şirvanlı. - Bakı: Mütərcin, - 2015, - 144s.
199. Şükürlü İ. Yaşatmaq eşqiylə // - Lənkəran: Məşəl jurnalı,- 2016. N°3. s. 8.
200. Tağısoy N. Ötən ilin son "Ulduz" una yeni il baxışı // Bakı: Ulduz jurnalı, -2018. N°1.- s. 5.
201. Tahirov E. Ata sorağında/ E. Tahirov.-Lənkəran: LDU mətbəəsi, -2017, -290 s.
202. Tahirov E . Kamil insanlar təbabət zirvəsində //-Lənkəran: Məşəl jurnalı, -2015. N °2. - s. 6
203. Talışlı M. Dedim ki sözüm qala / M. Talışlı. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, -1996, -355s.
204. Talışlı M. Əsərləri: [3cilddə] / M. Talışlı -Bakı: Adiloğlu, - c.3 -2007, -399 s.
205. Talışlı M. Xatirəmdə yaşayanlar/ M. Talışlı. Bakı: Adiloğlu, -2010, -464s
206. Talışlı M.M. XIX əsr Lənkəran ədəbi mühiti: / filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı./ -Bakı, 1997, -177s
207. Talışlı M. Minacat ( Sonetlər çələngi ) //-Lənkəran: Söz jurnalı, -1998. N °5. -s. 12.
208. Talışlı M. Öz xalqına şöhrətdi Səməd Vurğun //-Lənkəran: Söz jurnalı, -2006. N°7. – s. 3.
209. Talışlı M. Professor Tarıverdi Əzizov// -Lənkəran: Söz jurnalı, -2007. N°3 –s. 13.

210. Talışlı M. Riyaziyyat müəllimi şeir, sənət vurğunu// -Lənkəran: Söz jurnalı -2006. N°3. -s. 30.
211. Talışlı H.M. Sözə məktub// - Lənkəran: Söz jurnalı, -2018. N°1. - s 16.
212. Talışlı M. Şirvandan Lənkərana (M.İ.Qasir ) //- Lənkəran: Söz jurnalı, -1996. N°3. -s. 25.
213. Tapmacalar/ N. Seyidov. -Bakı: Şərq- Qərb, -2004, -208 s.
214. Tərlan. Sonuncu halqa/ Tərlan. Bakı: “Apasrtof” çap evi, -2013,-221 s.
215. Vahabova G. Uca dağlar qoynunda/ G. Vahabova. Bakı: Hərbi nəşriyyat, -1999, - 39 s.
216. Vəliyev E. Baxmağa dəyər / E. Vəliyev. Bakı: Nurlan, -2010, -168 s.
217. Vəliyev E. Mənim duyğum / E. Vəliyev Bakı: Elm və təhsil, -2016, -204 s.
218. Vəliyev E. Ürəyimdə döyünən vətən / E. Vəliyev. Bakı: Orxan NPM, -2017, -208 s.
219. Vüqar Ə. Ədəbiyyatşünaslıq / Ə. Vüqar. Bakı: Müəllim nəşriyyatı, -2007, -167 s.
220. Yusifzadə C. Poeziya/ C. Yusifzadə. Bakı: Mütərcim, -2009, -392 s.
221. Zakir B. Mənim atasız dünyam/ B. Zakir. Bakı: UniPrint, -2011, -352 s.
222. Zeynalov A. Haqqın qılıncı/ A. Zeynalov. Bakı: Gənclik,-1999 , -140 s.
223. Zeynalov A. Yüz yaş azdı, min yaş azdı Azərbaycanda / A. Zeynalov. Bakı: Şirvannəşr, -1999, -184 s.
224. Ziyafət Ə. İtkin düşən harayım / Y. Ziyafət. Bakı: Akta firması, -1997,-121 s.
225. Ziyafətqızı Ü.Bir ovuc gözyaşı / Ü. Ziyafətqızı. Bakı: 3 saylı Bakı mətbəəsi ASC,- 2017, -196 s.
226. Zülaloğlu A. Soltanağa həkim // -Lənkəran: Məşəl jurnalı,- 2014. N°3. - s. 23.

**Türk dilində:**

227. Haşimli H. Türk halklarının edebiyyat ilişkilerine dair araştırmalar/ H. Haşimli. -Ankara, -2009,-192 s.

228. Memmedova N. Bağımsızlık Dönemi Lenkeran Edebi Ortaminda Nesir (Düzyazı) // Turkestan: Túrkologia, - 2019. № 6, -s. 57-69.

**Rus dilində:**

229. Мамедова Н.Г. Публицистические произведения в литературной среде Лянкярана // -Москва: Евразийский союз ученых (ЕСУ)Ежемесячный научный журнал, -2020. № 5, -с. 53-55.

**İngilis dilində:**

230. Mammadova N.H. Journalism in Lankaran literary environment// VII міжнародна конференція «наука як рушійна антикризова сила» - Київ:-2020, -p. 124-128.
231. Mammadova N.H. The reflection of social political events in poetry of the Lankaran literary environment on the period of independence//-Mockow: Евразийский союз ученых (ЕСУ)Ежемесячный научный журнал, -2020. № 5, - p. 50-52.